RSSSMİ DÖVLSST QSSZETİ

# AZƏRBAYCAN



№ 50 (10070) 18 mart 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QSSZETİN SSSASI 1918-Cİ İLDSS QOYULMUŞDUR



# Qarabağ və Şərqi Zəngəzurun dirçəliş modeli

## İşğaldan azad edilən ərazilər dünya miqyasında analoqu olmayan bərpa və quruculuq mərhələsini yaşayır

Qarabağ və Şərqi Zəngəzur bu gün dünya miqyasında analoqu olmayan bərpa və quruculuq mərhələsini yaşayır. Otuz illik işğal dövründə tamamilə dağıdılan, infrastrukturu məhv edilən ərazilərimiz bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ən müasir standartlar əsasında yenidən qurulur. Vətən müharibəsində Qələbədən dərhal sonra dövlət başçısının "Biz Qarabağı cənnətə çevirəcəyik" vədi, artıq bu gün həmin bölgələrin real mənzərəsinə çevrilib. Bölgəyə səfər edən yerli və əcnəbi vətəndaşlar da bu gerçəkliyi böyük heyrətlə dilə gətirirlər.

Bu ərazilərin bərpası ölkəmizin daxili siyasətinin ən mühüm prioritetidir. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində qəbul edilmiş "Böyük Qayıdışa dair Dövlət Proqramı" bu nəhəng işlərin yol xəritəsidir. Dövlət büdcəsinin əsas xərclərinin məhz bu istiqamətə yönəldilməsi Azərbaycanın öz daxili imkanları ilə yenidənqurma modeli yaratdığını sübut edir.

Dövlət başçısının birbaşa nəzarəti altında həyata keçirilən layihələr işğaldan azad edilmiş əraziləri müasir infrastruktur, "ağıllı texnologiya"lar və "yaşıl enerji" zonası ilə zənginləşdirir. Daşı daş üstündə qalmayan ərazilərimizdə beynəlxalq hava limanları tikilir, nəhəng tunellər, magistral yollar çəkilir və müasir yaşayış kompleksləri inşa edilir.

6

## *Azərbaycanın xarici siyasəti:* Cənubi Qafqaz və regionlararası miqyas




Azərbaycan Avropa ölkələri ilə geniş enerji əməkdaşlığı edir. Azərbaycan Prezidenti İlham Əliyevin "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında iştirakı zamanı söylədiyi nitqində vurğulamışdır: "...biz Avropanın enerji bazarında mövcudluğumuzu genişləndirmək niyyətindəyik. Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur. Lakin bunun üçün, şübhəsiz ki, ötən dəfə də qeyd etdiyimiz kimi, mövcud qaz nəqli infrastrukturlarının genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu gün "Cənub qaz dəhlizi" artıq tam yüklənmiş vəziyyətdədir. Biz bazarda mövcud tələbatı və qlobal vəziyyəti nəzərə alaraq, artacaq tələbatı qarşılamaq məqsədilə əlavə genişləndirmə və interkonnektor imkanlarını araşdırırıq. Məqsədimiz ixracı maksimum səviyyəyə çatdırmaqdır".

7

## Azərbaycan etibarlı logistik mərkəz statusunu möhkəmləndirir

Prezident İlham Əliyev XIII Qlobal Bakı Forumunda çıxışı zamanı Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətini bir daha gündəmə gətirib. Dövlətimizin başçısı vurğulayıb ki, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur və bu, həm insanlar, həm ölkələr, həm iqtisadiyyat, həm də tədarük zəncirləri üçün böyük çətinliklər yaradır: "Bu gün biz "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşıq və əslində, həm Orta dəhlizdə, həm də "Şimal-Qərb" dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Azərbaycan ərazisində hər iki dəhliz üzrə tikinti layihələri tam şəkildə başa çatdırılmışdır".

Dövlətimizin başçısının bəyanatları Azərbaycanın strateji mövqeyini və qlobal logistika mərkəzinə çevrilmək hədəflərini çox dəqiq ifadə edir.

7

## Süni intellektdən məsuliyyətli istifadə ilə bağlı hüquqi baza yaradılır




Deputatlar işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı quruculuq və abadlıq işlərinin uğurla davam etdirilməsini, bununla yanaşı, bu torpaqlarda milli-mənəvi dəyərlərimizin və ənənələrimizin də bərpasını yüksək qiymətləndiriblər. Vurğulanıb ki, bütün bu nailiyyətlər əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin uğurla davam etdirdiyi qətiyyətli siyasət, prinsipial mövqe, xalqımızın birliyi nəticəsində əldə edilib. Qeyd olunub ki, işğaldan azad olunmuş torpaqlara Böyük qayıdış "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən biridir və ölkə Prezidentinin bu prosesə dövlət siyasəti və uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi yanaşması nəticəsində qayıdış zonasında infrastrukturun ən müasir səviyyədə yenidən qurulması, sosial obyektlərin fəaliyyətinin keyfiyyətli şəkildə təşkili öz yurdlarına qayıdan köçkünlərin sürətli adaptasiyasına imkan verir.

Çıxışlarda dövlətimizin beynəlxalq tədbirlərdə özünün işğala son qoymaq və sülh yaratmaq təcrübəsini bölüşdüyü diqqətə çatdırılaraq, bu gün dünyada mövcud olan qlobal problemlərin həlli baxımından ötən həftə keçirilmiş "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusuna həsr olunmuş XIII Qlobal Bakı Forumunun mühüm əhəmiyyəti vurğulanıb.

3

## Cəbrayıl "Şəfəq"i tezliklə işıq saçacaq



Hazırda terminal öz enerji ehtiyacını qarşılamaq üçün yeddi qaz turbinindən istifadə edir. Elektrikləşdirilmədən sonra turbinlər mərhələli şəkildə söküləcək və bu da istifadə olunmayan yanacaq qaz həcmlərinin ixraca yönəldilməsinə imkan verəcək.

2025-ci ildə STEL layihəsi üzrə üç əsas müqavilə imzalanıb və hazırda bu müqavilələr üzrə iş həcminə daxil olan fəaliyyətlər, o cümlədən mühəndis-layihələndirmə, təchizat, quraşdırma və tikinti işləri təhlükəsiz şəkildə və qrafikə uyğun olaraq davam edir. Layihə üzrə tikinti işlərinin iki mərhələdə aparılacağı nəzərdə tutulub. Birinci mərhələnin 2027-ci ilin ortalarında, ikinci mərhələnin isə 2028-ci ilin sonunadək başa çatacağı gözlənilir.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti bu layihələrlə ölkəmizin bərpaolunan enerji səylərinə yardımçı olmaq məqsədi daşıdıqlarını deyir. Xatırladaq ki, BP Azərbaycanda uzun illərdir ən iri neft, qaz və ixrac layihələrinin operatorudur. İndi artıq onun ölkəmizdəki fəaliyyətinə "yaşıl enerji" sahəsi də daxil olub.

9

## WUF13 Mərkəzi Asiya və Xəzər regionu üçün mühüm perspektivlər vəd edir

Azərbaycan və xüsusilə də Bakı WUF13-dən istifadə edərək şəhərsalmanın heç də modernləşmə olmadığını nümayiş etdirə bilər. Bununla da ölkənin tarixi şəhər quruluşunun, mədəni irsin və yeni inkişafın düşünülmüş şəkildə balanslaşdırıldığı bir yer kimi təqdim olunması mümkündür.

Bu tədbir həmçinin ölkənin regional liderlik imkanlarını da nümayiş etdirir. Azərbaycan WUF13-dən istifadə edərək ortaq tarixi irsə malik olduğu Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı möhkəmləndirə bilər. Bu dinamika forumdan kənarda da davam edərsə, Bakı Cənubi Qafqaz və Mərkəzi Asiya arasında körpü və potensial olaraq şəhər dayanıqlığı üzrə uzunmüddətli regional bilik şəbəkəsinə çevrilə bilər. Bu mənada Azərbaycan üçün ən böyük nailiyyət, sadəcə, beynəlxalq bir tədbirə evsahibliyi etmək deyil, həm də WUF13-ü daha geniş İpək Yolu regionunda əməkdaşlıq, öyrənmə və şəhər transformasiyası üçün davamlı platformaya çevirmək olardı.

6



## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155, № 6 (I kitab), maddə 654, № 8, maddə 948, № 12 (I kitab), maddə 1287; 2025, № 3, maddələr 224, 227, № 6, maddə 552, № 8, maddə 759) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.4-cü bəndinin birinci cümləsində "beş" sözü "altı" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2026-cı il*

## "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 245-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 avqust tarixli 466 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 82** **Bakı şəhəri, 17 mart 2026-cı i**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 245-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 avqust tarixli 466 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 21 may tarixli 83 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddə 332 (Cild l) ilə təsdiq edilmiş "Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondunun istifadə Qaydaları"nın 9-cu hissəsi aşağıdakı redaksiyada verilsin:

"9. Fondun hesabında ilin sonuna qalan istifadə olunmamış vəsait vahid xəzinə hesabının sərbəst qalığına köçürülür.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 22 fevral tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 119 (Cild I); 2025, № 5, maddə 503, № 7, maddə 701) ilə təsdiq edilmiş "Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu haqqında Əsasnamə"nin 11-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"11. Fondun hesabında ilin sonuna qalan istifadə olunmamış vəsait vahid xəzinə hesabının sərbəst qalığına köçürülür.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 2 iyun tarixli 74 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 343 (Cild I) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin Ehtiyat Fondunun vəsaitindən istifadə Qaydaları"nın 6-cı hissəsinin ikinci abzasına "fonduna" sözündən sonra "və Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fonduna" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 12 iyul tarixli 134 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 667 (Cild I); 2025, № 5, maddə 503) ilə təsdiq edilmiş "Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondlarının və vəsaitlərinin yaradılması və onlardan istifadə Qaydası"nın 10-cu hissəsi aşağıdakı redaksiyada verilsin:

"10. Fondun hesabında ilin sonuna qalan istifadə olunmamış vəsait vahid xəzinə hesabının sərbəst qalığına köçürülür.".

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 sentyabr tarixli 423 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1577 (Cild l); 2024, № 4, maddə 461; 2025, № 2, maddə 192) ilə təsdiq edilmiş "Dövlət Əməyin Mühafizəsi Fondunun Əsasnaməsi"nin 2.4-cü bəndində "Maliyyə ilinin sonuna Fondun hesabında qalan xərclənməmiş vəsait" sözləri "Fondun hesabında ilin sonuna qalan xərclənməmiş vəsait "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Notariat haqqında" və "İcra haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 216-VIIQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 iyul tarixli 653 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 83** **Bakı şəhəri, 17 mart 2026-cı i**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Notariat haqqında" və "İcra haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 216-VIIQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 iyul tarixli 653 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 23 avqust tarixli 148 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 652 (Cild I); 2024, № 9, maddə 1067) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli formanın adında "Ölümü ilə əlaqədar vərəsəliyi qəbul etməyə vaxtı çatmamış" sözləri "Miras açıldıqdan sonra ölmüş" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş 5 nömrəli forma ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110, 111, № 3, maddə 359, № 5 (II kitab), maddələr 597, 606, № 9, maddə 1067; 2025, № 2, maddə 193, № 7, maddə 698) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

2.1. 69-cu hissədə "mirası qəbul etməməsi" sözləri "mirasdan imtina etməsi" sözləri ilə əvəz edilsin;

2.2. 83-cü hissənin birinci abzasında "xəbər verməlidir" sözləri "bildiriş göndərir" sözləri ilə əvəz edilsin və həmin hissənin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"Notarius qaib vərəsələrin axtarılması üçün mediada, habelə Notariat Palatasının rəsmi internet saytında elan yerləşdirir.";

2.3. 88-ci hissənin birinci abzasında "mirası qəbul edənədək, miras qəbul edilmədikdə isə" sözləri "mirasın qəbulundan imtina etdikdə" sözləri ilə əvəz edilsin;

2.4. 90-cı hissə aşağıdakı redaksiyada verilsin:

"90. Miras əmlakın mühafizə edilməsi vərəsəlik şəhadətnaməsi verilənədək davam edir.";

2.5. 96-cı hissə üzrə:

2.5.1. ikinci abzas ləğv edilsin;

2.5.2. üçüncü abzas aşağıdakı redaksiyada verilsin:

"Vərəsə miras açıldıqdan sonra onun müəyyənləşdirilmiş müddətdə qəbulundan imtina etmədən öldükdə, mirasın qəbulundan imtina etməmiş vərəsənin vərəsələri ilkin miras qoyandan qalmış əmlaka mirasın qəbulundan imtina etməmiş vərəsənin əmlakı kimi vərəsəlik şəhadətnaməsi ala bilərlər.";

2.5.3. aşağıdakı məzmunda beşinci, altıncı və yeddinci abzaslar əlavə edilsin:

"Notarius vərəsəlik şəhadətnaməsinin əldə olunması üçün müraciət edən vərəsəyə şəhadətnamə verərkən vərəsə olan, lakin şəhadətnamə almaq üçün müraciət etməmiş digər vərəsələrin (miras şəriklərinin) də mirasdan onlara çatacaq paylarını müəyyən edərək həmin şəhadətnamədə göstərir.

Hər bir miras şəriki Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1325.2-ci maddəsi ilə müəyyən edilmiş payına da vərəsəlik şəhadətnaməsi ala bilər.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1325.2-ci maddəsində nəzərdə tutulmuş miras şəriklərinin miras paylarına sərəncam vermək hüquqları vardır. Həmin şəxslər vərəsəlik şəhadətnaməsi alanadək notariat qaydasında təsdiq edilmiş müqaviləyə əsasən miras paylarına sərəncam verə bilərlər. Miras şərikləri arasında miras paylara sərəncam verilməsi haqqında müqavilə əsasında miras payı əldə etmiş vərəsənin mirasdakı payı əldə etdiyi pay nisbətinə uyğun artırılır və vərəsəlik şəhadətnaməsində yekun payı göstərilir.";

2.6. 97-ci hissənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Əgər nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsə yoxdursa və ya bütün vərəsələr mirasdan imtina etmişdirlərsə, yaxud bütün vərəsələr vərəsəlik hüququndan məhrum edilmişdirlərsə, vərəsələri olmayan əmlak dövlətə keçir, əgər miras qoyan şəxs sosial xidmət müəssisələrinin təminatında olmuşdursa, qanunla dövlət mülkiyyətinə keçməli olan daşınar əmlak istisna olmaqla həmin şəxslərə məxsus daşınar əmlak onların mülkiyyətinə keçir.";

2.7. 98-ci hissənin üçüncü abzasının üçüncü cümləsində "mirasın qəbulu və ya ondan" sözləri "mirasın qəbulundan" sözləri ilə əvəz edilsin;

2.8. 99-cu hissə üzrə:

2.8.1. ikinci abzasdan "mirasın açıldığı gündən altı ay ərzində" sözləri çıxarılsın və həmin abzasa "nümayiş etdirdikdə" sözlərindən sonra "habelə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1256-cı maddəsi ilə müəyyən olunmuş müddət ərzində mirasın qəbulundan imtina etmədikdə" sözləri əlavə edilsin;

2.8.2. beşinci abzasın birinci və üçüncü sətirlərindən "mirasın qəbulu üçün müəyyən edilmiş müddətdə" sözləri çıxarılsın;

2.9. 110-cu hissənin altıncı abzası aşağıdakı redaksiyada verilsin:

"Vərəsəlik şəhadətnaməsinin verilməsi haqqında ərizə mirasın qəbul edilməsi haqqında ərizə kimi qəbul edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Yeni qlobal bazarlara çıxış imkanları artır

## Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir

2025-ci ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə 8,1 milyard manat vəsait ayrılıb. Bu isə əvvəlki ilin məbləğindən 23 faiz çoxdur. Ümumilikdə ötən il 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal edilib. Bu gün Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir.



Bu fikirləri martın 13-də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclasda Baş nazir Əli Əsədov söyləyib. Baş nazir təhsil, səhiyyə və sosial müdafiəyə ayrılan vəsaitlərdən danışıb. Əli Əsədov vurğulayıb ki, mövcud geosiyasi şərait nəzərə alınaraq, əldə olunmuş nəticələrin qorunması, ölkənin təhlükəsizliyinin möhkəmləndirilməsi, müdafiə qabiliyyətinin artırılması və dövlət sərhədlərinin toxunulmazlığının təmin olunması istiqamətində tədbirlər bundan sonra da ardıcıl şəkildə davam etdiriləcəkdir.

Azərbaycanın dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik sahəsinə ayrılan vəsait, ölkənin təhlükəsizlik strategiyasının inkişafı və regional sabitlik baxımından mühüm əhəmiyyət kəsb edir. 2025-ci il üçün ayrılan 8,1 milyard manatlıq vəsait ölkənin hərbi gücünü artırmaq və milli təhlükəsizliyi təmin etmək məqsədinə xidmət edir.

Müdafiə və milli təhlükəsizlik sahələri hər bir suveren dövlətin ən vacib prioritetlərindən biridir. Azərbaycanın 8,1 milyard manatlıq xərcləri yalnız ordu quruculuğu və silahlanma deyil, həmçinin beynəlxalq təhlükəsizlik məsələlərinə qarşı hazırlıq məqsədini də güdüb.

Azərbaycanın yerləşdiyi region geosiyasi baxımdan çox önəmli olduğu üçün bu vəsaitlərin istiqamətlənməsi həm müdafiə potensialının artırılmasına, həm də milli təhlükəsizliyin təmin edilməsinə yönəlib. Azərbaycanın strateji məqsədi müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, eləcə də beynəlxalq müttəfiqlərlə əlaqələrin gücləndirilməsidir.

Son illərdə Azərbaycanın müdafiə sahəsində etdiyi yatırımlar ordu quruculuğunun modernləşdirilməsi və yeni texnologiyaların tətbiqini əhatə edir. Bu vəsaitlərin bir hissəsi ən son texnologiyalara sahib olan müasir silah sistemlərinin alınmasına, hərbi təlimlərin inkişaf etdirilməsinə və hərbi infrastrukturun yenilənməsinə sərf olunacaq.

Ölkəmiz həmçinin müasir döyüş texnologiyalarına sahib olmaqla yanaşı, milli təhlükəsizlik sahəsində kiber təhlükəsizlik kimi yeni təhdidlərə qarşı da ciddi tədbirlər həyata keçirir. Bu, müasir dünyada ən önəmli sahələrdən biridir, çünki rəqəmsal mühitdəki təhdidlər ənənəvi hərbi təhdidlərdən daha böyük risklərə yol açmağa qadirdir.

Azərbaycanın müdafiə və milli təhlükəsizlik sahəsinə ayrılan vəsait yalnız ordu quruculuğu ilə məhdudlaşmır. Ölkə həmçinin regional sabitlik və ərazi bütövlüyünü təmin etmək məqsədilə sərhəd təhlükəsizliyinə və daxili təhlükəsizlik orqanlarının gücləndirilməsinə də önəm verir. Bu vəsait, sərhəd qoşunlarının modernləşdirilməsi milli təhlükəsizlik və kəşfiyyat orqanlarının işinin daha effektiv və çevik olmasına yönəlib.

Azərbaycanın sərhəd təhlükəsizliyinə olan yatırımlar xüsusi önəm kəsb edir. Ordu və təhlükəsizlik orqanlarının gücləndirilməsi, gələcəkdə hər hansı bir potensial təhdidə qarşı hazırlıqlı olmaq günün vacib məsələsidir.

Azərbaycan həmçinin beynəlxalq təhlükəsizlik mühitindəki vəziyyətləri nəzərə alaraq, milli təhlükəsizlik strategiyasını formalaşdırır. Bu, yalnız hərbi qüvvələrdən ibarət deyil, həm də ölkənin diplomatik və beynəlxalq müttəfiqlərlə olan əlaqələrinin gücləndirilməsi baxımından da əhəmiyyətlidir.

Eyni zamanda hərbi xidmətə çağırılan vətəndaşlar üçün daha yaxşı şəraitlərin yaradılması, onların sosial təminatının artırılması da bu vəsaitlərin daxilində nəzərdə tutulub. Həmçinin ordu içərisindəki kadrların təhsili və peşəkar bacarıqlarının inkişafı üçün təlim proqramlarının gücləndirilməsi də diqqətdə saxlanılır.

2026-cı ilin dövlət büdcəsində də müdafiə və milli təhlükəsizlik xərcləri artırılıb. Bu rəqəm 2025-ci ilin müvafiq büdcə göstəricisindən təxminən 318 milyon manat çoxdur və müdafiə qabiliyyətinin gücləndirilməsinə əsas prioritet kimi yanaşıldığını göstərir.

Azərbaycanın son illərdə hərbi təyinatlı məhsul istehsalı və bu gün 20-yə yaxın dövlətə hərbi təyinatlı məhsulların ixracı ölkənin bu sahədə qısa zamanda böyük uğurlar əldə etdiyini bir daha təsdiqləyir. Bu göstərici həm də Azərbaycanın hərbi sənayesi sahəsindəki inkişafını və beynəlxalq bazarda artan rolunun bariz təcəssümüdür.

Azərbaycanın hərbi sənayesi ölkənin müstəqillik qazandığı dövrdən bəri inkişaf etməyə başlayıb. Xüsusilə son 10 ildə dövlətin hərbi sənayenin modernləşdirilməsi və yeni texnologiyalarla silahlanması istiqamətindəki yatırımları, ölkəni regional bazarda müasir hərbi məhsul istehsalı sahəsində rəqabətə girməyə hazırlayıb.

Orta və ağır silahlar, döyüş maşınları, raket sistemləri və digər hərbi təyinatlı avadanlıqların istehsalı sahəsində əldə edilən müvəffəqiyyətlər, Azərbaycanı yalnız öz müdafiə ehtiyaclarını qarşılayan deyil, eyni zamanda qlobal bazara ixrac edən ölkəyə çevirib.

Azərbaycanın hərbi təyinatlı məhsul ixrac etdiyi ölkələr arasında geniş bir coğrafiya mövcuddur. Bu ölkələr əsasən Orta Asiya, Yaxın Şərq, Şimali Afrika və bəzi postsovet məkanlarındadır. Azərbaycan bu bazarlarda hərbi texnologiyaların yüksək keyfiyyətini və qənaətcil qiymətlərini təklif etməklə, böyük rəqabət üstünlüyü qazanıb.

Hərbi təyinatlı məhsul ixracı Azərbaycanın iqtisadiyyatına müsbət təsir göstərir. Bu sahədəki inkişaf ölkənin yerli istehsal gücünü artırır, texnoloji inkişafı sürətləndirir və yeni iş yerlərinin açılmasına səbəb olur.

İxrac edilən hərbi məhsulların keyfiyyəti və rəqabət qabiliyyəti Azərbaycanı bu sahədə daha böyük bir oyunçuya çevirir. Ölkəmizin hərbi sənayesinin inkişafı, digər sahələrə, xüsusilə infrastruktur və yüksək texnologiyalara investisiyaların artırılmasına da töhfə verir.

Bir sözlə, Azərbaycan hərbi təyinatlı məhsullarının ixracı ilə həm də qlobal təhlükəsizlik bazarında da söz sahibinə çevrilməkdədir. Bu, Azərbaycanı, sadəcə, iqtisadi cəhətdən deyil, həm də diplomatik və hərbi baxımdan da daha möhkəm bir mövqeyə çıxarır.

Bu cür yüksəliş tempi onu deməyə əsas verir ki, Azərbaycanın hərbi məhsul ixracı, gələcəkdə daha da inkişaf edəcək və yeni bazarlara daxil olmaq üçün geniş imkanlar yaradacaq. İxrac edilən məhsulların çeşidinin genişlənməsi, yeni texnologiyaların tətbiqi və beynəlxalq bazarda daha da tanınan bir markaya çevrilmə prosesi Azərbaycanın hərbi sənayesini dünya səviyyəsində tanıtmağa imkan verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ermənistanın taleyi sülhdən asılıdır

Ermənistanda artıq anlayırlar ki, ölkənin Azərbaycanla sülhdən başqa alternativ yolu yoxdur. Regionda yaranmış yeni reallıqlar və güc balansı da bunu açıq şəkildə göstərir. Ermənistanın Baş naziri Nikol Paşinyanın martın 11-də Avropa Parlamentindəki (AP) çıxışı da bu reallığın İrəvan tərəfindən qəbul edilməyə başlandığının nümayişidir.

Paşinyanın çıxışından görünür ki, Ermənistan rəhbərliyi artıq regiondakı geosiyasi vəziyyəti və Azərbaycanın yaratdığı yeni siyasi reallığı dərk edir. Dövlətimizin qətiyyətli siyasəti və regionda formalaşdırdığı yeni reallıq Ermənistanı sülhə doğru yönəldən əsas amillərdən biridir. Məhz buna görə də Paşinyanın çıxışında sülh, əməkdaşlıq və sərhədlərin müəyyənləşdirilməsi kimi məsələlər xüsusi yer tuturdu.

Ermənistanın Baş naziri çıxışı zamanı ölkəsinin xarici siyasətində yeni dövrün başladığını bəyan edib, ölkəsinin təhlükəsizlik anlayışının dəyişdiyini, diplomatiyanın önə çıxdığını vurğuladı. Eyni zamanda o, revanşist qüvvələrin və dezinformasiya kampaniyalarının cəmiyyətdə yaratdığı təzyiqlərə baxmayaraq, Azərbaycanla sülhü qorumağa sadiqliyini bəyan edib. Bu onu göstərir ki, Nikol Paşinyan regionda yaranmış yeni reallıqları qəbul etməyin zəruri olduğunu anlayır. Beləliklə, Azərbaycanın prinsipial mövqeyi nəticəsində Ermənistan artıq konstruktiv yanaşma sərgiləmək məcburiyyətindədir.

Nikol Paşinyan vətəndaş cəmiyyəti nümayəndələrinin Azərbaycanla sərhəddəki Kirants kəndinə səfərlərini təşkil edərək insanlara "sülh" və "real Ermənistan" anlayışlarını göstərməyə çalışıb. Bununla da Nikol Paşinyan artıq cəmiyyətə açıq şəkildə izah etməyə çalışır ki, uzun illər formalaşdırılmış miflər və qorxu üzərində qurulan yanaşmalar real nəticə vermir. O qeyd edib ki, Ermənistan və Azərbaycan arasında sülh 1991-ci il 21 dekabr tarixli Almatı Bəyannaməsi əsasında qurulub, bir-birinin ərazi bütövlüyünü tanıyır. Bu, daxildəki revanşist qüvvələrin "sərhədlər yenidən çəkilməlidir" iddialarına qarşı Paşinyanın mesajı kimi də qiymətləndirilə bilər. Paşinyan kilsə rəhbərlərinin və onlara dəstək verən qüvvələrin səylərinə baxmayaraq, yeni müharibəyə yol verməyəcəklərini vurğulayıb: "Yeni münaqişə və yeni müharibəyə imkan verməyəcəyik. Minlərlə qurban bahasına əldə olunmuş şüur, sülh və müstəqilliyin anti-xristian məqsədlər naminə qurban verilməsinə imkan verməyəcəyik". O, həmçinin kilsəni müharibə və zorakılığı təbliğ etməkdə və cəmiyyəti sülh və müharibə arasında seçim qarşısında qoymaqda günahlandırıb.

Paşinyan bildirib ki, Ermənistanın mövcudluğu yalnız beynəlxalq hüquq və qarşılıqlı tanınma müstəvisində qorunacaq. "Təhlükəsizlik anlayışı zamanla hərbi yanaşmadan siyasi-diplomatik yanaşmaya doğru dəyişir. Düşünürəm ki, bu məntiqə daha çox fokuslanmalıyıq. Təhlükəsizliyin yeganə qarantı sülhdür. Sülhdən daha etibarlı qarant yoxdur", - deyə Baş nazir vurğulayıb. Aydın görünür ki, Nikol Paşinyan artıq təhlükəsizlik məsələlərinə əvvəlki kimi hərbi prizmadan yox, siyasi və diplomatik müstəvidə yanaşır. Bu yanaşmanın formalaşmasında isə regionda yaranmış reallıqlar və Azərbaycanın mövqeyi həlledici rol oynayır. Azərbaycan qalib ölkə kimi məğlub tərəfə təzyiq etmir, əksinə, sülh və əməkdaşlıq təklif edir. Bu, beynəlxalq münasibətlər tarixində nadir rast gələnən, yüksək siyasi mədəniyyət və humanist yanaşmanın göstəricisidir. Güc sahibi olub barışıq təklif etmək regionda sabitlik qurmağa yönəlmiş strateji baxışın nəticəsidir. Azərbaycanın bu yanaşması Cənubi Qafqazda yeni siyasi mədəniyyət formalaşdırır.

Qeyd edək ki, N.Paşinyanın Avropa Parlamentində çıxışı Ermənistanın xarici və daxili siyasətində ən kəskin dönüş nöqtələrindən birini göstərir. O, daxildəki revanşistlərə, xarici qüvvələrin təsirinə və psixoloji travmalara baxmayaraq, ölkəni "real və sülhsevər Ermənistan" konsepsiyası üzərində formalaşdırmağa çalışır. Bu, Ermənistanın müstəqil dövlət kimi yaşamağı və regiondakı reallıqları qəbul etməsi üçün son şansdır. Baş nazirin vurğuladığı kimi, təhlükəsizlik yalnız sülh vasitəsilə qorunur və hərbi resurslar bu rolu yerinə yetirə bilmir.

Avropa Parlamenti hər zaman Azərbaycana qarşı qərəzli olub. Bu qurumun tribunasından daim respublikamıza qarşı böhtan atılıb və bütün bunlar Avropa Parlamentinin erməni təəssübkeşliyindən irəli gəlib. Bu gün isə Ermənistanın Baş naziri bu qurumun tribunasından Azərbaycanla sülhün vacibliyini bəyan edir və bu çıxış həm də AP-nin ermənipərəst deputatları üçün bir mesaj sayıla bilər.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

## Milli Məclisin iclasında

# Süni intellektdən məsuliyyətli istifadə ilə bağlı hüquqi baza yaradılır

**Martın 17-də parlamentin spikeri Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasın gündəliyi qəbul edildikdən sonra cari məsələlərlə bağlı müzakirələr keçirilib. Parlamentin komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, deputatlar Sahib Alıyev, Razi Nurullayev, Qüdrət Həsənquliyev, Ceyhun Məmmədov, Hikmət Məmmədov, Tural Gəncəliyev, Bəhruz Məhərrəmov, Vüqar Bayramov gündəmdə olan bəzi məsələlərə dair öz fikirlərini bölüşüblər.**

Deputatlar işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı quruculuq və abadlıq işlərinin uğurla davam etdirilməsini, bununla yanaşı, bu torpaqlarda milli-mənəvi dəyərlərimizin və ənənələrimizin də bərpasını yüksək qiymətləndiriblər. Vurğulanıb ki, bütün bu nailiyyətlər əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin uğurla davam etdirdiyi qətiyyətli siyasət, prinsipial mövqe, xalqımızın birliyi nəticəsində əldə edilib. Qeyd olunub ki, işğaldan azad olunmuş torpaqlara Böyük Qayıdış "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən biridir və ölkə Prezidentinin bu prosesə dövlət siyasəti və uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi yanaşması nəticəsində qayıdış zonasında infrastrukturun ən müasir səviyyədə yenidən qurulması, sosial obyektlərin fəaliyyətinin keyfiyyətli şəkildə təşkili öz yurdlarına qayıdan köçkünlərin sürətli adaptasiyasına imkan verir.

Çıxışlarda dövlətimizin beynəlxalq tədbirlərdə özünün işğala son qoymaq və sülh yaratmaq təcrübəsini bölüşdüyü diqqətə çatdırılaraq, bu gün dünyada mövcud olan qlobal problemlərin həlli baxımdan ötən həftə keçirilmiş "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusuna həsr olunmuş XIII Qlobal Bakı Forumunun mühüm əhəmiyyəti vurğulanıb.

Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlərin yeni səviyyəyə yüksəldiyini deyən millət vəkilləri ölkəmizlə enerji sahəsində əməkdaşlığın Avropa İttifaqı üçün Azərbaycanın nə qədər əhəmiyyətli tərəfdaş olduğunu göstərən amillərdən biri olduğunu bildiriblər.

Deputatlar habelə süni intellekt vasitəsilə yayılan informasiya və dezinformasiyaların cəmiyyətlərə təsirindən danışaraq, hazırda regionda baş verən hadisələr fonunda informasiya müharibəsinin daha da genişləndiyini qeyd edərək, bu sahədə təhlükəsizliyin təmin edilməsinin, bununla bağlı maarifləndirmə işlərinin aparılmasının vacibliyini vurğulayıblar.

Müzakirələrdə həmçinin əlillik təyinatı ilə bağlı, xüsusilə müharibə veteranlarının əlillik dərəcəsinin müəyyən edilməsi sahəsində mövcud vəziyyətlə bağlı fikirlər və bəzi təkliflər səsləndirilib. Vurğulanıb ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əsasında hər bir vətəndaşın layiqli həyat şəraitinin təmin edilməsi və rifahının daha da yaxşılaşdırılması prinsipi dayanır. Son illər iqtisadiyyatda aparılan islahatların sosial göstəricilərə müsbət təsir göstərdiyi bildirilib.

İclasın gündəliyinə 9 məsələnin daxil edildiyini deyən parlamentin Sədri Sahibə Qafarova birinci məsələnin "2000-ci il 21 iyun tarixli Protokol ilə təsdiq edilmiş "Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi haqqında Əsasnamə"yə dəyişikliklər edilməsinə dair Protokol"un təsdiq edilməsi barədə qanun layihəsi olduğunu diqqətə çatdırıb. Spiker qeyd edib ki, layihə beynəlxalq sənədlə bağlı olduğuna görə, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul edilməlidir.

Məsələ barədə məlumat verən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, "Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi haqqında Əsasnamə"yə dəyişikliklər edilməsinə dair Protokol" 13 oktyabr 2023-cü ildə Bişkek şəhərində imzalanıb. Protokola əsasən, adıçəkilən Əsasnaməyə bir neçə dəyişiklik edilib. Bunlar Əsasnamənin Müstəqil Dövlətlər Birliyinin vahid daimi icra, inzibati və əlaqələndirici orqanı olan İcraiyyə Komitəsinin fəaliyyətinin və funksiyalarının əsas istiqamətlərinə dair müxtəlif dəyişikliklərdir. Azərbaycan Respublikası bu Protokola dövlətlər və digər beynəlxalq hökumətlərarası təşkilatlarla siyasi əməkdaşlıq və qarşılıqlı fəaliyyət məsələlərində Baş katibin səlahiyyətlərini istisna edən qeyd-şərtlə qoşulur.

Məsələ ilə bağlı deputat Qüdrət Həsənquliyev bəzi qeydlərini açıqlayıb. Komitə sədri Səməd Seyidov səsləndirilən fikirlərə münasibət bildirib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri növbəti məsələnin "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin olduğunu deyib. O, layihədə təklif olunan dəyişikliklərin uyğunlaşdırma xarakteri daşıdığını və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə uyğun olaraq bir oxunuşda qəbul ediləcəyini bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov qanun layihəsinin mahiyyətini diqqətə çatdırıb. O qeyd edib ki, inzibati icraat proseslərinin elektronlaşdırılması, dövlət informasiya sistemlərinin geniş tətbiqi nəticəsində bəzi inzibati xətalar haqqında qərarların kağız daşıyıcıda tərtib edilməsinə və surətinin nəqliyyat vasitəsinin ön şüşəsinə qoyulmasına zərurət qalmayıb. Hazırda inzibati xətalar haqqında məlumatların elektron informasiya sistemləri vasitəsilə qeydiyyatı və şəxslərə çatdırılması təmin edildiyindən bu prosedurun saxlanılması praktiki əhəmiyyət daşımır və onun qanunvericilikdən çıxarılması hüquqi münasibətlərin sadələşdirilməsinə və inzibati icraatın daha səmərəli təşkilinə xidmət edir. Bildirilib ki, layihədə bəzi texniki dəyişikliklər də nəzərdə tutulub.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri isə ikinci oxunuşda qəbul olunub.

Milli Məclisin Sədri gündəliyin qalan 3 məsələsinin birinci oxunuşda təqdim olunan qanun layihələri olduğunu bildirib.

Gündəliyin yeddinci məsələsi - Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə məlumat verib. Qeyd edilib ki, layihə dövlət büdcəsi, məqsədli büdcə fondları və büdcədənkənar dövlət fondlarından ayrılan vəsaitlərin təyinatı üzrə istifadə edilməməsinə görə məsuliyyət mexanizminin təkmilləşdirilməsini, sanksiyaların fərdiləşdirilməsini və hüquqi tənzimləmənin dəqiqləşdirilməsini nəzərdə tutur.






Bildirilib ki, təklif olunan dəyişikliklərə əsasən, dövlət orqanları, eləcə də layihədə anlayışı verilən hüquqi şəxslər tərəfindən vəsaitlərin təyinatından kənar istifadəsi 50 min manata qədər olduqda inzibati xəta hesab ediləcək. Bu məbləğdən yuxarı, yəni xeyli miqdarda törədildikdə isə həmin əməllər cinayət məsuliyyəti yaradacaq. Həmçinin Cinayət Məcəlləsinin 308-1-ci maddəsinin adına "dövlətə məxsus olan hüquqi şəxslərin" sözlərinin əlavə edilməsi ilə həmin qurumlara ayrılan vəsaitlərin də təyinatından kənar istifadəsinin sanksiyalaşdırılması nəzərdə tutulub.

Əminə Ağazadə qeyd edib ki, son illərdə dövlət maliyyəsinin idarə olunması sahəsində aparılan institusional islahatlar və normativ tənzimləmənin təkmilləşdirilməsi fonunda dövlətə məxsus hüquqi şəxslərin və publik hüquqi şəxslərin dairəsi kifayət qədər genişlənib. Bununla belə son illərdə dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı yeni reallıqlar formalaşıb. Bu baxımdan təqdim edilən qanun layihəsi mövcud hüquqi tənzimləməni yenilənmiş institusional mühitə uyğunlaşdırmaqla dövlət vəsaitlərinin təyinatı üzrə istifadəsinə görə məsuliyyət mexanizmini daha sistemli və əhatəli şəkildə müəyyənləşdirməyə xidmət edir.

Cinayət Məcəlləsinə təklif olunan dəyişikliklərdə cərimələrin sabit məbləğlə deyil, vurulmuş zərərə uyğun - təyinatından kənar istifadə edilən vəsaitin tam həcmində müəyyənləşdirilməsi nəzərdə tutulur. Eyni zamanda külli miqdarda törədilən əməllərə görə sanksiyalar sərtləşdirilərək azadlığın məhdudlaşdırılması cəzası da tətbiq edilən tədbirlər sırasına daxil edilir.

Bildirilib ki, bundan başqa bu əməli ilk dəfə törədən şəxsin vurduğu ziyanı tam ödədiyi halda məsuliyyətdən azad olunmasının nəzərdə tutulması isə cəza siyasətində dövlətin humanizm prinsipinin gücləndirilməsinə xidmət edir.

Layihənin müzakirəsində deputatlar Vüqar Bayramov və Aydın Hüseynov çıxış edərək qeydlərini və fikirlərini bildiriblər. Əminə Ağazadə deputatların fikirlərinə münasibət bildirəndən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Növbəti məsələni - Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəllədə, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov təqdim edib. Bildirilib ki, süni intellekt idarəçiliyinin ən mühüm komponenti ondan etik dəyərlər çərçivəsində məsuliyyətlə istifadənin təmin edilməsi və hüquqi tənzimlənməsidir. Qeyd edilib ki, Avropa İttifaqı tərəfindən 2025-ci ildə Süni İntellekt Aktı qəbul edilib. Həmin aktın 50-ci maddəsində süni intellektdən məsuliyyətli istifadənin dəqiq normaları müəyyən edilib. Ölkəmizdə də 2025-ci ildə süni intellekt sahəsində milli strategiya qəbul edilib. Bu qanun layihəsi də beynəlxalq təcrübəni nəzərə alaraq Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyasının 8.1.3-cü bəndinin icrası məqsədilə hazırlanıb. Bildirilib ki, süni intellektdən etik dəyərlər çərçivəsində, məsuliyyətlə istifadəni təmin etmək, vətəndaşlarımızın konstitusion hüquq və azadlıqlarını qorumaq üçün aydın qaydalar və normalarla bağlı müvafiq normativ hüquqi baza yaradılır. Bu məqsədlə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə yeni 148-2 və 242-1-ci maddələrin əlavə edilməsi təklif olunur.

Belə ki, şəxsin razılığı olmadan, onun görüntüsündən və ya səsindən istifadə etməklə, süni intellekt texnologiyaları ilə reallığı əks etdirməyən materialları hazırlayan və ya yayan şəxslər 3 min manatdan 7 min manatadək cərimə, 360 saatdan 480 saatadək ictimai işlər və ya 3 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir.

Əgər bu əməllər qabaqcadan əlbir olan qrup tərəfindən törədildikdə və ya iki və daha çox şəxsə qarşı törədildikdə, o cümlədən şəxsin şərəf və ləyaqətini ləkələmək məqsədilə törədildikdə və ya zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özü və ya yaxın qohumlarına qarşı törədilərsə, cəza 3 ildən 5 ilədək azadlıqdan məhrumetmə olacaq.

Eyni texnologiyalarla pornoqrafik və ya seksual məzmunlu materialların hazırlanması və yayılması isə 3 ildən 7 ilədək azadlıqdan məhrumetmə cəzası ilə nəticələnəcək.

Paralel olaraq, Cinayət-Prosessual Məcəlləsinin 37.3-cü maddəsinə təklif edilən dəyişikliklə məhz 148-2.1-ci maddə üzrə zərərçəkmiş şəxsin şikayəti olmadan belə, xüsusi hallarda prokurorluq orqanları tərəfindən müstəqil formada cinayət təqibi başlana bilər.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc layihə ilə bağlı rəhbərlik etdiyi komitənin müsbət rəyini təqdim edib, layihədə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlara təklif olunan dəyişikliklər barədə danışıb.

Komitə sədri bildirib ki, Azərbaycanda süni intellekt strategiyası formalaşdırılır və bu sahədə institusional addımlar atılır və beynəlxalq təcrübəyə uyğun hüquqi baza yaradılır. Müzakirəyə təqdim olunan qanun layihəsində "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlara təklif edilən dəyişikliklərdə süni intellekt vasitəsilə hazırlanmış saxta foto, video və audio materialların yayımını, xüsusilə şəxsin razılığı olmadan istifadəsini məhdudlaşdırmağa yönəlib. Qeyd olunub ki, əsas məqsəd vətəndaşların hüquq və azadlıqlarının qorunmasıdır. Başqa sözlə, layihə süni intellektin tətbiqini məhdudlaşdırmağa deyil, yalnız hüquq pozuntularına səbəb olan halları tənzimləməyə yönəlib. Yəni süni intellektdən istifadə etməklə qanunla qadağan edilməyən yaradıcılıq azadlığına məhdudiyyətlər qoyulmur.

Layihənin müzakirəsində komitə sədri Əli Hüseynlinin, deputat Razi Nurullayevin fikirləri dinlənildikdən sonra sənəd səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Gündəliyin sonuncu məsələsi olan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. Bildirilib ki, layihədə bir neçə istiqamət üzrə dəyişikliklər təklif olunub. İstiqamətlərin biri dövlət maliyyəsinə nəzarət və elektronlaşma ilə bağlıdır.

Dövlət büdcəsindən və ya büdcədənkənar fondlardan maliyyələşən təşkilatların əhatə dairəsi genişləndirilir, həm də maliyyə qaydalarının pozulmasına görə cərimələr əvvəlki kimi sabit məbləğlərlə deyil, bilavasitə inzibati xətanın obyekti olmuş vəsaitin 100 faizi məbləğində müəyyən ediləcək.

Kamal Cəfərovun sözlərinə görə, əvvəlki təcrübədə sabit məbləğli cərimələr böyük məbləğli maliyyə pozuntuları üçün adekvat deyildi və çəkindirici xarakter daşımırdı. Həm də qanunvericiliyimizdə cərimənin vurulmuş ziyana proporsional həddə müəyyən edilməsi təcrübəsi mövcuddur.

Dəyişikliklərin digər istiqaməti uşaq hüquqlarının və təhlükəsizliyinin təminatı ilə bağlıdır. Məruzəçi bildirib ki, bu yaxınlarda qəbul olunmuş "Uşaq hüquqları haqqında" qanunun tələblərindən irəli gələrək İnzibati Xətalar Məcəlləsinə 3 yeni maddənin əlavə edilməsi təklif olunur.

Təhsil, tibb, mədəniyyət, sosial xidmət, penitensiar müəssisələrinin işçiləri və ya valideynlər tərəfindən uşaqda zorakılıq əlamətləri aşkar edildikdə bu barədə hüquq-mühafizə orqanlarına məlumat verilməməsinə görə həm fiziki şəxslər, həm vəzifəli şəxslər üçün cərimələr müəyyən edilir. Eyni zamanda müvafiq müəssisələrdə uşaqlar arasında davamlı təzyiqin və aqressiv davranışın qarşısının alınmamasına görə də cərimələr nəzərdə tutulur. Valideynlər və müvafiq işçilər tərəfindən tərbiyə məqsədilə uşağa qarşı cismani cəzanın, yəni fiziki və psixoloji zorakılığın tətbiq edilməsinə görə də cərimə müəyyən edilir.

Başqa bir istiqamət süni intellektdən etik çərçivələr və məsuliyyətlə istifadə ilə bağlıdır. Süni intellekt vasitəsilə hazırlanan və kütləvi nümayiş etdirilən materialların nişanlanmadan yayılmasına, paylaşılmasına görə inzibati məsuliyyət tətbiq olunacaq.

Həmçinin layihədə müxtəlif istiqamətlər üzrə digər zəruri dəyişikliklər də təklif olunur. Belə ki, yeni qəbul olunan "Uşaq hüquqları haqqında" qanunun tələblərindən irəli gələrək, dilənçiliklə məşğul olma əməli avaralıq anlayışından ayrılır və uşaqların dilənçiliyə cəlb edilməsinə görə məsuliyyət müəyyən edilir. Bundan başqa, "Xüsusi icra məmurları haqqında" yeni qanuna əsasən, and içmədən xüsusi icra məmuru fəaliyyəti göstərmək, xüsusi geyim formasını qanunsuz daşımaq kimi əməllərə görə yeni məsuliyyət tədbirləri müəyyənləşdirilir. Sonuncu zəruri dəyişiklik isə yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalarla bağlı təkmilləşdirmələri nəzərdə tutur.

Müzakirədə komitə sədri Hicran Hüseynova, deputatlar Nigar Arpadarai, Bəhruz Məhərrəmov, Günay Ağamalı çıxış edərək qeydlərini və fikirlərini səsləndiriblər. Kamal Cəfərov müzakirədə qaldırılan məsələlərə aydınlıq gətirəndən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, bu gün (dünən-red.) ilaxır çərşənbədir, bir neçə gündən sonra da xalqımız Novruz və Ramazan bayramlarını qeyd edəcək. O deyib ki, xalqımızın milli-mənəvi dəyərləri arasında mühüm yeri olan Novruz yenilik və bolluq bayramıdır. Ülvi duyğuların daşıyıcısı olan Ramazan bayramı isə xeyirxahlığı və həmrəyliyi təcəssüm etdirir. Spiker təklif edib ki, bu gözəl bayramlar münasibətilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq, onlara xalqımızın və dövlətimizin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində yeni böyük uğurlar arzulayaq!

Təklif iclas iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Sahibə Qafarova qarşıdan gələn bayramlar münasibətilə deputatları, həmçinin iclası izləyən media nümayəndələrini səmimi-qəlbdən təbrik edib, onlara cansağlığı, firavanlıq və xoşbəxtlik arzulayıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Vəzifəyə yeni təyin olunmuş hakimlərlə Milli Məclisdə görüş keçirilib




**Martın 17-də vəzifəyə yeni təyin olunmuş hakimlərlə Milli Məclisdə görüş keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbir iştirakçılarını spiker Sahibə Qafarovanın adından salamlayan Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev hakimləri bu məsul vəzifəyə təyin olunmaları münasibətilə təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

O, Azərbaycanda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə başlamış hüquqi dövlət quruculuğu prosesi, onun əsas artibutlarından biri olan Konstitusiyanın qəbulu, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla davam etdirilən məhkəmə-hüquq islahatları barədə danışıb.

Parlamentlə məhkəmə orqanları arasında sıx əməkdaşlığın qurulduğunu deyən Aparat rəhbəri Milli Məclisin məhkəmə-hüquq sisteminin fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün qəbul etdiyi qanunları diqqətə çatdırıb.

Sonra çıxış edən Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvü Nizami Səfərov ölkəmizdə məhkəmə sisteminin fəaliyyəti, bu sahənin təkmilləşdirilməsi üçün görülən işlər barədə danışıb, beynəlxalq hüququn bir sıra məsələləri haqqında fikirlərini bölüşüb.

Görüşdə Məhkəmə-Hüquq Şurası Aparatı rəhbərinin müavini Rəşad Həsənli qanunvericilik və məhkəmə hakimiyyəti arasında yaradılmış sıx əməkdaşlığa və bu görüşün təşkilinə görə parlament rəhbərliyinə təşəkkürünü bildirib. O, bu görüşün yeni təyin olunmuş hakimlərin gələcək fəaliyyətində öz rolunu oynayacağına inamını ifadə edib.

Sonra slaydlar vasitəsilə Milli Məclisin fəaliyyətinə dair təqdimat diqqətə çatdırılıb.

Tədbir çərçivəsində hakimlər parlamentin inzibati binasında Heydər Əliyevin abidəsini və "Zəfər Guşəsi"ni ziyarət ediblər, parlamentin plenar iclas zalı ilə tanış olublar və xatirə şəkilləri çəkdiriblər.

*"Azərbaycan"*

# Azərbaycanın xarici işlər naziri həmkarları ilə telefonla danışıb

Polşanın Baş nazirinin müavini, xarici işlər naziri Radoslav Şikorski martın 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib ki, nazirlər Yaxın Şərqdə davam edən müharibənin regional və qlobal səviyyədə ciddi təhlükəsizlik təhdidləri yaratdığını, deeskalasiyanın və danışıqlar prosesinin bərpasının əhəmiyyətini vurğulayıblar. Radoslav Şikorski İranın Azərbaycana qarşı həyata keçirdiyi dron hücumlarını qətiyyətlə pisləyib və ölkəmizlə həmrəyliyini ifadə edib. Polşa naziri ölkəsinin diplomatlarının və vətəndaşlarının İran ərazisindən təxliyəsinə göstərilən dəstəyə görə Azərbaycana təşəkkür edib.

Telefon danışığı zamanı həmçinin Azərbaycanla Polşa arasında siyasət, iqtisadiyyat, alternativ enerji, humanitar və digər sahələrdə münasibətlərin geniş perspektivə malik olduğu, əlaqələrin inkişafında qarşılıqlı səfərlərin və siyasi dialoqun intensivləşdirilməsinin əhəmiyyəti qeyd edilib. Habelə digər regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Martın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovla İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı baş tutub.

XİN-dən verilən məlumata görə, telefon danışığı zamanı regional vəziyyət və ikitərəfli əlaqələr müzakirə olunub.

Nazir Ceyhun Bayramov İran ərazisindən Naxçıvan Muxtar Respublikasına dron hücumlarından sonra verilmiş vədə uyğun olaraq, İran tərəfindən araşdırmaların tamamlanmasının vacibliyini diqqətə çatdırıb.

Ümumilikdə aparılan müharibə zamanı mülki obyektlərin hədəf alınmamasının zəruriliyi, bölgədə hərbi eskalasiyaya qısa müddət ərzində son qoyulmasının və mövcud çətinliklərin danışıqlar yolu ilə həll edilməsinin tərəfdarı olduğumuz vurğulanıb.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

*AZƏRTAC*

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2026-cı ilin aprel ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | **1** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | **2,16** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | **3** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | **6** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | **7** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | **8** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | **9** |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | **10,17,24** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | **10** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | **13** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | **14** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | **15** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **15** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **15** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | **17** |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | **20** |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | **21** |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | **22** |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | **22** |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | **23** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | **24** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | **24** |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | **27** |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | **28** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**

**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**

**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**

**Qəbul saat 14:00-dan başlayır.**

**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

# Koreya Respublikası rəsmisi işğaldan azad ərazilərdə aparılan bərpa işləri barədə məlumatlandırılıb

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Koreya Respublikasının xarici işlər nazirinin xüsusi nümayəndəsi Beyk Cuhyonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə Koreya Respublikası arasında siyasət, iqtisadiyyat, ticarət, təhsil, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər ikitərəfli münasibətlərin genişləndirilməsi, qarşılıqlı səfərlərin intensivləşdirilməsinin əhəmiyyətini vurğulayıblar. Eyni zamanda Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın, həmçinin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin vacibliyi qeyd olunub. 2027-ci ildə ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 35 illiyinin qeyd olunacağı məmnunluqla diqqətə çatdırılıb.

Ölkəmizin bölgədə həyata keçirdiyi genişmiqyaslı enerji və nəqliyyat layihələri, alternativ enerjinin ixracı planlarından bəhs olunub, bu və digər



istiqamətlərdə Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı, o cümlədən C6 formatı çərçivəsində qarşılıqlı fəaliyyət məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Regionlararası əlaqələrin inkişafı, nəqliyyat və logistika imkanlarının genişləndirilməsi, habelə iqtisadi tərəfdaşlığın dərinləşdirilməsinin önəmi qeyd olunub.

Ceyhun Bayramov həmçinin postmünaqişə dövründə regionda mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə qarşı tərəfi məlumatlandırıb.

Tərəflər eyni zamanda regional və beynəlxalq təhlükəsizlik məsələləri, o cümlədən Yaxın Şərqdə mövcud vəziyyət ətrafında fikir mübadiləsi aparıblar. Koreya tərəfi vətəndaşlarının ölkəmizin ərazisindən keçməklə İrandan təxliyəsinə göstərilən dəstəyə görə dərin minnətdarlığını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

# Konstitusiya Məhkəməsi Plenumunun iclasında Baş Prokurorluğun sorğusuna baxılacaq

Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.

Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Konstitusiyanın 130-cu maddəsinin IV hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Cinayət-Prosessual Məcəllənin 122.2.3 və 449.3-cü maddələrinin şərh edilməsinə dair Baş Prokurorluğun sorğusuna baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Sorğuya mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun aprelin 7-nə təyin edilmiş iclasında baxılacaq.

# Çin Xalq Respublikasının səfiri Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edib

Çin Xalq Respublikasının səfiri Lu Mey Azərbaycan Dövlət İnformasiya Agentliyi vasitəsilə xalqımızı Novruz bayramı münasibətilə təbrik edib.



AZƏRTAC xəbər verir ki, diplomat Azərbaycana tərəqqi yolunda daha böyük uğurlar arzulayıb.

"Salam, əziz azərbaycanlı dostlarım!

Mən Çin Xalq Respublikasının Azərbaycandakı səfiri Lu Meyəm. Azərbaycan Dövlət İnformasiya Agentliyi vasitəsilə Novruz münasibətilə Azərbaycan xalqına ən səmimi təbriklərimi böyük məmnuniyyətlə ifadə edirəm".

Çinin səfiri daha sonra Azərbaycan dilində yazıb: "Novruz bayramınız mübarək!"

Diplomat qeyd edib ki, Novruz baharın müjdəçisi, təbiətin, yeni həyatın və ümidlərin təzələnməsi rəmzidir. Bu bayram günlərində azərbaycanlılar ailələri və dostları ilə bir araya gələrək sevinclərini bölüşür, bir-birlərinə sülh və firavanlıq arzulayırlar. Bu, Çin xalqının xoşbəxt həyat arzuları ilə tam uyğun gəlir.

"Fürsətdən istifadə edərək Azərbaycana milli inkişaf yolunda daha böyük uğurlar arzulayıram. Qoy, dost Azərbaycan xalqı xoşbəxtlik və firavanlıq içində yaşasın. Çin ilə Azərbaycan arasındakı dostluğun əbədi olmasını arzulayıram", - deyə səfir Lu Mey təbrik mesajını yekunlaşdırıb.

# "Azərbaycan bir sıra beynəlxalq iqtisadi əlaqələrin inkişafına dəstək verən layihələrin iştirakçısıdır"

XIII Bakı Qlobal Forumunda keçmiş dövlət başçılarının iştirakı heç də təsadüfi xarakter daşımır. Bu şəxslər illər boyu dövlət idarəçiliyində iştirak edərək qlobal siyasi proseslərin dərinliyinə bələd olan siyasi xadimlərdir. Bu gün onların dünyada baş verən hadisə və proseslərə dair fikir, təklifləri əhəmiyyətlidir. Azərbaycan Prezidenti İlham Əliyev bu platformanı yaratmaqla qlobal problemlərin müzakirəsini təşkil edir və dünyada humanizm prinsiplərinin siyasətdə əsas yerdə olmasını təklif edir.

Bu sözləri AZƏRTAC-a açıqlaması zamanı XIII Qlobal Bakı Forumunda iştirak edən San-Marina Respublikasının Kapitan-Regenti Paolo Randelli deyib.

Onun sözlərinə görə, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. "Bu gün dünyada baş verən gərgin siyasi proseslər fonunda, enerji daşıyıcılarının qiymətinin artdığı bir zamanda Azərbaycanın böyük bir qitəni enerji ilə təchiz etməsi ticarət əlaqəsi ilə yanaşı, həm də praqmatik siyasətdir. Azərbaycan hasil etdiyi təbii qazı Avropa sərhədlərinə nəql etmək üçün geniş infrastruktur inşa edib. Məhz bu infrastrukturdan istifadə olunaraq qaz ixracı həyata keçirilir. Azərbaycan bir sıra beynəlxalq iqtisadi əlaqələrin inkişafına dəstək verən layihələrin iştirakçısıdır. Forumda iqlim dəyişmələri, nəqliyyat dəhlizləri, münaqişələr, urbanizasiya, su problemi və digər problemlər ciddi müzakirə olundu və təkliflər hazırlandı. Təkliflər tövsiyə xarakteri daşıyır. Lakin qeyd etdiyim kimi, vaxtilə dünya siyasətində aparıcı rol oynayan siyasi xadimlərin problemlərə dair fikirləri nəzərə alınmalıdır", - deyə Paolo Randelli vurğulayıb.

# Azərbaycanlı gənclər ICESCO-nun gənc sülh elçisi seçiliblər

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) bazar ertəsi günü, martın 16-da Sülh və Təhlükəsizlik üzrə Liderlik Təliminin (LTIPS) dördüncü qrupunun bir hissəsi olaraq 42 ölkədən 3 min müraciət edən gənclərin arasından 47 gənc sülh elçisini seçib.

AZƏRTAC təşkilatın məlumatına istinadla xəbər verir ki, onların arasında azərbaycanlı gənclər - Nərmin Seyid və Süleyman Zeynallı da var.

Beləliklə, ICESCO-nun gənc sülh elçilərinin ümumi sayı 227 nəfərə çatıb. Bu ikiillik təlim proqramı, əsasən, gənclərin liderliyinin gücləndirilməsinə və icmalarda müsbət dəyişikliklərin aparılmasının vacibliyi barədə məlumatlılığın artırılmasına yönəlmiş 10 təlim modulu vasitəsilə sülhü təşviq etməyi hədəfləyir. Proqram geniş miqyasda liderləri, ekspertləri və mütəxəssisləri əhatə etməklə yanaşı, gənclərin və qadınların davamlı inkişaf və sülh sahəsindəki potensialını artırmaq, sosial birliyi və birgəyaşayışı təşviq etmək üçün əvvəlki qruplardan olan gənc sülh səfirləri şəbəkəsi ilə əlaqələri gücləndirir.

Əvvəlki nəşrləri 87 gənclik layihəsi və yüzlərlə fəaliyyətlə nəticələnən ICESCO-nun Sülh və Təhlükəsizlik üzrə Liderlik Təlimi bu təşkilatın "360° Sülh" yanaşmasının bir hissəsini təşkil edir. Bu proqram hərtərəfli, çoxsahəli çərçivə əsasında əsas inkişaf sahələrini əhatə etməklə, habelə sülh, dialoq və vətəndaşlıq dəyərlərini inkişaf etdirməyə yönəlmiş yüzlərlə təşəbbüs həyata keçirməklə davamlı sülhü təşviq etməyə istiqamətlənib.

# Milli Xalça Muzeyində Nigar Əliyevanın sərgisi açılıb









Martın 17-də Azərbaycan Milli Xalça Muzeyində rəssam Nigar Əliyevanın fərdi sərgisi açılıb.



AZƏRTAC xəbər verir ki, açılışda Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, Alena Əliyeva, mədəniyyət nazirinin müavini Səadət Yusifova, mədəniyyət və incəsənət nümayəndələri iştirak ediblər.

Tədbirdə Azərbaycan Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova bildirib ki, muzey fəaliyyət göstərdiyi bütün dövr ərzində daim rəssamlara dəstək olmağa çalışıb.

Direktor qeyd edib ki, sərginin müəllifi Nigar Əliyeva gənc olmasına baxmayaraq, artıq 10 ildən çoxdur sənət yolunda uğurla fəaliyyət göstərir. Bu gün o, təkcə ölkəmizdə deyil, Azərbaycanın hüdudlarından kənarda da tanınır.

Əminə Məlikovanın sözlərinə görə, rəssam öz əsərlərində Azərbaycanın milli irsini, milli yaddaşını və mədəni dəyərlərini bədii şəkildə ifadə etməyi bacaran sənətkarlardandır. Bu kimi təşəbbüslər milli irsimizin yeni baxışla təqdim olunmasına, daha geniş auditoriyaya çatdırılmasına və müasir incəsənətdə yeni ifadə vasitələri ilə yaşadılmasına xidmət edir.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirib ki, rəssamın yaradıcılığında İrəvan üslubu özünəməxsus və uğurlu bədii yanaşma ilə təqdim olunur.

Novruz bayramının önəminə toxunan nazir müavini deyib ki, bu, təkcə bayram deyil, eyni zamanda keçmişlə gələcək arasında mənəvi körpü yaradan, insanlarda ümid və inam hissini gücləndirən müqəddəs dəyərdir.

Bu layihə üzərində iki il çalışdığını bildirən Nigar Əliyeva qeyd edib ki, bu müddət ərzində milli irsimizi yenidən araşdırmağa, xüsusilə gənc nəslə Azərbaycan irsini daha yaxından tanıtmağa səy göstərib.

Rəssam sərginin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirərək vurğulayıb ki, ekspozisiyada müxtəlif muzeylərə aid eksponatlardan da istifadə olunub. Sərgidə təqdim olunan mövzular təsadüfi seçilməyib, onların hər biri xalqımızın tarixinə, milli yaddaşına və zəngin sənət irsinə söykənir.

Sərgidə müəllifin 2024-2026-cı illərdə kətan üzərində yağlı boya ilə yaratdığı əsərləri təqdim olunub. Rəssam apardığı araşdırmalar əsasında ərsəyə gətirdiyi əsərlərdə milli mətbəxə, xalq tətbiqi sənətinin zərgərlik, toxuculuq, tikmə, bədii metal, soyuq silah, geyim və digər nümunələrinə müraciət edib. Kompozisiyalarda klassik Azərbaycan rəssamlıq ənənələrinə xas ornamental və bədii elementlərdən, xüsusilə Mirzə Qədim İrəvani üslubunun incəliklərindən məharətlə istifadə olunub.

Sonda qonaqlar sərgi ilə tanış olublar.

Qeyd edək ki, Nigar Əliyeva yaradıcılığı ilə Azərbaycanı həm ölkə daxilində, həm də beynəlxalq məkanda uğurla təmsil edən rəssamlardandır. O, ABŞ, Pakistan və Gürcüstan da daxil olmaqla müxtəlif ölkələrdə keçirilən sərgilərdə iştirak edib. Bu sərgi isə ideya və məzmun baxımından digərlərindən fərqlənir. Bu, yalnız keçmişə baxış deyil, eyni zamanda tariximizin, mədəniyyətimizin və milli yaddaşımızın qorunub yaşadılmasının, gələcək nəsillərə ötürülməsinin vacibliyini ifadə edən mühüm mesajdır.

Azərbaycan Milli Xalça Muzeyi və "Arts Council Azerbaijan"ın birgə təşkil etdiyi sərgi martın 31-dək davam edəcək.

# Azərbaycanın 2026-cı il üçün idman səfirləri seçilib




Gənclər və İdman Nazirliyinin kollegiya iclası keçirilib. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, nazir Fərid Qayıbovun sədrliyi ilə keçirilən iclasda gündəliyə əsasən bir sıra məsələlər müzakirə olunub və müvafiq qərarlar qəbul edilib.

İclasda Uşaq-Gənclər İdman Məktəbləri və İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəblərində cüdo idman növü üzrə təlim-məşq prosesini tənzimləyən normativlərin təsdiqi ilə bağlı qərar qəbul edilib. Bundan əlavə, idman mütəxəssislərinə fəxri adların verilməsi məsələsinə baxılıb. Nazirliyin kollegiya qərarı ilə Asxab Kalayevə və Rauf Nəbiyevə (hər ikisi ağırlıqqaldırma), İslam Nəcəfquliyevə (cüdo) "Ölkə dərəcəli hakim" dərəcəsi verilib. Qaşim Maqomedov (taekvondo), İmaməddin Xəlilov və Sabir Zeynalova (hər ikisi parataekvondo) "Azərbaycan Respublikasının Əməkdar idman ustası" fəxri adı verilib. Respublika federasiyaları tərəfindən Təhlükəsiz Mühitin Təminatı və Şəxsiyyətin Qorunması üzrə Qaydaların hazırlanmasına dair Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən irəli sürülən tələblər müzakirə edilib. Eyni zamanda ölkə yarışlarının keçirilmə qaydaları ilə bağlı Texniki Reqlament yeni redaktədə təsdiq edilib.

Tədbirdə 2026-cı il üçün "İdman səfirləri" və 2027-ci il üçün "İdman Paytaxtı" seçimi ilə əlaqədar namizədlərin təqdimatları dinlənilib, səsvermə keçirilib. Gənclər və İdman Nazirliyinin kollegiya qərarı ilə Ülviyyə Fətəliyeva (şahmat), Vəfa Musayeva (alpinizm), Aynur Yusifova (gimnastika), Dadaş Dadaşbəyli (ağırlıqqaldırma) və Elçin Əsədov (velosiped idmanı) 2026-cı il üçün "İdman səfiri" seçiliblər. Yevlax şəhəri isə 2027-ci il üçün Azərbaycanın "İdman Paytaxtı" seçilib.

# Buxara karvansarasının əsaslı bərpa və konservasiya işlərindən sonra açılışı olub



Martın 17-də İçərişəhərdə XV əsrə aid ölkə əhəmiyyətli abidə - Buxara karvansarasının əsaslı bərpa və konservasiya işlərindən sonra təntənəli açılışı və burada fəaliyyət göstərəcək "BuxarArt" sənət məkanının təqdimatı keçirilib.









AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, Alena Əliyeva, mədəniyyət nazirinin müavini Səadət Yusifova, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud, digər şəxslər, mədəniyyət xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qədim ticarət magistralı üzərində ucaldılan və mərkəzi asiyalı tacirlərin sığınacağına çevrilən bu möhtəşəm tikili Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, həyata keçirilən genişmiqyaslı layihə çərçivəsində hazırda öz əvvəlki əzəmətinə qovuşub. Bərpa prosesi abidənin həm memarlıq, həm də mühəndislik xüsusiyyətlərinin qorunması prinsipi ilə aparılıb.

Tədbirdə çıxış edən "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud bildirib ki, həyata keçirilən bərpa işləri tarixi irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, yeni yaradılan "BuxarArt" sənət məkanı İçərişəhərin mədəni həyatına töhfə verəcək.

Bərpaçı Erich Pumer çıxışında Buxara karvansarasının əsaslı təmiri və möhkəmləndirilməsi prosesinin böyük həssaslıqla həyata keçirildiyini deyib: "Görülən işlər zamanı abidənin orijinal memarlıq üslubunun və tarixi xüsusiyyətlərinin qorunması əsas prioritet olub. Eyni zamanda tikilinin uzunömürlü olması üçün müasir mühəndislik həlləri də tətbiq edilib".

Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov vurğulayıb ki, bu məkan tarixən müxtəlif bölgələrdən gələn insanların görüşdüyü, yeni ticarət əlaqələrinin qurulduğu və xalqlar arasında münasibətlərin möhkəmləndiyi bir mərkəz kimi fəaliyyət göstərib. O bildirib ki, Buxara karvansarasının tarixi Özbəkistan və Azərbaycan xalqları arasında əsrlərə söykənən əlaqələrlə birbaşa bağlıdır.

Diplomat qeyd edib ki, tarixən Mərkəzi Asiyadan olan tacirlər Böyük İpək Yolu vasitəsilə regionlar arasında fəal şəkildə səyahət ediblər. Bakı isə bu marşrut üzərində mühüm ticarət və mədəniyyət mərkəzlərindən biri olub.

Daha sonra qonaqlar abidənin yenilənmiş siması ilə yaxından tanış olublar.

Bərpa və konservasiya işləri "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin sifarişi ilə bu sahədə beynəlxalq təcrübəyə malik Avstriyanın məşhur "Atelier Erich Pummer GmbH" şirkəti tərəfindən 3,5 il ərzində aparılıb. Qədim abidənin identikliyinin qorunması məqsədilə bərpa işləri zamanı orijinal hörgü üsullarına və autentik materiallardan istifadəyə, həmçinin tarixi obyektin memarlıq detallarına və konstruktiv xüsusiyyətlərinə xüsusi diqqət yetirilib. Abidənin tarixi görünüşünə xələl gətirməyən ən müasir texnologiyalardan və materiallardan istifadə olunub. Karvansaranın divarları sonradan əlavə edilmiş yad qatlardan təmizlənib, daşların konservasiyası aparılaraq binanın orijinal statik vəziyyəti bərpa edilib.

Yeni konsepsiyaya əsasən, Buxara karvansarası yerli sənətkarların fəaliyyət göstərdiyi funksional və yaradıcı məkana transformasiya olunub. Karvansaranın daxilində ümumilikdə 18 otaq yerləşir ki, onların hər biri müxtəlif sənət sahələrini təmsil edən sənətkarların istifadəsinə verilib. Hər bir otaqda fəaliyyət göstərəcək sənətkarlar gündəlik olaraq öz əl işlərini hazırlayıb nümayiş etdirəcək, eyni zamanda həmin məhsulların satışını həyata keçirəcəklər.

Bununla yanaşı, "BuxarArt" yerli və xarici ziyarətçilər üçün interaktiv sənət məkanı kimi fəaliyyət göstərəcək. Sənətkarlar qonaqlar üçün müxtəlif ustad dərsləri təşkil edərək Azərbaycan xalq sənətinin incəliklərini praktiki şəkildə nümayiş etdirəcəklər. Burada toxuculuq, heykəltaraşlıq, dəriçilik, rəssamlıq, xalçaçılıq, dəmir döymə, miniatür sənəti, bədii keramika, ebru sənəti, keçəçilik və taxtaoyma kimi ənənəvi sənət sahələri təmsil olunur.

Buxara karvansarasının fəaliyyətə başlaması milli sənətkarlıq ənənələrinin qorunması, sənətkarların yaradıcılıq imkanlarının genişləndirilməsi və Azərbaycanın zəngin mədəni irsinin həm yerli, həm də xarici qonaqlara daha yaxından təqdim edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. "BuxarArt" özünəməxsus memarlıq üslubu və mistik atmosferi ilə həm yerli sakinlər, həm də paytaxtımızın qonaqları üçün ən cəlbedici mədəniyyət ocaqlarından birinə çevriləcək.





## “Böyük qayıdış” proqramı sürətlə icra olunur





**Qarabağ və Şərqi Zəngəzur bu gün dünya miqyasında analoqu olmayan bərpa və quruculuq mərhələsini yaşayır. Otuz illik işğal dövründə tamamilə dağıdılan, infrastrukturu məhv edilən ərazilərimiz bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ən müasir standartlar əsasında yenidən qurulur. Vətən müharibəsində Qələbədən dərhal sonra dövlət başçısının "Biz Qarabağı cənnətə çevirəcəyik" vədi artıq bu gün həmin bölgələrin real mənzərəsinə çevrilib. Bölgəyə səfər edən yerli və əcnəbi vətəndaşlar da bu gerçəkliyi böyük heyrətlə dilə gətirirlər.**



# Qarabağ və Şərqi Zəngəzurun dirçəliş modeli

## İşğaldan azad edilən ərazilər dünya miqyasında analoqu olmayan bərpa və quruculuq mərhələsini yaşayır

Bu ərazilərin bərpası ölkəmizin daxili siyasətinin ən mühüm prioritetidir. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində qəbul edilmiş Böyük Qayıdışa dair Dövlət Proqramı bu nəhəng işlərin yol xəritəsidir. Dövlət büdcəsinin əsas xərclərinin məhz bu istiqamətə yönəldilməsi Azərbaycanın öz daxili imkanları ilə yenidənqurma modeli yaratdığını sübut edir.

Dövlət başçısının birbaşa nəzarəti altında həyata keçirilən layihələr, işğaldan azad edilmiş əraziləri müasir infrastruktur, "ağıllı texnologiya"lar və "yaşıl enerji" zonası ilə zənginləşdirir. Daşı daş üstündə qalmayan ərazilərimizdə beynəlxalq hava limanları tikilir, nəhəng tunellər, magistral yollar çəkilir və müasir yaşayış kompleksləri inşa edilir.

### Mərkəzləşdirilmiş idarəetmə və yerində nəzarət

Azad edilmiş ərazilərdə həyata keçirilən layihələrin miqyası həm də yüksəksəviyyəli koordinasiya və mütəşəkkil idarəetmə tələb edir. Bu baxımdan, bərpa və quruculuq işlərinin birbaşa yerində, ərazidə təhlili xüsusi əhəmiyyət kəsb edir. Elə martın 16-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Xocavənd şəhərində keçirilən növbəti iclas bu sistemli yanaşmanın bariz nümunəsidir.

İclasda çıxış edən Samir Nuriyev işğaldan azad olunmuş ərazilərə Böyük qayıdış prosesinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin və ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olduğunu bildirib. O deyib ki, bu proses yalnız ərazilərin fiziki baxımdan bərpasını deyil, həmin torpaqlarda həyatın yenidən qurulmasını, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasını və keçmiş məcburi köçkünlərin doğma yurdlarına ləyaqətli qayıdışını nəzərdə tutan kompleks yanaşmanı əhatə edir.

Samir Nuriyevin sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə son illər həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərində əsas prioritet baza infrastrukturunun yaradılması olub. Elektrik enerjisi, qaz və su təchizatı infrastrukturunun yenidən qurulması, yolların, körpülərin və tunellərin inşası regionda həyatın bərpası üçün ilkin zəruri şəraiti formalaşdırıb. Hazırkı mərhələdə isə dövlət tərəfindən ayrılan resursların mühüm hissəsi yaşayış fondunun genişləndirilməsinə, fərdi və çoxmənzilli evlərin tikintisinə və bərpasına yönəldilir. Bununla yanaşı, məktəblər, uşaq bağçaları, tibb məntəqələri və dövlət xidmətləri mərkəzləri kimi sosial obyektlərin fəaliyyətlərinin təşkili paralel şəkildə həyata keçirilir. Qeyd olunub ki, bu yanaşma öz doğma torpaqlarına qayıdan keçmiş məcburi köçkünlərin ilk gündən normal həyat şəraitinə sürətli adaptasiyasına imkan verir.

### "Böyük qayıdış" proqramının miqyası genişlənəcək

2022-ci il iyulun 19-da Zəngilanın Ağalı kəndinin sakinlərinin yurda dönüşü ilə start verilən Böyük qayıdış uğurla davam etdirilir.

Xocavənddə keçirilən sözügedən iclasda qərargah rəhbəri məlumat verdi ki, işğaldan azad edilmiş ərazilərdə bu günədək ümumilikdə 41 yaşayış məntəqəsi tikilərək və bərpa edilərək istifadəyə verilib, həmin ərazilərə keçmiş məcburi köçkünlərin qayıdışı təmin olunub. O, görülən işlər nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 80 mindən çox insanın yaşadığını və fəaliyyət göstərdiyini bildirib. Qeyd edilib ki, qarşıdakı dövrdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində köç prosesi daha da sürətlənəcək və Böyük qayıdış proqramının miqyası genişlənəcək.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə layihələrin icrası "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində həyata keçirilir. Proqramda nəzərdə tutulmuş tədbirlər ardıcıl şəkildə icra olunur. Bu isə qarşıya qoyulan məqsədlərə mərhələli şəkildə nail olunmasına və bərpa-quruculuq prosesinin uğurla davam etdirilməsinə imkan yaradır.

Əlaqələndirmə Qərargahının üzvləri Xocavənd rayonu ərazisində həyata keçirilən bərpa, infrastruktur və iqtisadi layihələrlə, o cümlədən Xocavənd şəhəri və Hadrut qəsəbəsinin Baş planları ilə tanış olublar. Xocavənd şəhərində təmir olunmuş fərdi evlərə, Hadrut qəsəbəsində ilk yaşayış məhəlləsinə və Quzeyxırman kəndində aparılan təmir-bərpa işlərinə əyani baxış keçirilib. Həmçinin Hadrutda turizm inkişaf konsepsiyası təqdim olunub, təmir edilməsi nəzərdə tutulan mehmanxana layihəsi ilə bağlı məlumat təqdim edilib.

Xocavənd rayonunda bağçılıq təsərrüfatına və Qırmızı Bazar qəsəbəsində yerləşən günəbaxan yağları zavoduna baxış keçirilib, müəssisənin fəaliyyəti və yerli iqtisadiyyata verdiyi töhfə haqqında məlumat dinlənilib.

Xocavənddə baş tutan müzakirələr bir daha göstərir ki, hər bir yaşayış məntəqəsinin bərpası, infrastrukturun qurulması və sakinlərin geri qayıdışı üçün lazımi şəraitin yaradılması dövlətin ən yüksəksəviyyəli nəzarəti altındadır. Dövlət rəsmilərinin bu səfəri və qəbul edilən qərarlar, işğaldan azad edilən ərazilərin hər bir guşəsində işlərin keyfiyyət və sürət baxımından ən yüksək standartlara cavab verməsini hədəfləyir.

Bütün bunlardan da göründüyü kimi, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq və bərpa prosesi həm də milli qürurun və tarixi ədalətin təntənəsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, dünya tarixinə nəzər salsaq görərik ki, işğaldan və dağıntıdan əziyyət çəkmiş heç bir ölkə öz ərazilərini bu templə və bu keyfiyyətlə bərpa etməyib. "Ağıllı kənd"lərdən başlanan bu yol, Qarabağ və Şərqi Zəngəzuru yaxın gələcəkdə dünyanın ən gözəl, ən müasir və ən rahat yaşayış məkanlarından birinə çevirəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Biz qayıdırıq

Qarabağ və Şərqi Zəngəzur bu gün təkcə coğrafi məkan deyil, həm də Azərbaycanın iradəsinin, gücünün və gələcəyə baxışının simvoluna çevrilib. Uzun illər davam edən işğal dövründən sonra bu torpaqlarda həyatın yenidən qurulması, dağıntıların aradan qaldırılması və müasir yaşayış mühitinin formalaşdırılması dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi həyata keçirilir. Bu prosesin mərkəzində isə doğma yurdlarına qayıdan, əzəli torpaqlarında yeni həyat quran vətəndaşlar dayanır.

Bu genişmiqyaslı dirçəliş proqramı İlham Əliyevin rəhbərliyi ilə ardıcıl və planlı şəkildə icra olunur. Dövlət başçısının azad edilmiş ərazilərə mütəmadi səfərləri, görülən işlərlə yerində tanış olması, yeni layihələrin təməlini qoyması bu prosesin dinamik və nəzarət altında həyata keçirildiyini göstərir. Bu səfərlər yalnız rəsmi xarakter daşımır, həm də cəmiyyətə ümid və inam aşılayan mühüm hadisələr kimi dəyərləndirilir.




Azad olunmuş ərazilərdə həyata keçirilən işlər, sadəcə, tikinti və bərpa ilə məhdudlaşmır. Bu ərazilərdə yeni iqtisadi model qurulur, müasir infrastruktur yaradılır, yollar, enerji xətləri, su təchizatı sistemləri və sosial obyektlər inşa edilir. Məqsəd yalnız insanları bu ərazilərə qaytarmaq deyil, onların rahat, təhlükəsiz və dayanıqlı həyat şəraitində yaşamasını təmin etməkdir. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzur bölgələri Azərbaycanın gələcək inkişafında mühüm rol oynayacaq strateji məkana çevrilir.

Hazırda "Böyük qayıdış" proqramının icrası planlı və mərhələli şəkildə uğurla davam edir. Proqramın birinci mərhələsinin yekununda, yəni 2026-cı ilin sonunadək Qarabağ və Şərqi Zəngəzurda 140 mindən artıq insanın daimi məskunlaşması nəzərdə tutulur.

2022-ci ildən etibarən keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına qayıdırlar. İllərlə həsrət qaldıqları torpaqlara qayıdan ailələr yeni həyat qurur, övladlarını doğma mühitdə böyüdür, kənd təsərrüfatı və digər sahələrdə fəaliyyətə başlayırlar. Hər yeni köç karvanı ölkə üçün həm sosial, həm də mənəvi baxımdan böyük əhəmiyyət daşıyır.

Dünən Ağdərə rayonunun Çıldıran kəndinə 3 ailə (13 nəfər), Aşağı Oratağ kəndinə 21 ailə (108 nəfər), Heyvalı kəndinə 7 ailə (34 nəfər), Çapar kəndinə 4 ailə (17 nəfər), Həsənriz kəndinə 6 ailə (29 nəfər), Xocavənd rayonunun Xocavənd kəndinə 11 ailə (36 nəfər), həmçinin Cəbrayıl rayonunun Horovlu kəndinə 30 ailə (131 nəfər) köçürülüb. Hazırda 7507 ailə, 30304 keçmiş məcburi köçkün dədə-baba torpaqlarında məskunlaşıb və bu rəqəm sürətlə artmaqda davam edir.

Azad olunmuş ərazilərdə tikilən yaşayış məntəqələri müasir standartlara cavab verir. Artıq 41 yaşayış məntəqəsi - 9 şəhər, 3 qəsəbə, 29 kənd tikilərək, bərpa edilərək istifadəyə verilib. "Ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyaları əsasında qurulan bu məkanlar innovativ texnologiyaların tətbiqi ilə fərqlənir. Enerji səmərəliliyi, ekoloji təmizlik və rəqəmsal idarəetmə bu layihələrin əsas xüsusiyyətlərindəndir. Bu yanaşma Qarabağ və Şərqi Zəngəzuru gələcəyin bölgəsinə çevirir. İqtisadi inkişaf da bu prosesin mühüm tərkib hissəsidir. Bu bölgələrdə sənaye zonaları, kənd təsərrüfatı kompleksləri, turizm obyektləri yaradılır, yerli və xarici investorlar üçün əlverişli şərait formalaşdırılır. Bu isə yeni iş yerlərinin açılmasına, regionun iqtisadi potensialının reallaşdırılmasına şərait yaradır. İşğaldan azad edilmiş ərazilərdə təhlükəsizlik məsələləri də diqqət mərkəzində saxlanılır. Mina təmizləmə işləri sürətlə davam etdirilir, ərazilər təhlükəsiz yaşayış üçün uyğun hala gətirilir.

Görülən işlərin nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 80 mindən çox insan yaşayır və fəaliyyət göstərir. İşğaldan azad edilmiş ərazilərdə reallaşdırılan genişmiqyaslı layihələrin fonunda bir daha əminliklə demək olar ki, qarşıdakı dövrdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində köç prosesi daha da sürətlənəcək və "Böyük qayıdış" proqramının miqyası genişlənəcək. Hazırda bu ərazilərdə on minlərlə insan yaşayır və fəaliyyət göstərir. Onların arasında dövlət qurumlarında çalışanlar, müəllimlər, həkimlər, sahibkarlar və tələbələr var. Bu müxtəliflik regionun sosial həyatının formalaşdığını və sabit inkişaf yolunda olduğunu göstərir.

Gələcək perspektivlər də kifayət qədər ümidvericidir. Hazırlanan yeni dövlət proqramları və inkişaf strategiyaları bu prosesin davamlılığını təmin edəcək. Qarşıdakı illərdə daha genişmiqyaslı layihələrin həyata keçirilməsi, yeni yaşayış məntəqələrinin salınması və qayıdış prosesinin sürətlənməsi gözlənilir. Qarabağ və Şərqi Zəngəzurun dirçəlişi Azərbaycanın ümumi inkişaf modelinin ayrılmaz hissəsidir. Bu regionun iqtisadi, sosial və mədəni baxımdan ölkəyə inteqrasiyası dövlət siyasətinin əsas hədəflərindən biridir. Burada həyata keçirilən hər bir layihə yalnız bu günü deyil, gələcək nəsillərin rifahını da nəzərə alır. Bu proses davam etdikcə, region daha da çiçəklənəcək və ölkənin ən inkişaf etmiş bölgələrindən birinə çevriləcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# WUF13 Mərkəzi Asiya və Xəzər regionu üçün mühüm perspektivlər vəd edir

Mərkəzi Asiya Universitetinin Dövlət Siyasəti və İdarəetmə İnstitutunun aparıcı elmi işçisi, şəhərsalma üzrə ekspert, eləcə də Çexiyanın İqtisadi Tədqiqat və Magistr Təhsili üzrə Mərkəzi - İqtisadiyyat İnstitutu Fondunun tədqiqatçısı Madina Junussova mayın 17-22-də Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun əhəmiyyəti, tədbirdən gözləntilər, eləcə də Azərbaycanın foruma evsahibliyinin prioritetləri barədə AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.

*- Bakının WUF13-ə evsahibliyi etməsi Mərkəzi Asiya və daha geniş Xəzər regionu üçün nə vəd edir?*

- Ümumdünya Şəhərsalma Forumu şəhərlərin və yaşayış məntəqələrinin gələcəyi ilə bağlı müzakirələrin aparılması baxımından ən vacib qlobal platformalardan biri hesab olunur. Forumu xüsusilə əhəmiyyətli edən həmçinin odur ki, o, iri paytaxtların və qlobal şəhər mərkəzlərinin rolunu daha da artırır. Bu tədbir həmçinin yüksəksəviyyəli beynəlxalq müzakirələrdə tez-tez nəzərə alınmayan yerli özünüidarəetmə orqanlarının, ikinci dərəcəli şəhərlərin, şəhərətrafı ərazilərin və həssas ərazilərin qlobal əhəmiyyətini vurğulamaq baxımından əhəmiyyətlidir. Bu mənada Ümumdünya Şəhərsalma Forumu ucqar və daha az tanınmış şəhərləri ilə bağlı reallıqların beynəlxalq inkişaf gündəliyinin mövzuları sırasına daxil ola biləcəyi azsaylı qlobal arenalardan biridir. Bakının WUF13-ə evsahibliyi etməsi Mərkəzi Asiya və daha geniş Xəzər regionu üçün mühüm perspektivlər vəd edir. Bu, Mərkəzi Asiyanın milli və yerli özünüidarəetmə qurumlarının şəhər dayanıqlığının gücləndirilməsinə və iqlim dəyişmələrinə uyğunlaşmaya daha çox diqqət yetirməsi ehtimalını artırır, o cümlədən Xəzər dənizi hövzəsində sahil və sahilyanı şəhər ərazilərinin həssaslığını aradan qaldırmaq və şəhər irsinin və tarixi şəhər quruluşunun qorunması ilə sürətli yeni inkişafın tarazlaşdırılması zərurətini vurğulayır. WUF13-ün Bakıda keçirilməsi həmçinin Azərbaycanı Mərkəzi Asiya regionu ilə yenidən əlaqələndirməyə, Xəzər regionunda dialoqu gücləndirməyə və bu geniş coğrafiyada dayanıqlı şəhərsalmanın gələcəyinin yalnız milli strategiyadan deyil, həm də şəhər və qəsəbələrin özlərinin dayanıqlığından, kimliyindən və uyğunlaşma qabiliyyətindən asılı olduğu fikrini möhkəmləndirməyə kömək edə bilər.

*- "Dünyanı mənzillə təmin etmək: Təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar" - Bakıda keçiriləcək forum məhz bu mövzuya həsr olunub. Sizcə, WUF13 qarşıya qoyulan məqsədə nə qədər nail ola biləcək?*

- Biz dayanıqlılığın yalnız böyük şəhər mərkəzləri ilə bağlı əlaqəli olmadığını göstərmək istəyirik. Bu, həm də daha kiçik, diqqətdən kənarda qalmış şəhərlər, o cümlədən dağlıq və həssas yaşayış məntəqələri ilə bağlıdır ki, burada yerli özünüidarəetmə qurumlarının potensialı daha təhlükəsiz icmalar və daha dayanıqlı evlərin yaradılması baxımından vacibdir. Bu mənada, WUF13 təhlükəsiz, dayanıqlı icmalara və Yeni Şəhər Gündəliyinin həyata keçirilməsini diqqət mərkəzində saxlayacaq. Bu Mərkəzi Asiyadan olan yerli təcrübəni daha geniş qlobal şəhər gündəliyi ilə əlaqələndirmək baxımından mühüm bir platformadır.



Digər bir gözlənti isə yerli özünüidarəetmə orqanları və yerli qurumlar üçün potensialın artırılmasına daha çox investisiya qoyuluşuna ehtiyac duyulduğuna donorların və tərəfdaşların diqqətini cəlb etməkdir. Yerli qurumların yalnız infrastruktur maliyyəsinə deyil, həm də bilik, bacarıq və institusional dəstəyə ehtiyacı olduğunu göstərmək istəyirik ki, onlar daha səmərəli fəaliyyət göstərsinlər və şəhərləri bütün sakinlər üçün daha dayanıqlı və təhlükəsiz hala gətirməyə kömək etsinlər. Eyni zamanda biz WUF13-dən şəhər dayanıqlığı təcrübəsində daha da inkişaf etmiş digər ölkələrdən olan həmkarlarımızla əlaqələr yaratmaq, bilik mübadiləsi aparmaq və potensial olaraq birgə maliyyələşdirmə və birgə layihələr həyata keçirmək üçün uzunmüddətli tərəfdaşlıqlar qurmaq niyyətindəyik.

*- Azərbaycan beynəlxalq səviyyədə şəhərsalma sahəsində nüfuzunu gücləndirmək üçün bu fürsətdən necə istifadə edə bilər?*

- Bunun ən səmərəli yollarından biri forumdan yalnız təqdimat üçün deyil, həm də şəhər səviyyəsində konkret koalisiyanın qurulması üçün istifadə etmək olardı. Şəhərin maraqlı tərəflərinin iqtisadi dayanıqlıq, iqlim dəyişmələrinə uyğunlaşma və yaşamaq üçün daha rahat şəhərlərlə bağlı necə birgə əməkdaşlıq edə biləcəyini nümayiş etdirmək üçün bələdiyyələri, universitetləri, əsas sənaye sahələrini, vətəndaş cəmiyyətini və biznes liderlərini bir araya gətirmək mümkündür.

Azərbaycan və xüsusilə də Bakı WUF13-dən istifadə edərək şəhərsalmanın heç də modernləşmə olmadığını nümayiş etdirə bilər. Bununla da ölkənin tarixi şəhər quruluşunun, mədəni irsin və yeni inkişafın düşünülmüş şəkildə balanslaşdırıldığı bir yer kimi təqdim olunması mümkündür.

Bu tədbir həmçinin ölkənin regional liderlik imkanlarını da nümayiş etdirir. Azərbaycan WUF13-dən istifadə edərək ortaq tarixi irsə malik olduğu Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı möhkəmləndirə bilər. Bu dinamika forumdan kənarda da davam edərsə, Bakı Cənubi Qafqaz və Mərkəzi Asiya arasında körpü və potensial olaraq şəhər dayanıqlığı üzrə uzunmüddətli regional bilik şəbəkəsinə çevrilə bilər. Bu mənada, Azərbaycan üçün ən böyük nailiyyət, sadəcə, beynəlxalq bir tədbirə evsahibliyi etmək deyil, həm də WUF13-ü daha geniş İpək Yolu regionunda əməkdaşlıq, öyrənmə və şəhər transformasiyası üçün davamlı platformaya çevirmək olardı.




# Azərbaycanın xarici siyasəti: Cənubi Qafqaz və regionlararası miqyas

**Cənubi Qafqazda cərəyan edən proseslərin geosiyasi və siyasi təhlili üçün bir xarakterik xüsusiyyət, demək olar ki, hər kəs tərəfindən vurğulanır: bu coğrafiyada ciddi geosiyasi yeniləşmə prosesi gedir. Onun konkret ifadəsinə gəldikdə isə fərqli parametrlərdən bəhs edilir. Lakin əsas məqam ondan ibarətdir ki, tədqiqatçılar regional geosiyasi yeniliklərin təməlində Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasi kursun başlıca xüsusiyyətlərinin dayandığını ayrıca qeyd edirlər.**

Bu kontekstdə ekspertlərin irəli sürdüyü bir tezis xüsusilə diqqət çəkir: onlar qeyd edirlər ki, Cənubi Qafqaz xroniki qeyri-sabitlik zonasından dayanıqlı inkişaf məkanına çevrilmişdir. Başqa sözlə, bunu Prezident İlham Əliyevin regionu cəbhə xəttindən inkişaf xəttinə çıxarması kimi də ifadə etmək mümkündür. Yəni burada söhbət tarixən mürəkkəb və keşməkeşli yol keçmiş bir regionu sabitlik, təhlükəsizlik və inkişaf xəttinə çıxaran siyasətdən gedir.

Bu böyük yenilik ancaq tarixi miqyasda düşünə bilən dövlət xadimlərinin gücü daxilində ola bilər. Bunun üçün üç mühüm faktorun sintezi zəruridir: hərbi təhlükəsizliyin özyetərli səviyyəsi, suverenliyi təmin edə biləcək güclü ordu, dayanıqlı iqtisadiyyat və cəmiyyətin daxili konsolidasiyasını təmin edə biləcək mədəniyyət siyasəti. Bu kimi xüsusiyyətlərin sayəsində Azərbaycan Prezidenti Cənubi Qafqazın "sərt güc yolu"nu "sülh yolu" ilə əvəz edə bilmişdir.

Tədqiqatçılar onu da vurğulayırlar ki, Cənubi Qafqaz coğrafi baxımdan tarix boyu Şərqlə Qərb arasında əlaqələndirici rol oynamışdır. Regionda baş verən mühüm geosiyasi yeniliklər fonunda bu faktın da bir qədər fərqli rolu ola bilər. Onun əlamətlərindən biri böyük güclərin region uğrunda mübarizəsində yeni çalarların meydana çıxmasıdır. Bu müstəvidə qlobal və regional reallıqların uyğunlaşdırılması məsələsi ön plana çıxır. Ekspertlər bu prosesi təhlil edərkən ABŞ, Aİ, Çin, Türkiyə, İran və Rusiya arasında gedən geosiyasi mübarizəni xüsusi qeyd edirlər. Bu mübarizənin Azərbaycanın xarici siyasəti kontekstində bəzi məqamlarına nəzər salaq.

## Gərgin dinamik mübarizə

Gürcüstanlı ekspert V.Mqeladze hesab edir ki, "Hazırda Cənubi Qafqazda bir-birinə zidd olan xarici maraqların böyük yığını yaranmışdır". Burada İranla qonşu olmağın da ciddi təsiri vardır. Lakin regionun hər bir ölkəsinin özünəməxsusluğu da rol oynayır. Bu baxımdan, Gürcüstan ekspertinin fikrinə görə, Cənubi Qafqaz dövlətlərinin qarşısına prinsipial xarakterli məsələlər çıxa bilər. Bununla yanaşı, bir sıra ekspertlərin fikrincə, hazırda Azərbaycan, Ermənistan və Gürcüstan özlərinin xarici siyasət istiqamətini dəqiqləşdirməyə çalışırlar. Burada bir yanlışlıq vardır. Məsələ ondan ibarətdir ki, Gürcüstan və Ermənistandan fərqli olaraq, Azərbaycan nəinki xarici siyasət xəttini dəqiqləşdirmişdir, hətta Bakı bütövlükdə regional geosiyasi konfiqurasiyanı formalaşdıran əsas yerli qüvvədir.

Azərbaycanın xarici siyasət kursu Mərkəzi Asiya və Yaxın Şərq istiqamətlərində belə konkret təsir dairəsinə malikdir. Gürcüstan və Ermənistan haqqında bunları demək mümkün deyildir, çünki bu qonşu ölkələr hələlik özlərinin xarici siyasət istiqamətlərini dəqiqləşdirməklə məşğuldurlar. Deməli, hazırda Azərbaycan, Gürcüstan və Ermənistan Cənubi Qafqazda fərqli geosiyasi və siyasi mövqedə deyillər, lakin xarici siyasətin davamlı və konkret kurs kimi müəyyən edilməsində Bakı aparıcı roldadır. Məhz bu faktı nəzərə alaraq müasir mərhələdə Azərbaycanın regional miqyasda təsiri olan fəaliyyətini araşdırmaq lazım gəlir. Bunun üçün öncə xarici güclərin Cənubi Qafqaz siyasətinə nəzər salaq.

Kollektiv Qərbin Cənubi Qafqaz siyasətində oxşar məqamlar çoxdur və ekspertlər onların vahid mövqedən çıxış etdiklərini vurğulayırlar. Burada iki istiqamət aydın gözə çarpır. Əvvəla, kollektiv Qərb regionda öz maraqlarını qarşılıqlı faydalı əməkdaşlıq çərçivəsində getdikcə daha böyük ölçüdə təmin etməyə çalışır. Bu sırada iqtisadi, ticari, nəqliyyat, logistika, informasiya, enerji ilə yanaşı, ümumilikdə yeni infrastruktur formalaşdırmaq xətti də mövcuddur. Nümunə kimi Zəngəzur dəhlizini seçmək olar. Bu müstəvidə ekspertlər "2025-ci il 8 avqustda Vaşinqtonda imzalanmış saziş Avrasiya geosiyasətini köklü şəkildə dəyişir" tezisini irəli sürürlər. Həmin kontekstdə analitiklər Avrasiyada qarşılıqlı əlaqələrin yenidənqurulması prosesindən danışırlar. Onu da xüsusi vurğulayırlar ki, bu marşrut (Zəngəzur dəhlizi - müəllif) indi Orta dəhlizin nəinki əsası kimi qiymətləndirilir, həm də əməkdaşlıq və tərəqqinin təminatı olaraq qəbul edilir. Lakin onun əhəmiyyəti Cənubi Qafqaz çərçivəsindən kənara çıxır.

Bunlarla yanaşı, bir məqam da diqqət mərkəzindədir. Belə ki, Zəngəzur dəhlizinin Rusiya və İrandan yan keçməklə Şərqlə Qərbi birləşdirdiyi vurğulanır və bunun fonunda Moskva-Pekin-Tehran üçlüyünün mövqeyinə nəzər salınır. Digər tərəfdən, ekspertlərin qənaətinə görə, ABŞ, Böyük Britaniya və Aİ Cənubi Qafqazdan Rusiyanı "sıxışdırır" və onun regiona təsirini minimuma endirməyə çalışırlar. Yəni mütəxəssislər Zəngəzur dəhlizini indiki mərhələdə anti-Rusiya xarakterli layihə kimi təqdim etməyə cəhd edirlər. Bu da Azərbaycanın xarici siyasəti baxımından düzgün qiymətləndirmə deyildir. Çünki Azərbaycan həmişə regionun hər bir dövləti və regiona yaxın böyük dövlətlərlə konstruktiv əməkdaşlığı təşviq etmişdir.

Bunun bariz nümunələrindən biri kimi rəsmi Bakının Azərbaycan, Ermənistan və Rusiya liderlərinin atəşkəs haqqında 2020-ci il 9 noyabr tarixli üçtərəfli Bəyanatında Zəngəzur dəhlizinin təhlükəsizliyinin Rusiya tərəfindən təmin edilməsinə razılıq verməsini göstərə bilərik. Həmin mövqeni Bakı sonralar da ardıcıllıqla gözləmişdir. Məsələn, 2022-ci il fevralın 22-də Azərbaycanla Rusiya arasında imzalanmış strateji müttəfiqlik haqqında bəyannamənin 9-cu bəndində vurğulanır ki, Rusiya və Azərbaycan gələcəkdə də 9/10 noyabr 2020-ci il, 11 yanvar 2021-ci il və 26 noyabr 2021-ci il bəyanatlarının müddəalarının reallaşmasına hərtərəfli dəstək verəcəklər. Burada nəqliyyat və iqtisadi əlaqələrin yaradılması şərti ayrıca göstərilmişdir.

Ancaq Rusiya üzərinə götürdüyü öhdəliyi yerinə yetirmədi və bu proses pozuldu. Rəsmi Moskvanın bununla bağlı Bakıya hər hansı irad bildirməsi tamamilə əsassızdır. Regional sabitlik və təhlükəsizliyə gəldikdə isə, Azərbaycan rəhbərliyinin Zəngəzur dəhlizi də daxil olmaqla, geniş mənada regional təhlükəsizliyin təmininə yanaşmasını "3+3" formulu ifadə edir. Bu formulda regionun təhlükəsizliyində və sabitliyin təmin olunmasında Rusiyanın rolu nəzərə alınmışdır. Bu formata Rusiya, İran və Türkiyə üç region dövləti (Azərbaycan, Gürcüstan və Ermənistan) ilə birlikdə daxildir.

## Aİ-nin strateji prioriteti

Avropalı ekspertlər hesab edirlər ki, Cənubi Qafqaz xüsusilə bugünkü geosiyasi vəziyyətdə Aİ üçün strateji prioritet olmalıdır. Bu region Avropanın Rusiya qazı və neftindən imtina etdiyi bir dönəmdə əsas enerji qaynağı halına gəlir. Aİ-nin bu mövqeyi Azərbaycanı regionda özünün strateji tərəfdaşı mövqeyinə çıxarır. Çünki enerji resursları məhz Azərbaycana məxsusdur. Hazırda Azərbaycan Avropa ölkələri ilə geniş enerji əməkdaşlığı edir. Azərbaycan Prezidenti İlham Əliyevin "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında iştirakı zamanı söylədiyi nitqində vurğulamışdır: "...biz Avropanın enerji bazarında mövcudluğumuzu genişləndirmək niyyətindəyik. Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur. Lakin bunun üçün şübhəsiz ki, ötən dəfə də qeyd etdiyimiz kimi, mövcud qaz nəqli infrastrukturlarının genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu gün "Cənub qaz dəhlizi" artıq tam yüklənmiş vəziyyətdədir. Biz bazarda mövcud tələbatı və qlobal vəziyyəti nəzərə alaraq, artacaq tələbatı qarşılamaq məqsədilə əlavə genişləndirmə və interkonnektor imkanlarını araşdırırıq. Məqsədimiz ixracı maksimum səviyyəyə çatdırmaqdır".

Azərbaycan Prezidentinin ifadə etdiyi fikirlər onu göstərir ki, rəsmi Bakı enerji təhlükəsizliyi sahəsində regional siyasəti ilə Avropa istiqamətindəki siyasətini böyük uğurla uyğunlaşdıra bilir. Çünki Azərbaycan rəhbərinin Avropa ölkələri istiqamətində həyata keçirdiyi enerji təhlükəsizliyi siyasətinin faydasını yalnız ölkəmiz görmür, ondan bütün region qazanır. Bu məqam Azərbaycanın xarici siyasətində regional səviyyədən regionlararası miqyasa çıxış üçün dəqiq siyasi və məntiqi bazanın yaradıldığını əks etdirir. Avropalı ekspertlər məhz həmin anlamda Cənubi Qafqazın Aİ üçün strateji prioritet təşkil etdiyi nəticəsini çıxarırlar. Lakin ekspertlər Azərbaycan kontekstində bir özəlliyi də vurğulayırlar. Məsələn, ukraynalı ekspert T.Kuzio yazır ki, Aİ Azərbaycanla Ermənistan arasında fərq qoyur. Brüssel Ermənistana birbaşa yardım göstərir, ancaq eyni həssaslığı Azərbaycana qarşı ifadə etmir. O cümlədən Aİ strateji tərəfdaşlıq çərçivəsində ancaq "Qarabağ erməniləri"nə (?) dəstəkdən bəhs edir. Əslində isə Azərbaycanın sayəsində Cənubi Qafqazda sülh bərqərar olmuşdur.

Belə çıxır ki, Aİ Cənubi Qafqaza strateji prioritet kimi adekvat münasibət formalaşdırmalıdır, əks halda, mövcud daxili ziddiyyətlər müəyyən məqamda əlaqələrə ciddi zərər vura bilər. Brüssel birdəfəlik regionun bir ölkəsini digərlərindən üstün tutmaq kimi fəaliyyətindən əl çəkməlidir. Bu zərurət Azərbaycanın indiki mərhələdə həyata keçirdiyi xarici siyasət kursunun ümumi ruhundan və konkret məzmunundan aydın görünür.

## Çin faktoru qiymətləndirilir

Adətən, Çinin "Bir kəmər, bir yol" layihəsi Pekinin xarici siyasətində əsas komponentlərdən biri kimi təqdim edilir. Bunun fonunda da ayrı-ayrı dövlətlərin xarici siyasətində Çin faktoru qiymətləndirilir. Bu baxımdan, Cənubi Qafqaz kontekstində "Bir kəmər, bir yol" layihəsi Hindistan layihəsi və Şimal-Cənub Rusiya marşrutu fonunda nəzərdən keçirilir. Bunlarla yanaşı, Pekinin hələlik səs-küy yaratmadan Cənubi Qafqazda maraqlarını təmin etdiyindən bəhs edilir. Onun regional proseslərə aktiv təsiri açıq hiss olunmur. Əslində, Zəngəzur dəhlizinin Orta dəhliz çərçivəsində reallaşması stratejidə Çinin təsiri deməkdir.

Bu baxımdan, ekspertlərin Zəngəzur dəhlizini "ABŞ, Türkiyə və Çinin maraqlarının kəsişmə sahəsi" kimi qiymətləndirməsi maraq kəsb edir. "Stratfor"da 10 il baş analitik kimi çalışan və hazırda "New Lines Institute" analitik mərkəzində baş direktor vəzifəsini tutan Y.Çausovskinin qənaətinə görə, Çin Cənubi Qafqazda öz mövcudluğunu genişləndirməyə çalışır və bu zaman Mərkəzi Asiya və Cənubi Qafqaza Çinlə Avropanı əlaqələndirən "əsas məkanlar" kimi baxır. Bu kontekstdə analitik vurğulayır ki, Azərbaycanın xarici siyasət strategiyası proseslərdə əhəmiyyətli rol oynamışdır. Onun təsdiqlərindən biri TRIPP-in yaradılmasıdır. Azərbaycanın strategiyası regional sabitliyin təmini aspektində də mühüm faktorlardan biridir.

## Rusiya və İran bir sıra sferalarda böhran keçirir

Bu iki böyük dövlət hazırda bir sıra sferalarda böhran keçirir. Rusiya Ukrayna istiqamətində ciddi geosiyasi və hərbi çətinliklərlə qarşı-qarşıyadır. Burada o, ABŞ-dən müəyyən dərəcədə asılı vəziyyətə düşmüşdür. Xüsusilə Avropadan olan təzyiqləri səngitmək üçün Amerika Rusiyaya lazımdır. Nəticədə, Rusiya digər istiqamətlərdə Vaşinqtonu nəzərə almağa məcbur qalmışdır. Bunu Cənubi Qafqaz istiqamətində də hiss etmək olar. Ancaq Moskva imkan daxilində öz iradəsini diktə etmək xislətindən əl çəkməmişdir. Kremlin zaman-zaman Ermənistanı hədələməsi və Azərbaycana qarşı bir qədər sərt davranması bunun nəticəsidir. İran isə hazırda, ümumiyyətlə, mövcudluq uğrunda mübarizə aparır. Onun Zəngəzur dəhlizi də daxil olmaqla, Cənubi Qafqaza təsir imkanları xeyli məhdudlaşmışdır. Lakin Tehran tam olaraq kənara çəkilməmişdir. Onun bəzi bəyanatları bunu təsdiqləyir.

Bütün bunlar Rusiya və İranın əvvəlki kimi Cənubi Qafqazda koordinasiyalı fəaliyyət göstərmək imkanlarını xeyli zəiflədir. Buna baxmayaraq, İran Rusiyanın regionda Qərbin aparıcılığı ilə həyata keçən layihələrə mane olmaq siyasətini dəstəkləyir. Ekspertlər yazırlar ki, İran Rusiyanın həmin növ layihələrə qarşı durmasını bölüşür. Bunun fonunda belə bir qənaət əldə edilir ki, İran qeyri-sabitliyin öhdəsindən gələ bilsə, Moskva ilə daha da yaxınlaşacaq.

## Genişlənən nüfuz dairəsi

Vurğuladığımız məqamların işığında Azərbaycanın xarici siyasətinin regional konteksti yeni məzmun və məqsəd çalarları almışdır. Burada əsas əlamət rəsmi Bakının regional səviyyədə əldə etdiyi siyasi, geosiyasi və iqtisadi nailiyyətlərin regionlararası miqyasa uğurlu transformasiyası ilə bağlıdır. Bu prosesdə başlıca əlamət Azərbaycan rəhbərliyinin siyasi, iqtisadi, enerji, informasiya və infrastruktur istiqamətlərindəki təşəbbüsləri uğurla daha geniş miqyasda milli təhlükəsizliklə sıx bağlamağa nail olmasıdır. Azərbaycan rəhbərliyi həmin xətti eyni uğurla Mərkəzi Asiya, Yaxın Şərq və Avropa istiqamətlərində inkişaf etdirir. Bu, bir tərəfdən, Azərbaycan dövlətinin geosiyasi və siyasi nüfuz dairəsinin genişləndirilməsinə xidmət edir, digər tərəfdən isə, Prezident İlham Əliyevin dünya miqyasında sözükeçən, nüfuzlu lider kimi mövqeyini daha da möhkəmləndirir.

Etiraf edək ki, hər iki əlamət xarici siyasətin həyata keçirilməsində prioritetləri optimal formada və dəqiq müəyyən etməklə sıx bağlıdır. Azərbaycanın dövlət başçısı həmin aspektdə kifayət qədər təşəbbüskar olmaqla yanaşı, nəzərdə tutduğu məqsədlərə çatmaq üçün son dərəcə praqmatik addımlar ata bilən lider olduğunu sübut etmişdir. Burada başlıca müsbət və faydalı dəyər Azərbaycan liderinin dövlətin nüfuz dairəsini dinamik genişləndirməyə nail olmasıdır. Əlbəttə, bu, böyük nailiyyətdir. Çünki Azərbaycan müstəqil dövlət kimi regional liderliyini regionlararası miqyasda söz sahibi olan dövlət statusuna yüksəltmişdir. Bu xüsusiyyət Cənubi Qafqaz ölkələrinə istiqamətlənmiş siyasətlə bir neçə regionda yerləşən dövlətlər istiqamətində aparılan siyasəti məharətlə uyğunlaşdırmağı təmin edir. Həmin kontekstdə bir neçə özəlliyi yekun kimi vurğulamaq olar.

Birincisi, Azərbaycan regionlararası miqyasda xarici siyasətin prioritetlərini Cənubi Qafqaz regionunun lider dövləti statusunda müəyyən edir. Bunun, bir tərəfdən, müstəqil dövlətin identikliyinin yeni mərhələsinin başlaması kontekstində əhəmiyyəti vardır, digər tərəfdən isə, Azərbaycanın regionlararası miqyasda "orta güc" olması kimi qəbul edilir.

İkincisi, Azərbaycanın region dövlətləri olan Gürcüstan və Ermənistan siyasətinin əhəmiyyətli geosiyasi məqamlarının konseptual tədqiqi yeni səviyyədə aktuallaşır. Bu, həm digər dövlətlərin Azərbaycanın təcrübəsindən yararlanması kontekstində, həm də bundan sonrakı mərhələdə Azərbaycan dövlətinin perspektivlərinin cəmiyyət tərəfindən dərk edilməsi kontekstində əhəmiyyət kəsb edir. İctimaiyyətin Azərbaycanın dövlət başçısının həyata keçirdiyi siyasətin bütün xüsusiyyətləri haqqında adekvat təsəvvürləri olmalıdır. Üçüncüsü, Azərbaycan Prezidentinin regionlararası miqyasda uğurlu fəaliyyətinin konseptual tədqiqi Türk Dövlətləri Təşkilatı (TDT) üçün də çox qiymətli təcrübədir. TDT üzvləri həmin təcrübədən maksimum dərəcədə faydalanmalıdırlar. Bu zərurət getdikcə daha aydın şəkildə özünü göstərir.

*Kamal ADIGÖZƏLOV,*
*beynəlxalq münasibətlər üzrə ekspert*

# Azərbaycan etibarlı logistik mərkəz statusunu möhkəmləndirir

## Orta dəhliz dünya ölkələrinə iqtisadi təhlükəsizlik və səmərəli ticarət vəd edir

Beynəlxalq ticarət sistemində baş verən kataklizmlər, geosiyasi gərginliklər və silahlı münaqişələr ənənəvi ticarət yollarında risklərin yaranmasına yol açıb. Təhlükəli vəziyyət yeni nəqliyyat marşrutlarının ortaya çıxmasını şərtləndirib. "Şimal" nəqliyyat dəhlizi Avropa və Asiyanı birləşdirən ən qısa dəniz yolu olsa da, hazırda ciddi maneələrlə üzləşib. Rusiya-Ukrayna müharibəsi bu dəhlizi qlobal şirkətlər üçün qeyri-sabit marşruta çevirib. Əlavə olaraq, il boyu buzqıran gəmilərə ehtiyac duyulması yüksək maliyyə və texniki çətinliklər yaradıb. Nəticədə sığorta şirkətləri yükləri sığortalamaqdan imtina ediblər.



Uzun müddət qlobal ticarətin bel sütunu olan Süveyş kanalında (Cənub dəhlizi) da vəziyyət ağırdır. Yaxın Şərqdə davamlı gərginliklər, Qırmızı dənizdəki təhlükəsizlik problemləri Süveyş kanalı vasitəsilə həyata keçirilən ənənəvi dəniz daşımalarını təhlükə altında qoyub. Dənizdə husilərin ticarət gəmilərinə hücumları isə gəmilərin yolunu məcburən dəyişməyə və Afrika qitəsini dolanmağa (Ümid burnu marşrutu) vadar edir ki, bu da çatdırılma müddətini 10-15 gün uzadır, yanacaq xərclərini kəskin artırır.

ABŞ-İsrail və İran arasında gedən müharibədən dolayı dünya iqtisadiyyatının damarlarından sayılan Hörmüz boğazı da artıq keçilməz durumdadır. Nəzərə alsaq ki, dəniz yolu ilə daşınan neftin təxminən 20-25 faizi bu boğazdan keçir, istənilən hərbi gərginlik və ya geosiyasi münaqişə neft təchizatını dayandıra bilər ki, bu da qlobal enerji qiymətlərinin kəskin bahalaşmasına səbəb olar. Üstəlik, Hörmüz boğazı sənaye və kənd təsərrüfatı üçün həyati əhəmiyyət kəsb edən bir çox məhsulun da keçid nöqtəsidir. Dəniz yolu ilə daşınan gübrələrin təxminən üçdəbiri Hörmüzdən keçir. O səbəbdən, dünya ölkələri, xüsusilə Avropa İttifaqı enerji təhlükəsizliyini təmin etmək üçün tək mənbədən asılılığı azaltmaq strategiyasına keçir.

Logistikada sadəcə bir-iki yoldan asılılıq qəbuledilməzdir. Çünki beynəlxalq daşımaların ləngiməsi dünya bazarlarında təchizat zəncirinin qırılmasına səbəb olur. Bu kontekstdə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) xüsusi strateji əhəmiyyət kəsb edir. Şimal dəniz marşrutu və Cənub dəhlizinin riskləri Azərbaycanın təmsil etdiyi Orta dəhlizi ən etibarlı liman və sabit quru-dəniz marşrutu kimi ön plana çıxarır. Çin, Mərkəzi Asiya, Xəzər regionu, Cənubi Qafqaz və Avropanı birləşdirən bu marşrut beynəlxalq ticarətin yeni arteriyalarından hesab olunur. Azərbaycan bu dəhlizin əsas tranzit ölkələrindən biridir və layihənin inkişafında mühüm rola sahibdir. Xüsusən, son illərdə ölkəmizin həyata keçirdiyi infrastruktur layihələri Azərbaycanın logistik potensialını əhəmiyyətli dərəcədə artırıb. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və genişlənən logistik infrastruktur Avropa ilə Asiyanı birləşdirən ən qısa və təhlükəsiz yolun təməlini təşkil edir.

Zəngəzur dəhlizinin işə düşməsi Orta dəhlizin imkanlarını daha da genişləndirəcək. Bu marşrut təkcə yükdaşıma vaxtını azaltmayacaq, həm də Azərbaycanın Naxçıvanla birbaşa əlaqəsini təmin edərək regionda yeni iqtisadi arteriyanın yaranmasına səbəb olacaq. Hazırda Çin-Bakı marşrutu ilə yüklərin çatdırılması vaxtı əhəmiyyətli dərəcədə, bəzi hallarda 11-12 günə qədər azalıb, bu da ənənəvi dəniz yolları ilə müqayisədə ciddi rəqabət üstünlüyü yaradır. Eyni zamanda Azərbaycan Xəzər dənizi vasitəsilə qaz və neftini Avropaya çatdırmaqla Hörmüz boğazı kimi riskli nöqtələrdən asılılığı azaldan əsas tərəfdaş rolunda çıxış edir. Hörmüzdəki gərginlik artdıqca, Azərbaycanın enerji təchizatındakı sabitliyi və etibarlılığı daha yüksək qiymətləndirilir. Əgər qlobal ticarət və enerji yalnız Süveyş kanalı və ya Hörmüz boğazlarının ümidinə qalarsa, təhlükəsizlik sistemi daim kövrək olar. Orta dəhliz alternativ kimi təhlükəsiz marşrut təklif edir.

Prezident İlham Əliyev XIII Qlobal Bakı Forumunda çıxışı zamanı Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətini bir daha gündəmə gətirib. Dövlətimizin başçısı vurğulayıb ki, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur və bu, həm insanlar, həm ölkələr, həm iqtisadiyyat, həm də tədarük zəncirləri üçün böyük çətinliklər yaradır: "Bu gün biz Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşıq və əslində, həm Orta dəhlizdə, həm də Şimal-Qərb dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Azərbaycan ərazisində hər iki dəhliz üzrə tikinti layihələri tam şəkildə başa çatdırılmışdır".

Dövlətimizin başçısının bəyanatları Azərbaycanın strateji mövqeyini və qlobal logistika mərkəzinə çevrilmək hədəflərini çox dəqiq ifadə edir. Azərbaycan liderinin vurğuladığı məqamlar sadəcə iqtisadi deyil, həm də ciddi geosiyasi əhəmiyyət kəsb edir. Ölkəmiz qazıntı yanacağından gələn gəliri gələcəyin infrastrukturuna, qlobal bağlantılara yatırır. Azərbaycan dünyada nadir ölkələrdəndir ki, həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkə daxilində bütün tikinti işləri artıq bitib, indi əsas hədəf dəhliz və limanların yükaşırma qabiliyyətini artırmaqdır. Çünki Azərbaycan ərazisindən istifadəyə tələbat artır. Dövlətimizin başçısı çıxışında bu məqama da diqqət çəkib: "Biz bir çox ölkələr, həm Azərbaycanın şərqində, həm də qərbində yerləşən ölkələrin mühüm tranzit ehtiyaclarını təmin edirik. Hazırda isə Ermənistanla sülh əldə edildikdən sonra Orta dəhlizin yeni istiqaməti üzərində yaxından işləyirik, bu istiqamət Ermənistan ərazisindən keçəcək".

Göründüyü kimi, Azərbaycanın bu sahədəki fəaliyyəti təkcə infrastruktur layihələri ilə məhdudlaşmır. Ölkəmizin regionda sülh körpüsü kimi də nüfuzu artır, diplomatik çəkisi yüksəlir. 2026-cı il etibarilə Azərbaycanın hədəfi Orta dəhlizi sadəcə keçid marşrutu etmək yox, böyük logistik mərkəz kimi möhkəmləndirməkdir. Orta dəhliz bütövlükdə Avrasiya qitəsinin iqtisadi təhlükəsizliyi üçün vazkeçilməz marşrut hesab olunur.

Avropa İttifaqının layihəyə xüsusi maraq göstərməsi də göz önündədir. Aİ İttifaqı Orta dəhlizi özünün "Qlobal qapı" strategiyasının mərkəzi hissəsi kimi görür. Qitə ölkələri öz tədarük zəncirlərini şaxələndirərək bir marşrutdan asılılığı minimuma endirməyə çalışırlar. Həmçinin 2024-cü ilin əvvəlində Brüsseldə keçirilən İnvestorlar Forumunda Aİ Orta dəhliz boyu nəqliyyat əlaqələrinin inkişafı üçün 10 milyard avro həcmində investisiya öhdəliyi götürüb. Avropa rəsmiləri layihənin önəmini və Azərbaycan bu dəhlizin mərkəzi qovşağı olduğunu dəfələrlə qeyd ediblər. BMT-nin Ticarət və İnkişaf konfransının baş katibi Rebeka Qrinspan Orta dəhlizin qlobal ticarətdə rolunun getdikcə artdığını və bu marşrutun ərsəyə gəlməsində Azərbaycanın mühüm rol oynadığını bildirib. Rumıniyanın Baş nazirinin sabiq müavini Ana Birçal da deyib ki, Orta dəhlizin nəticələri qısa müddətdə özünü göstərəcək və gələcəkdə qlobal qapıya çevriləcək: "Gələcəkdə Orta dəhliz Avropanın maraqlarına cavab verəcək. Orta dəhliz region ölkələri üçün prioritet istiqamətlərdən biridir və daşımalar baxımından mühüm əhəmiyyət daşıyır. Alternativ dəhlizlərin mövcudluğu da regionun maraqlarına xidmət edir. Əvvəllər Asiyadan Avropaya yüklərin çatdırılması 45 gün çəkirdisə, hazırda bu müddət təxminən 20 günə enib". Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım isə qeyd edib ki, müvafiq strateji addımlar atmaqla illik daşımaların həcmini 20 trilyon dollara qədər artırmaq mümkündür: "Bu kontekstdə Orta dəhlizin əhəmiyyəti əvəzsizdir. Orta dəhlizin inkişafı daha fəal şəkildə dəstəklənməlidir".

Beləliklə, Orta dəhliz ətrafında formalaşan beynəlxalq konsensus göstərir ki, Bakının illər öncə uzaqgörənliklə başladığı infrastruktur quruculuğu bu gün qitələrarası sabitliyin zəmanətinə çevrilib. Ölkəmiz dünyaya Şərqlə Qərbi qırılmaz bağlarla birləşdirən, təhlükəsiz, etibarlı və iqtisadi baxımdan səmərəli keçid təklif edir. Azərbaycanın təqdim etdiyi təhlükəsiz liman konsepti artıq qlobal zərurətdir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*



# 2026 Şəhərsalma və Memarlıq İli



# Mingəçevir tezliklə regionun təkcə energetika mərkəzi olmayacaq

## Şəhərin həm də beynəlxalq turizm məkanına çevriləcəyi gün uzaqda deyil



**Prezidentin sərəncamı ilə 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli"nin elan edilməsinin ölkəmizin şəhərsalma tarixində mühüm əhəmiyyəti var. Ən azından o səbəbə ki, qədim yaşayış məskəni olan Azərbaycanda şəhərsalma və memarlıq ənənələri çoxəsrlik zəngin bir tarixə malikdir.**

Böyük ticarət yollarının üstündə yerləşən Azərbaycan həmin sahədə öz tarixi ənənələrini bu gün də qoruyur. Coğrafi baxımdan Azərbaycanın mühüm ticarət yollarının üzərində olması müstəqil ölkəmizin inkişafına mühüm töhfələr verir. Bu inkişaf şəhərlərimizdə də öz əksini tapır. Şərq və Qərb memarlığının sintezində qədimliklə müasirliyin vəhdətindəki təkrarsız görkəmi Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirmişdir. Ulu Öndər Heydər Əliyev paytaxtımız haqqında demişdir: "Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakını əsrlər boyu quranlar, yaradanlar bugünkü gün və gələcək nəsillər üçün gözəl bir şəhər salıblar. Bakıdakı memarlıq abidələri bizim milli iftixarımızdır".

Bakı ilə yanaşı, bölgələrdə də şəhərlərin inkişafı davam etmiş və bu inkişafda memarlıq ənənələri yaradıcı şəkildə istifadə olunmuşdur. Ulu Öndər Heydər Əliyevin Azərbaycana hələ ilk rəhbərliyi dövründə şəhərsalma sisteminin qorunması və inkişafı barədə mühüm qərarlar qəbul edilmiş, memarlıq abidələrinin qorunması və bərpası sahəsində vacib işlər görülmüşdür. Həmin işlər ölkəmiz müstəqilliyini əldə etdikdən sonra da davam etmişdir. İstər Ulu Öndər Heydər Əliyevin, istərsə də Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdikləri dövrlərdə Azərbaycanda şəhərsalma və memarlıq sahəsində mühüm irəliləyişlər olmuş, memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən təsisatlar qurulmuşdur.

Azərbaycanın memarlıq və şəhərsalma tarixində Mingəçevirin xüsusi yeri var. 1948-ci ilin noyabrında şəhər statusu almış Mingəçevirdə bu gün 104 minə yaxın yerli əhali, 20 mindən çox keçmiş məcburi köçkün yaşayır. Şəhərin ərazisi 139 kvadratkilometrdir. Mingəçevirin inzibati sərhədləri 1962-ci ilin iyununda Azərbaycan SSR Ali Sovetinin qərarı ilə təsdiq olunmuşdur. Bu gün də şəhərin inkişafı ilə bağlı bir sıra mühüm qərarlar qəbul olunur. Nazirlər Kabinetinin 2016-cı ilin 15 noyabr tarixli qərarı ilə Mingəçevirin inzibati sərhədləri daxilində 2033-cü ilə qədərki dövrdə inkişafına dair şəhərin baş planı təsdiq edilmişdir. Baş plana əsasən, Mingəçevirin iki istiqamətində - cənub-mərkəz hissəsində 353,1 ha (Kür çayının sol sahili) və cənub hissəsində 69,28 ha (Kür çayının sağ sahili) perspektiv inkişaf əlaqələrinin müfəssəl planı hazırlanmış və Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sərəncamı ilə təsdiqlənmişdir.

Baş plan Mingəçevirin 20 illik kompleks inkişaf planıdır. Əsas məqsəd yaşayış, iş və istirahət üçün rahat olan şəhər mühitinin yaradılmasıdır. Baş plana uyğun olaraq, müfəssəl proqram da hazırlanmışdır. Qeyd etdiyimiz kimi, bu, iki hissəli olmaqla Kür çayının sağ və sol sahilindəki əraziləri əhatə edir. Layihələndirilən ərazinin torpaqları bələdiyyə ehtiyat torpaqlarından ibarətdir. Planda Kür çayının sahilboyu ərazisində istirahət mərkəzi, park və xiyabanların salınması nəzərdə tutulur. Həmin ərazidə 14 yaşayış məhəlləsinin salınması planlaşdırılır. Məhəllələrdə 5, 9 12, 14 mərtəbəli yaşayış və inzibati binalar, məktəb və uşaq bağçaları tikiləcək, 5 hektara yaxın ərazidə yeni iş yerlərinin açılması üçün kiçik istehsal sahələri yaradılacaq. Cənub-mərkəz yaşayış ərazisində 400-ə yaxın yaşayış binasının tikintisi və təxminən 50 minə yaxın əhalinin yaşaması, sağ sahildə isə sahəsi 69,3 hektar olan cənub yaşayış ərazisində 5-9 mərtəbəli yaşayış binalarından ibarət 5 məhəllənin, ictimai binaların, məktəb və uşaq bağçalarının tikintisi nəzərdə tutulur. Sağ sahildə ümumilikdə 100-ə yaxın yaşayış binasının tikintisi, 11 minə yaxın əhalinin yaşaması planlaşdırılır. Hər iki plana görə, yaşayış məhəllələrində və ətrafında yaşıllıq zolaqları, park və xiyabanlar salınacaq. Bundan əlavə, şəhərdə yeni sənaye parkı yaradılacaq və Mingəçevir Dövlət Universiteti üçün yeni kampus tipli korpus tikiləcək.

Bunlardan əlavə, Mingəçevirin gələcək inkişaf planı çərçivəsində su anbarı ətrafında rekreasiya zonaları, parklar və ictimai məkanlar yaradılacaq və ekoloji baxımdan layihələr həyata keçiriləcək. Azərbaycanın ən böyük su hövzəsinin - Mingəçevir su anbarının (Mingəçevir dənizinin) sahilində yerləşdiyi üçün şəhərin əsas rekreasiya (istirahət və əyləncə) potensialı məhz su və yaşıllıq zonaları üzərində formalaşır. Ona görə də həmin ərazidə istirahət və turizm zonasının yaradılması üçün 367,66 hektar ərazinin yerquruluşu planı hazırlanmışdır. Həmin planda 191,45 hektar ərazinin turizm mərkəzi kimi inkişafı nəzərdə tutulur. Planlaşmaya görə, bura həm yerli sakinlər, həm də turistlər üçün ən gözəl istirahət zonasına çevriləcək.

Mingəçevir bu gün Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində inkişaf edir və abadlaşır. Dövlət başçısı Mingəçevirin inkişafına xüsusi diqqətlə yanaşır. Prezident İlham Əliyevin tapşırığına əsasən, son illər Qafqazın ən böyük energetika mərkəzi hesab olunan Mingəçevirdə 1880 Mb gücündə "8 Noyabr" İstilik-Elektrik Stansiyası tikilib istifadəyə verilmişdir. Bu stansiya ölkəmizin enerji gücünü artırmaqla bərabər, həm də yeni iş yerləri yaradıb.

Bu ilin "Şəhərsala və Memarlıq İli" elan edilməsi şəhərin inkişafına əlavə təkan verir. Cari il 5 məhəllənin abadlaşdırılması, həmin məhəllələrdəki binaların təmiri, minifutbol, idman və uşaq əyləncə meydançalarının yaradılması, yaşıllıq zolaqlarının salınması planlaşdırılmış, Heydər Əliyev prospekti boyunca, A.S.Puşkin və Nizami Gəncəvi küçələri arasında sağ və sol xiyabanların abadlaşdırılması nəzərdə tutulmuşdur. Eyni zamanda Heydər Əliyev prospekti boyunca inzibati və yaşayış binalarının fasad hissələri təmir edilərək yenilənəcək. Mingəçevirin gələcək inkişafı üçün planlaşdırılan təkliflərin reallaşdırılması şəhərin bir sənaye mərkəzi kimi inkişafına, həmçinin yeni iş yerlərinin açılmasına, mənzil fondunun artırılmasına, abadlığa və yaşıllaşdırmaya xidmət edəcək və bununla Mingəçevirin beynəlxalq istirahət və turizm mərkəzinə çevrilməsinə imkan verəcək.

***Sahib ƏLİYEV,***
***Mingəçevir Dövlət Universitetinin dosenti,***
***pedaqogika üzrə fəlsəfə doktoru***

# Neftçala şəhəri daha təmiz olur

**"Şəhərsalma və Memarlıq İli" çərçivəsində Neftçala şəhərinin Bayraq meydanı, Heydər Əliyev prospekti və daha bir neçə küçəsində idarə, təşkilat və ictimaiyyət nümayəndələrinin iştirakı ilə təmizlik aksiyası keçirilib.**



Aksiya zamanı həmçinin park və Heydər Əliyev prospektinin işıqlandırılması ilə bağlı qəzalı elektrik xətləri, işıq plafonları, elektrik tənzimləyiciləri yenisi ilə əvəz edilib, küçə işıqlandırılması ilə bağlı təmir işləri aparılacaq ərazilərdə monitorinq aparılıb. Şəhər ərazisində təmizlik aksiyasının davamlı olması qərara alınıb. O səbəbdən "Şəhərsalma və Memarlıq İli" çərçivəsində rayonun qəsəbə və kəndlərində də ərazilərin təmizlənməsi, parklarda abadlıq işlərinin aparılması, yol kənarı ərazilərin abadlaşdırılması diqqət mərkəzində saxlanır və təmizlik aksiyalarının il ərzində mütəmadi keçirilməsi ilə bağlı şəhər və digər yaşayış məntəqələrinin bölgüsü təsdiq edilib.

Təmizlik aksiyası könüllü gənclərdən ibarət təşkil edilmiş monitorinq qrupunun müəyyən etdiyi ərazilərdə də keçiriləcək. Şəhərin təmizliyini qorumaq istiqamətində profilaktiki işlərlə yanaşı, aksiyaların da keçirilməsi şəhər ərazisinin abadlığına xidmət edir.

***"Azərbaycan"***

# Qaliblər mükafatlandırılıb

**"Şəhərsalma və Memarlıq İli" çərçivəsində Neftçalada "Gələcəyin şəhəri və tarixi binalar" mövzusunda gənclər və yeniyetmələr arasında rəsm və poster müsabiqəsi keçirilib.**



Müsabiqəyə təqdim olunan rəsm və posterlərdə iştirakçılar gələcəyin şəhərləri ilə bağlı baxışlarını, müasir memarlıq elementlərini və tarixi binaların qorunmasının vacibliyini yaradıcı şəkildə əks etdiriblər.

Münsiflər heyətinin qiymətləndirməsinə əsasən, müsabiqədə I, II və III yerlərin qalibləri müəyyən olunaraq diplomlarla təltif edilib, həmçinin fərqlənən iştirakçılara təşəkkürnamələr təqdim olunub.

Müsabiqənin keçirilməsində əsas məqsəd gənc nəslin şəhərsalma və memarlıq sahəsinə marağının artırılması, onların yaradıcılıq potensialının üzə çıxarılması, eyni zamanda tarixi memarlıq nümunələrinin qorunması və gələcək şəhərlərin inkişafı ilə bağlı düşüncələrin təşviq edilməsi olub.

***"Azərbaycan"***

# Salyanda ağacəkmə aksiyası keçirilib



**Ölkəmizdə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə əlaqədar Salyanda ağacəkmə aksiyası keçirilib.**

RİH-in təşəbbüsü ilə keçirilən aksiyada rayonun və hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP rayon təşkilatının üzvləri, idarə, müəssisə və təşkilatların və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Aksiya çərçivəsində Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolunun rayon ərazisindən keçən hissəsində müxtəlif növ ağaclar əkilib. Ağacların əkildiyi ərazidə təmizlik işləri aparılıb və əvvəl əkilmiş ağaclar suvarılıb.

***"Azərbaycan"***

# Cəlilabadda abadlıq işləri davam edir



**"Şəhərsalma və Memarlıq İli" çərçivəsində Cəlilabadda müxtəlif tədbirlər həyata keçirilir.**

Belə tədbirlərdən biri Prezidentin 15 iyul 2024-cü il tarixli sərəncamına əsasən, Gənclər və İdman Nazirliyinin sifarişi ilə "Sağlam məhəllə" layihəsi çərçivəsində şəhərin Zərifə Əliyeva küçəsində müasir idman zonasının yaradılmasıdır. Burada minifutbol, basketbol meydançası və müxtəlif idman alətləri quraşdırılacaq. Layihə əhalinin, xüsusilə gənclərin sağlam həyat tərzinə dəstək məqsədi daşıyır və sakinlər tərəfindən böyük razılıqla qarşılanır. Bunadan əlavə, şəhərin Fətulla Niftullayev küçəsində təmir işləri aparılıb. Küçəyə qum-çınqıl materialı tökülərək səthi tam yenilənib, səliqə-sahman yaradılıb. Eyni zamanda Heydər Əliyev prospektində yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində işlər aparılır. Prospekt boyunca yeni bordürlər düzülür ki, bu da şəhərin vizual görünüşünü gözəlləşdirir, hərəkət təhlükəsizliyini artırır.

Bütün bu işlər "Şəhərsalma və Memarlıq İli"nin əsas məqsədlərinə - müasir, komfortlu, ekoloji cəhətdən təmiz və gözəl yaşayış mühitinin formalaşdırılmasına xidmət edir. Ciddi nəzarət sayəsində layihələr planlı şəkildə və yüksək keyfiyyətlə davam edir.

***S.QUBADOĞLU,***
***"Azərbaycan"***

# Masallıda rayon mərkəzlərinin şəhərsalma tarixinə nəzər salınıb

**Masallı Rayon İcra Hakimiyyəti, rayon Tarix-Diyarşünaslıq Muzeyi və Mərkəzi Rayon Kitabxanasının birgə təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində "Rayonlarda şəhərsalma mədəniyyəti: tarixi yanaşma" adlı tədbir keçirilib.**

Tarix-Diyarşünaslıq Muzeyində baş tutan tədbir Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirələrinin yad edilməsi ilə başlanıb. Tədbiri giriş sözü ilə açan muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Əntiqə Tağıyeva müzakirə olunan mövzunun mahiyyəti barədə geniş məlumat verib. Sonra Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin nümayəndəsi Salman Yunusov çıxış edib. Bildirib ki, tarixi yanaşma baxımından rayonlarımızın şəhərsalma mədəniyyətinə nəzər saldıqda görürük ki, qədim yaşayış məskənləri təbii-coğrafi şəraitə uyğun şəkildə qurulmuş, ictimai məkanlar, yaşayış evləri və təsərrüfat sahələri bir-biri ilə ahəngdar şəkildə yerləşdirilmişdir: "Bu isə həm estetik, həm də funksional baxımdan yüksək şəhərsalma düşüncəsinin mövcud olduğunu göstərir. Bu gün müasir şəhərsalma prosesində əsas vəzifələrdən biri də həmin tarixi irsi qorumaq, onu müasir tələblərlə uzlaşdırmaq və gələcək nəsillərə çatdırmaqdır. Rayonlarımızın inkişafı yalnız yeni tikililərlə deyil, həm də onların tarixi memarlıq simasının qorunması ilə ölçülür".

Rayon icra hakimiyyətinin baş məsləhətçisi Nuranə Muradova isə çıxışında qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi Azərbaycanın şəhər və rayonlarının planlı inkişafına, memarlıq irsinin qorunmasına və müasir şəhərsalma mədəniyyətinin formalaşmasına verilən böyük əhəmiyyətin göstəricisidir: "Şəhərsalma yalnız binaların və yolların tikintisi deyil. Bu, insanların yaşayış mühitinin düzgün təşkil olunması, tarixi irsin qorunması və gələcək nəsillər üçün sağlam və estetik mühitin yaradılması deməkdir".

Daha sonra çıxış edənlər - Azərbaycan Yazıçılar Birliyi rayon təşkilatının sədri, "Yeni həyat" qəzetinin əməkdaşı Akif Əliyev, Mərkəzi Rayon Kitabxanasının müdiri Zamin Məmmədov bildiriblər ki, şəhərsalma yalnız binaların və küçələrin planlaşdırılması deyil. Bu, eyni zamanda cəmiyyətin inkişaf səviyyəsini, mədəniyyətini və tarixə münasibətini əks etdirən mühüm bir sahədir. Xüsusilə rayonlarımızda formalaşmış şəhərsalma ənənələri xalqımızın zəngin mədəni irsinin ayrılmaz hissəsidir. Tarixə nəzər saldıqda görürük ki, rayonlarda salınmış yaşayış məntəqələri təbii şəraitə uyğun şəkildə qurulmuş, küçələr, meydanlar və yaşayış evləri insanların gündəlik həyatına rahatlıq gətirəcək formada planlaşdırılmışdır. Bu yanaşma həm praktik, həm də estetik baxımdan çox dəyərli bir şəhərsalma təcrübəsini ortaya qoyur. Bu gün isə əsas məqsədlərdən biri həmin tarixi şəhərsalma irsini qorumaq, onu müasir inkişaf prosesləri ilə düzgün şəkildə əlaqələndirməkdir. Çünki tarixini qoruyan və ona dəyər verən şəhərlər daha dayanıqlı və cəlbedici inkişaf yoluna sahib olur.

Tədbirdən sonra şəhərin yaşıllıq sahələrinin genişləndirilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə ağacəkmə aksiyası keçirilib, 165 Eldar şamı, 480 sərv və 285 dəmirağac tingi əkilib.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Astara - "Təmiz şəhərim" mənim





Astara Pedaqoji Kollecinin həyətinə girən kimi burada baş-başa vermiş müxtəlif növ gül kolları, ağaclar, səliqəli şəkildə cərgə ilə torpağa basdırılan yeni tinglər ilk baxışdan adamın diqqətini çəkir. Yaşıllıqlar arasında gəzib dolandıqca bu ecazkar gözəllikdən xüsusi zövq alırsan.

Məhz bütün bunlar nəzərə alınaraq "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatı və Astara Pedaqoji Kollecinin birgə təşkilatçılığı ilə növbəti "Təmiz şəhərim" adlı iməcilik aksiyası burada baş tutdu. YAP Astara rayon təşkilatının sədri Həbib Cəfərovun, Astara Pedaqoji Kollecinin direktoru professor Kamran Kazımovun iştirak etdiyi aksiya çərçivəsində kollecin müəllim və tələbə heyəti, həmçinin YAP fəalları ətraf mühitin qorunması və abadlıq işlərinə öz töhfələrini vermək üçün işə böyük həvəslə başladılar. İməcilik zamanı kollecin ərazisində tullantılar yığıldı, ağaclara aqrotexniki qaydada qulluq edildi, ərazi səliqəyə salındı. Aksiyanın təşkilinə ürəklə qatılan YAP Astara rayon təşkilatının sədri Həbib Cəfərov bildirdi ki, aksiyanın məqsədi Astaranın ən füsunkar guşəsi olan burada görülən işlərlə az da olsa, şəhər mühitinin daha təmiz və abad saxlanmasına töhfə vermək, gənclər arasında ekoloji mədəniyyətin və vətəndaş məsuliyyətinin təbliğidir.

Onu da əlavə edək ki, belə təşəbbüslər cəmiyyətimizdə ətraf mühitə qayğının artmasına, respublikamızın cənub qapısı sayılan şəhərimizin daha gözəl və yaşıl olmasına xidmət edir. "Təmiz şəhərim" adlı iməcilik aksiyası iştirakçılar tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandı. Belə aksiyaların ilboyu təşkilinin nəzərdə tutulduğu bildirildi.

***Zəfər ORUCOĞLU,***
***Astara***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Cəbrayıl "Şəfəq"i tezliklə işıq saçacaq

### BP-nin əməliyyatçı olduğu bu layihə Azərbaycanın "yaşıl enerji" səylərinə dəstək vermək məqsədi daşıyır



**Hazırda Cəbrayıl rayonunda tikilən "Şəfəq" Günəş-Elektrik Stansiyasının təməli 2024-cü il noyabrın 12-də Bakıda keçirilən COP29 çərçivəsində qoyulub. 2025-ci il iyunun 2-də Bakı Enerji Həftəsi çərçivəsində isə layihə üzrə yekun investisiya qərarı qəbul edilib.**

Daha sonra biri mühəndislik, təchizat və tikinti xidmətləri üzrə bütün iş həcmini, eləcə də obyektin ilk iki il ərzində istismar və texniki xidmət işlərini əhatə edən, digəri isə modul təchizatı üçün olan iki əsas müqavilə imzalanıb. Bu müqavilələr çərçivəsində ötən il layihə sahəsində hazırlıq işləri tamamlanıb və avqust ayında ilk panellər uğurla əraziyə çatdırılıb.

Keçən ilin dördüncü rübündə "Şəfəq"in tikintisi qrafikə uyğun irəliləyib və bu gün də öz qaydasında davam edir. Layihənin operatoru olan BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli bu ayın əvvəlində jurnalistlər üçün keçirdiyi brifinqdə stansiyanın tikintisində işlərin vüsət aldığını deyib. O bildirib ki, günəş panellərinin quraşdırılacağı sahədə taxta şalbanlar, yeni dayaqlar qaldırılıb və görülən işlər məmnunluq yaradır.

Bu layihə üzrə tikinti işlərinin 2027-ci ilin ortalarına qədər davam edəcəyi planlaşdırılır. Tikinti zamanı yerli resurslardan maksimum dərəcədə istifadə etməyə xüsusi diqqət yetiriləcək. İnşaat işlərinin pik dövründə layihədə 400-ə yaxın iş yerinin yaradılacağı gözlənilir.

240 meqavatlıq "Səfəq" stansiyası və Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihələri "virtual enerji ötürmə mexanizmi" adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidirlər. Səngəçal terminalının investorları STEL laytihəsini keçən il iyunun 2-də təsdiqləyiblər.

230 milyon dollar dəyərində olan bu layihə terminalın "Azərenerji" ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulmasını təmin edəcək. Bunun üçün terminal ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən yeni 220/110 kV-luq elektrik yarımstansiyası inşa olunacaq.

"Virtual enerji ötürmə mexanizmi"nə əsasən, "Şəfəq" stansiyası elektrik enerjisi istehsal edərək onu Cəbrayıl rayonunda "Azərenerji"yə verəcək, "Azərenerji" isə sonra eyni həcmdə elektrik enerjisini Səngəçal terminalına ötürəcək. Hazırkı proqnozlara və planlara əsasən, "Şəfəq" və STEL layihələri birlikdə Səngəçal terminalının gələcək istismarı dövründə terminal əməliyyatlarından yaranan emissiyaları təxminən yarıbayarı azaldacaq.

Qeyd edək ki, hazırda terminal öz enerji ehtiyacını qarşılamaq üçün yeddi qaz turbinindən istifadə edir. Elektrikləşdirilmədən sonra turbinlər mərhələli şəkildə söküləcək və bu da istifadə olunmayan yanacaq qaz həcmlərinin ixraca yönəldilməsinə imkan verəcək.

2025-ci ildə STEL layihəsi üzrə üç əsas müqavilə imzalanıb və hazırda bu müqavilələr üzrə iş həcminə daxil olan fəaliyyətlər, o cümlədən mühəndis-layihələndirmə, təchizat, quraşdırma və tikinti işləri təhlükəsiz şəkildə və qrafikə uyğun olaraq davam edir. Layihə üzrə tikinti işlərinin iki mərhələdə aparılacağı nəzərdə tutulub. Birinci mərhələnin 2027-ci ilin ortalarında, ikinci mərhələnin isə 2028-ci ilin sonunadək başa çatacağı gözlənilir.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti bu layihələrlə ölkəmizin bərpaolunan enerji səylərinə yardımçı olmaq məqsədi daşıdıqlarını deyir. Xatırladaq ki, BP Azərbaycanda uzun illərdir ən iri neft, qaz və ixrac layihələrinin operatorudur. İndi artıq onun ölkəmizdəki fəaliyyətinə "yaşıl enerji" sahəsi də daxil olub.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

**Dövlət Statistika Komitəsinin məlumatına görə...**

## Aylıq pensiyaların orta məbləği 9,1 faiz artıb

**2026-cı il yanvarın 1-i vəziyyətinə Dövlət Sosial Müdafiə Fondunda 1 milyon 98,9 min (ötən ilin yanvarın 1-i vəziyyətinə 1 milyon 98,3 min) pensiyaçı qeydiyyatda olmuşdur ki, bu da ölkə əhalisinin 10,7 faizini təşkil edir.**

Təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,1 faiz artaraq 541,6 manat təşkil etmiş və orta aylıq əməkhaqqının 49,1 faizinə bərabər olmuşdur.

Ölkədə pensiyaçıların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə Prezidentin 2026-cı il 9 fevral tarixli sərəncamına əsasən, cari ilin 1 yanvar tarixindən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyaları indeksləşdirilərək 9,3 faiz artırılmışdır. Bununla yanaşı, əhalinin sosial müdafiəsinin təmin edilməsi məqsədilə ayrı-ayrı kateqoriyadan olan şəxslərə müxtəlif növ aylıq sosial müavinətlər təyin edilir.

2025-ci il ərzində məcburi dövlət sosial sığorta haqları hesabına verilənlər istisna olmaqla, 38,8 min ailəyə 40,3 min uşağın anadan olmasına görə, radiasiya qəzası nəticəsində zərər çəkmiş 3,7 min şəxsə müalicə üçün və penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş 6,1 min nəfərə birdəfəlik müavinətlər verilmişdir.

2026-cı il yanvarın 1-i vəziyyətinə 76,1 min aztəminatlı ailənin 336,0 min üzvü ünvanlı dövlət sosial yardımı almış və onun bir nəfərə düşən orta aylıq məbləği 95,7 manat təşkil etmişdir.

Müxtəlif kateqoriyadan olan 406,9 min şəxsə Azərbaycan Respublikası Prezidentinin təqaüdü və fəxri adlara görə təqaüd təyin olunmuşdur.

## Ölkədə muzdla çalışan işçilərin sayı 1,7 milyon nəfərdən çoxdur

**2026-cı il fevralın 1-i vəziyyətinə ölkədə muzdla çalışan işçilərin sayı 1 milyon 782 min nəfər olmuşdur. Onlardan 861,4 min nəfəri dövlət, 920,6 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.**

Muzdla işləyənlərin 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,3 faizi təhsil, 13,8 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,5 faizi tikinti, 6,2 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi peşə, elmi və texniki fəaliyyət, 2,4 faizi maliyyə və sığorta fəaliyyəti, 2,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 15,1 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Bu ilin yanvar ayında ölkədə muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,8 faiz artaraq 1103,8 manat təşkil etmişdir.

## Azərbaycanın 128 ölkədə ticarət tərəfdaşı var

**Cari ilin yanvar ayında Azərbaycan dünyanın 128 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir.**

81 ölkəyə məhsul ixrac, 122 ölkədən idxal olunmuşdur. Ay ərzində xarici ticarət dövriyyəsi 3 milyard 92,1 milyon ABŞ dolları təşkil etmiş və 487,7 milyon dollar məbləğində müsbət ticarət saldosu yaranmışdır.

2025-ci ilin yanvar ayı ilə müqayisədə 2026-cı ilin yanvar ayında idxalda daha çox paya malik olan məhsul növlərindən buğda idxalı 49,9, bitki yağları - 9, qara metallardan borular - 33,7, polietilen - 72,5 faiz, avtobuslar - 2,7 dəfə artmış, təzə meyvə idxalı isə 3,6, kərə yağı, digər süd yağları və pastaları - 26,7, dərman vasitələri - 44,5 , polad prokatı - 15,4, hesablama maşınları, blok və qurğuları - 22,2 faiz azalmışdır.

2026-cı ilin yanvar ayında ümumi ixracda 15 faiz paya malik olan qeyri-neft-qaz məhsullarının ixracı 268,4 milyon dollar təşkil etmiş və 2025-ci ilin yanvar ayına nisbətən faktiki qiymətlərlə 9,1 faiz artmış, real ifadədə isə 20,7 faiz azalmışdır.

## Biznesdə davamlı qazancın tək yolu - halallıq

**İndiki zamanda qlobal iqtisadiyyatın inkişafı ilə yanaşı, etik və dini prinsiplərə əsaslanan biznes modellərinə də maraq artmaqdadır. Xüsusilə müsəlman cəmiyyətlərində halal prinsiplərə uyğun fəaliyyət göstərən biznes sahələri sürətlə inkişaf edir. Halal biznes məhsul və xidmətlərin dini qaydalara uyğun olmasından başqa, dürüstlük, ədalət, şəffaflıq və sosial məsuliyyət kimi dəyərlərin qorunmasını nəzərdə tutur. Bu baxımdan, halal biznesə iqtisadi fəaliyyətin etik çərçivədə həyata keçirilməsini təmin edən model də demək olar.**

Halal biznes islamın iqtisadi prinsiplərinə uyğun şəkildə həyata keçirilən sahibkarlıq fəaliyyətidir. Bu biznesdə qazancın mənbəyi və əldə olunma üsulu böyük əhəmiyyət daşıyır. Ona görə də ticarətdə şəffaflıq, alıcı və satıcı arasında qarşılıqlı etimad, sosial məsuliyyət - əsas prinsiplər kimi qəbul edilir. İslam dininin iqtisadi prinsiplərinə görə, biznes fəaliyyəti zamanı haram hesab olunan məhsulların istehsalı və satışı qadağandır. Spirtli içkilər, donuz mənşəli məhsullar və digər haram sayılan malların ticarəti halal biznes çərçivəsinə daxil edilmir. Üstəlik, aldatma, ölçü və çəkiyə müdaxilə etmək, haqsız qazanc götürmək kimi hallar da qadağan olunur. Bu qaydalar iqtisadi münasibətlərdə ədalətin və dürüstlüyün qorunmasına xidmət edir.

Son illər halal məhsul və xidmətlərə tələbatın artması bir çox ölkədə olduğu kimi, Azərbaycanda da halal biznesin inkişafına təkan verib. Əhalinin böyük hissəsinin müsəlman olması halal məhsullara marağı artırır və bu sahədə fəaliyyət göstərən müəssisələrin sayının artmasına səbəb olur. Azərbaycanda halal biznes, əsasən, qida sənayesi sahəsində daha geniş yayılıb. Halal qaydalara uyğun kəsilmiş ət, müxtəlif qida məhsulları, restoran və kafe xidmətləri bu sahənin əsas istiqamətlərini təşkil edir. Bundan əlavə, son illər halal turizm və halal kosmetika kimi yeni sahələr də inkişaf etməyə başlayıb.

Halal biznesin inkişafında standartların və sertifikatlaşdırmanın tətbiqi də mühüm rol oynayır. Bu sahədə fəaliyyət göstərən müəssisələr üçün halal sertifikatının alınması məhsulların və xidmətlərin islam qaydalarına uyğun olduğunu təsdiqləyir və istehlakçıların inamını artırır. Azərbaycanda bu istiqamətdə standartlaşdırma və keyfiyyətə nəzarət sahəsində fəaliyyət göstərən qurumlardan biri Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu hesab edilir.

Halal biznesin inkişafı üçün halal investisiyanın olması vacibdir. Bu investisiya haram (qanunsuz) sahələrə və ya mallara, məsələn, donuz ətindən olan məhsullara, spirtli içkilərə, eləcə də hərbi ləvazimatlara qoyulmamalıdır. Belə yanaşma həm biznesin dini uyğunluğunu təmin edir, həm də investorlar üçün etibarlı və şəffaf maliyyə mühiti yaradır. Dünyada bu prinsiplərə uyğun investisiyaların təşviqi və dəstəyi ilə məşğul olan nəhəng maliyyə qurumlarından biri İslam İnkişaf Bankıdır. O, islam maliyyəsi prinsiplərinə uyğun layihələrə investisiya qoyaraq halal bizneslərin genişlənməsinə yol açır. Bu yerdə əlavə edək ki, hazırda dünyada halal biznes və islam maliyyəsi prinsiplərinə uyğun investisiyaların dəstəklənməsi sahəsində 500 nəhəng islam maliyyə institutu fəaliyyət göstərir. Onların ümumi vəsaiti 800 milyard dollara çatır. İslam bankçılığı sahəsində liderlər Kuala-Lumpur, Bəhreyn və Londondur. Avropada ilk islam bankı olan "Islamic bank of Britain" hələ 2002-ci ildə Londonda açılıb. Hətta "Sitibank" (ABŞ) və "Sosete Jeneral" (Fransa) kimi nəhəng maliyyə strukturları da bu cür xidmətlər təklif edirlər. İsveçrənin məşhur "UBS" və "Credit Suisse" banklarında isə islam bankçılığına aid böyük bir şöbə var.

"İslam bankçılığı" dedikdə bank əməliyyatlarının şəriət qanunları əsasında tənzimləndiyi sistem başa düşülür. Onu klassik, ənənəvi kommersiya banklarından fərqləndirən əsas xüsusiyyət faizin qəti qadağan edilməsidir. Söz düşmüşkən xatırladaq ki, faizsiz bankçılığın tarixi hələ eramızdan əvvəlki dövrlərə - Hammurapi hakimiyyəti illərinə qədər gedib çıxır. İslam iqtisadiyyatı anlayışının elmə gətirilməsi hindli alim M.A.Gilanin adı ilə bağlıdır. O özünün "İslam iqtisadiyyatı" adlı kitabında bu modeli ideal iqtisadi sistem kimi qiymətləndirib. Məhz bu kitabın nəşrindən bir neçə il sonra ilk islam maliyyə qurumları, strukturları yaranmağa başlayıb. İslam bankçılığının başlıca məqsədi odur ki, ədalətli iqtisadi münasibətlər qurulsun, heç kimin haqqı tapdalanmadan halal yolla gəlir əldə etmək mümkün olsun.



İslam bankçılığı sərmayələrin yalnız real sektora yönəldilməsini tələb edir. Burada əsas məsələ odur ki, əmanətlərin real sektora deyil, veksel və repo kimi sahələrə yönəldilməsi, eləcə də faizlə qiymətləndirilməsi əmanətçilərdə tədricən ətalət yaradır. Digər tərəfdən isə bu hal sahibkarların istehsala olan marağını və istəyini azaldır. İslam bankları kommersiya banklarından fərqli olaraq borc verən tərəf kimi deyil, əksinə, fəaliyyət ortağı kimi çıxış edirlər.

Halal maliyyə prinsipləri islamın müqəddəs kitabı olan Quran-i-Kərimdə yer alan qaydalara əsaslanır. Quranda faiz qadağan edilərək müsəlmanlara ədalətli və halal ticarət münasibətləri qurmaq tövsiyə olunur. Bəqərə surəsinin 275-ci ayəsində deyilir: "Allah alış-verişi halal, faizi isə haram etmişdir". İslam İnkişaf Bankı məhz bu prinsiplər əsasında formalaşan beynəlxalq qurumdur. Bank faizsiz maliyyələşdirmə modellərindən istifadə edərək üzv ölkələrdə sosial-iqtisadi inkişaf layihələrini dəstəkləyir və halal maliyyə mexanizmlərinin yayılmasına töhfə verir.

Azərbaycan ilə İslam İnkişaf Bankı arasında əməkdaşlıq uzun illərə dayanır. Ölkəmiz bu banka 1992-ci ildə üzv olub. O zamandan etibarən ölkəmizdə müxtəlif sosial-iqtisadi layihələrin maliyyələşdirilməsində bu bank mühüm rol oynayır. Bankın dəstəyi ilə indiyə kimi Azərbaycanda kənd təsərrüfatı, enerji, infrastruktur və su təsərrüfatı kimi sahələrdə çoxsaylı layihələr həyata keçirilib. Ümumilikdə İslam İnkişaf Bankı tərəfindən Azərbaycanda 80-dən çox layihəyə təxminən 1,3 milyard dollar həcmində maliyyə ayrılıb. Bu layihələr ölkənin iqtisadi inkişafına, regionların sosial rifahının yüksəldilməsinə və dayanıqlı iqtisadi artımın təmin olunmasına töhfə verir.

Halal məhsulların istehsalında xammalın əldə edilməsindən satışa qədər bütün mərhələlər müəyyən qaydalara uyğun həyata keçirilməlidir. Bu baxımdan, standartların tətbiqi və nəzarətin gücləndirilməsi böyük əhəmiyyət daşıyır. Məhz bu kimi məsələlər 2025-ci il oktyabrın 7-8-də Bakıda keçirilən II Azərbaycan Halal Biznes Forumunda (AZHAB Forum) geniş müzakirə olunub. Forumda halal biznesin inkişaf perspektivləri, sertifikatlaşdırma mexanizmləri, beynəlxalq təcrübə və halal məhsulların qlobal bazara çıxarılması imkanları diqqət mərkəzində olub. Tədbirdə yerli və xarici ekspertlər, sahibkarlar və dövlət qurumlarının nümayəndələri iştirak edərək halal biznes mühitinin inkişafı üçün vacib istiqamətlər barədə fikir mübadiləsi aparıblar. Bundan başqa, Kiçik və Orta Biznesin (KOB) dəstəklənməsi, islam maliyyəsi, halal biznesin idarə olunması, KOB-ların "yaşıl keçid"i, halal turizm və halal sənayenin inkişafında qadınların roluna dair panel müzakirələr də tədbirn gündəliyində yer alıb.

Belə qlobal tədbirlər onu göstərir ki, halal biznesin inkişafı üçün böyük perspektivlər mövcuddur. Qlobal bazarda halal məhsullara olan tələbatın artması bu sahədə yeni imkanlar yaradır. Halal qida sənayesi, halal turizm, halal kosmetika və digər istiqamətlərdə fəaliyyət göstərən müəssisələr üçün həm yerli, həm də beynəlxalq bazarlara çıxış imkanları genişlənir. Belə tendensiya xüsusən müsəlman əhalinin çoxluq təşkil etdiyi ölkələr üçün mühüm iqtisadi imkanlar verir.

Bu proses Azərbaycan üçün də aktualdır və ölkəmizdə halal biznesin genişlənməsi iqtisadi inkişaf baxımından yeni fürsətlər yaradır. Halal qida sənayesi, turizm və digər sahələrdə yaranan imkanlar həm daxili bazarın inkişafına, həm də beynəlxalq ticarətin genişlənməsinə müsbət təsir göstərə bilər.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***





# Mədəniyyət





● Ədəbi simalarımız

# Ürəyi "İşıq və məhəbbət"lə dolu idi

**Azərbaycan publisistikası və jurnalistikasının inkişafında əvəzsiz xidmətləri olan ziyalılardan, müəllimlərdən söz düşəndə ilk sıralarda adları çəkilənlərdən biri də tanınmış Nurəddin Babayevdir. O, böyük bir jurnalist nəslinin yetişməsində əvəzsiz xidmətlər göstərmiş, yaşadığı, işlədiyi dövrlərdə ziyalı kimi, müəllim kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmişdir.**

Bütün zamanlarda gənc nəsillərə örnək olacaq şərəfli bir ömür yaşamış Nurəddin Babayev 1921-ci il martın 23-də Nizami yurdu Gəncədə ziyalı ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında olarkən ailəsi Bakıya köçüb. Günlər keçdikcə Bakı mühitinə alışan Nurəddin 134 nömrəli orta məktəbdə oxuyub. Həmişə dərslərdə fəallığı ilə seçilib. Hələ məktəb illərindən ədəbiyyata və sənətə maraq göstərib. Ədəbi fəaliyyətə isə çox erkən - 1939-cu ildə başlayıb. Onun həmin dövr müxtəlif mətbu orqanlarda bir-birindən maraqlı məqalə, oçerk və hekayələri çap olunub.

İstedad günəş kimidir, harada olsa özünü göstərir. Nurəddin Babayevin "Əbədi qəhrəmanlıq" adlı ilk kitabı 1945-ci ildə işıq üzü görüb. İstedadı və bacarığı ilə doğmalarını sevindirən N.Babayev Azərbaycan ədəbiyyatında oçerk üslubunun nəzəri əsaslarını yaradıb və bu yolda ilk cığır açanlardan biri olub. N.Babayev böyük zəhmət bahasına yazdığı "Mübariz janr" monoqrafiyasında oçerk sənətkarlığının inkişafını elmi ardıcıllıqla araşdırıb. Araşdırmaları uğurlu nəticələrlə yekunlaşıb.

Nurəddin Babayev dünyanı məhv edən, insanlara ölüm gətirən faşizmə qarşı müharibədə zabit kimi iştirak edib, hətta döyüşlərin birində ağır yaralanıb. Ölüm qoxuyan müharibədən baş leytenant rütbəsi ilə qayıdan gələcəyin yazıçısı Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə qəbul olub. Tələbəlik illərində Nurəddin Babayev dövrün tanınmış yazıçı və mütəfəkkirlərindən dərs alıb. Görkəmli yazıçı və ədəbiyyatşünaslar Mir Cəlal Paşayev, Cəfər Xəndan, Həmid Araslı, Muxtar Hüseynzadə, Abbas Zamanov və başqaları onun həyatında və yaradıcılığında mühüm rol oynayıb.

Nurəddin Babayev əmək fəaliyyətinə 1940-1941-ci illərdə "Azərbaycan pioneri" qəzetində ədəbi işçi kimi başlamışdır. Mətbuat aləmində atdığı ilk addımlar sonrakı illərdə ona böyük uğurlar qazandırmışdır. Faşizmə qarşı müharibənin sonlarına yaxın - 1943-1945-ci illərdə "Kommunist" qəzetində şöbə müdiri, "Azərbaycan müəllimi"ində redaktor müavini, 1953-cü ildən isə "Uşaqgəncnəşr" və C.Cabbarlı adına "Azərbaycanfilm"də baş redaktor işləmişdir.

Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra Nurəddin Babayev 1951-ci ildə Jurnalistika şöbəsində elmi-pedaqoji fəaliyyətə başlamışdır. 1958-ci ildə "Azərbaycanda bədii oçerkin inkişafı" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdır. Bir-birinin ardınca qazandığı uğurlar onu elm ictimaiyyətinə də yaxından tanıtmışdır. 1962-ci ildə Jurnalistika şöbəsinin dosenti olmuş N.Babayev 1981-ci ildə professor elmi adını almışdır.

Həmin dövrlərdə Azərbaycan Dövlət Universitetində Jurnalistika fakültəsi yox idi. Yalnız Filologiya fakültəsinin



nəzdində şöbə kimi fəaliyyət göstərirdi. Təbiidir ki, bu da gündən-günə jurnalistika sahəsinə artan tələbatı ödəmirdi. Buna görə 1969-cu ildə bir çox tanınmış alim və yazıçıların, həmçinin Nurəddin Babayevin səyi sayəsində böyük çətinliklə də olsa, Jurnalistika fakültəsi yaradıldı. Dövrünün tanınmış ziyalısı Nurəddin Babayev həmin fakültənin dekanı seçildi.

Ötən əsrin 60-70-ci illərində Nurəddin Babayevin əsas müəlliflərdən biri və elmi redaktoru olduğu ikicildlik "Jurnalistika məsələləri" adlı dərs vəsaiti çap edildi. Jurnalistika fakültəsinin müəllimləri tərəfindən yazılan və mətbuatın, televiziya və radionun tarixi, nəzəri və təcrübi məsələlərinə həsr edilən kitab jurnalistikaya aid ilk dərs vəsaiti idi. Nurəddin Babayev həmin kitaba görə 1966-cı ildə "Qızıl qələm" mükafatına layiq görüldü.

Azərbaycan Yazıçılar İttifaqının üzvü, AYİ-nin Oçerk və Publisistika Şurasının sədri Nurəddin Babayev 1954-cü ildə SSRİ Yazıçılar İttifaqının üzvü seçilmişdir. Onun yaradıcılığı olduqca çoxşaxəli, rəngarəng və bənzərsizdir. Yazdığı əsərlər sanki cəmiyyətin güzgüsüdür, mövzuları bir-birindən maraqlı, diqqətçəkəndir. Elə buna görə də yazıçının bir çox əsəri təkcə rus dilinə deyil, alman, ingilis, fransız, ispan, polyak, bolqar, macar və başqa dillərə də tərcümə olunmuşdur. Oxuduqca aydın şəkildə görürük ki, onun publisistika yaradıcılığının mərkəzində gənclərin təlim-tərbiyəsi dayanır. Yazıçının ötən əsrin 70-80-ci illərində işıq üzü görmüş "Oğluma məktublar", "Qızlar söz istəyir", "Qızlar, sözüm sizədir", "İşıq və məhəbbət", "Ürəklər bir olanda", "Valideynlər, bizi dinləyin", "Açıq söhbət", "Elə yaz ki..." və başqa publisistik əsərləri gənc nəslin təlim-tərbiyəsində, vətəndaş kimi formalaşmasında mühüm rol oynayır. Adlarından da göründüyü kimi, yazıçı Nurəddin Babayevin kitabları dövlətimizin, xalqımızın gələcəyi olan gənclərə ünvanlanıb.

Nurəddin Babayevin yaradıcılığının məhsulu olan əsərlərinə yalnız respublikamızda deyil, xarici ölkələrdə də yüksək qiymət verilmişdir. Yazıçının səmimi və nümunəvi ata-oğul münasibətlərini özündə yüksək bədii dəyərlərlə əks etdirən "Oğluma məktublar" əsəri Bolqarıstanda "Ədəbiyyat" dərsliyinə daxil edilmiş və "Qızıl qələm" mükafatına layiq görülmüşdür.

Bu gün də əsərləri sevilə-sevilə oxunan Nurəddin Babayevin Moskvada böyük tirajla çap olunmuş "Ulduzlar sönmür" və "Ömür yollarında" əsərləri geniş oxucu kütləsi tərəfindən böyük maraqla qarşılanmışdır. Görkəmli yazıçı-publisist həm də "Azərbaycan elmi", "Bacarıqlı əllər", "Nizami yurdu", "Həyatın mənası", "Axtaran tapar" və başqa elmi-sənədli filmlərin ssenari müəllifidir. Ümumiyyətlə, zəngin yaradıcılıq yolu keçmiş Nurəddin Babayev 20-dən çox kitabın müəllifidir. Əmək və müharibə veteranı olan yazıçının zəhməti və fəaliyyəti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, 1961-1981-ci illərdə döyüş medalları və Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif edilmiş, 1982-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Yazdığı əsərləri ilə milyonların sevgisini qazanmış Nurəddin Babayev uzun sürən xəstəlikdən sonra 1991-ci il sentyabrın 25-də dünyasını dəyişib. Gəncədən başlanan ömür yolu Bakıda sona çatıb.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● İncəsənət xadimləri

# Onun üçün mövzu və janr məhdudiyyəti yox idi

**Söhbət XX əsr Azərbayacan təsviri sənətinin inkişafında əvəzsiz xidmətləri olmuş, təsviri sənətin rəngkarlıq sahəsində uğurlu əsərlər yaratmış, bu il 100 illik yubileyi tamam olan Xalq rəssamı Cahangir Rüstəmovdan gedir.**



O, Şəki şəhərində anadan olmuşdur. İncəsənətə olan sevgi və marağı onu Bakıya gətirir. Cahangir Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda təhsil alır, Səttar Bəhlulzadə və Baba Əliyevdən sənətin sirlərini öyrənir. V.İ.Surkov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna qəbul olunan C.Rüstəmov ailə vəziyyəti ilə əlaqədar ali təhsilini başa vura bilmir. 1951-ci ildə Rəssamlar İttifaqının üzvlüyünə qəbul edilən sənətkarın əsərləri bir sıra yerli və beynəlxalq əhəmiyyətli sərgilərdə nümayiş olunur. Onun Bakı (1953, 1962, 2016) və Astara (1973) şəhərlərində fərdi sərgiləri təşkil



edilir. Əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və şəxsi kolleksiyalarda saxlanılır. Rəssamın qardaşı Əməkdar rəssam Aslan Rüstəmov ölkəmizin tanınmış heykəltaraşıdır. Onun monumental heykəltaraşlıq əsərləri Bakı ilə yanaşı, rayonlarımızda da ucadılıb.

C.Rüstəmovun ilk yaradıcılıq illəri İkinci Dünya müharibəsinə təsadüf edir. O, həmin illər müharibə mövzusunda "Qəhrəmanın qarşılanması" (1946), "Sonuncu düşmən əsgəri" (1948), "Gəncədə Nizami Gəncəvinin heykəlinin açılışı" (1949) "Pambıq yığımı" (1949), "Neftçi Yusif Ağayevin portreti" (1949) və başqa əsərlər yaradır. Bu illəri rəssamın yaradıcılığında axtarış dövrü adlandırmaq olar.

Sənətkarın nisbətən sanballı işləri 1950-ci illərdə yaratmış olduğu əsərlərdə özünü büruzə verir. Artıq özünü təsdiq etmiş rəssam bir sıra maraqlı əsərlərin müəllifi kimi uğurlar qazanır. "İstisu" (1952), "Eyvanda" (1953), "Senej" (1953), "Balaca köməkçi" (1955), "Bakı mənzərəsi" (1956), "İlk şeir" (1957), "Ailə sevinci" (1958) və başqa süjetli tablo və mənzərə əsərlərini ərsəyə gətirməklə rəssam özünün peşəkar işlənilmə ustalığı ilə seçilən, yaradıcılıq dünyasında xüsusi rola malik əsərlərini yaratmağa nail olur.



Milli İncəsənət Muzeyinin ekspozisiyasında nümayiş olunan "Balaca köməkçi" adlı əsərdə rəssam adi məişət hadisəsini təsvir edib. Kompozisiyanın quruluşu, işıq-kölgə həlli, surətlərin plastikası o dərəcədə ustalıqla əks olunub ki, sanki tamaşaçı hadisənin iştirakçısına çevrilir. Ananın mətbəxdə fərəh hissi ilə balaca qızına iş prosesində duyğulu baxışları, keçirdiyi sevinc hissləri onun çöhrəsindən oxunur. Burada rəssam tərəfindən dolğun rəng çalarları və mükəmməl kolorit həlli ilə işlənilib. Rəssamın bu əsəri fəxri fərmanla təltif olunmuşdur.

Cahangir Rüstəmovun məişət janrında işlədiyi növbəti "Ailə sevinci" adlı işi də onun uğurlu əsərlərindən sayılır. Kompozisiyada ər-lə-arvadın bağdakı asma beşikdə yatmış övladlarına məhəbbətlə baxdıqları təsvir olunub. Valideynlərin qəlbində dərin sevinc hissləri yaşadıqları onların sakit duruşlarından və üz cizgilərinin dərin ifadəsindən sezilir. Rəssamın belə lirik tonlu, dərin psixoloji mənaya malik əsərləri sırasında həmçinin "İlk şeir" (1957), "Gənclik" (1963) adlı əsərlərini də vurğulamaq olar.

1960-1970-ci illərdə rəssamın yaradıcılıq diapazonu genişlənir, müşahidələri və peşəkar yaradıcılıq məharəti qüvvətlənir. C.Rüstəmov bu illərdə ölkəmizin müxtəlif guşələrinə yaradıcılıq ezamiyyətinə yollanır. Onun ölkəmizin cənub rayonlarına - Cəlilabad, Masallı, Lənkəran, Astaraya həsr etdiyi əsərləri ayrıca bir mövzudur. Burada o zəhmət adamlarının ayrıca portretlərini, onların iş zamanı surətlərini kətana köçürmüş, həmçinin iri ölçülü tematik tablolar ərsəyə gətirmiş, bir sıra mənzərə nümunələri yaratmışdır. C.Rüstəmovun bu işlərinə nümunə olaraq "İstirahət edən kolxozçu qadın" (1960), "Kolxozçu qız" (1960), "Pambıqçı qadının portreti" (1962), "Çay yığımı" (1965), "Kolxozçu qadınlar" (1967), "Çaybecərənlər" (1971), "Tarla zəhmətkeşləri" (1972), "Narlar" (1973), "Komsomol briqadası" (1973), "Sosializm yarışının qalibləri" (1974), "Dağlarda" (1978), "Üzümçülər" (1982) və digərlərini qeyd edə bilərik.

Rəssamın uğurlu portret əsərləri sırasında "Mixaylo (Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə)" (1956) "Sosialist əməyi qəhrəmanı Zəki Şükürovun portreti" (1958), "Güləş üzrə dünya çempionu Aydın İbrahimovun portreti" (1962), "İdmançı qız" (1962), "Fransa müqavimət hərəkatının iştirakçısı Əhmədiyyə Cəbrayılovun portreti" (1979), "Qız portreti" (1980) və başqa əsərlərini göstərmək olar.

C.Rüstəmov 1961-ci ildə Fransa və Tunisə yaradıcılıq ezamiyyəti nəticəsində bir sıra maraqlı əsərlər qalereyası ərsəyə gətirmişdir. O, həmin ölkələrdə olarkən apardığı yaradıcı müşahidələri nəticəsində bir sıra yaddaqalan tablolar yaratmışdır. Fransaya aid "Tələbə qızlar" (1961), "Luvr" (1961), Tunis ölkəsinə aid "Çəkməsilən" (1961), "Oyanma" (1961), "Karfagen yaxınlığında" (1961), "Kayruanlı qız" (1961) adlı əsərlərini qeyd edə bilərik. Bundan başqa, rəssam həmçinin 1968-ci ildə ABŞ-yə yaradıcılıq ezamiyyətinə getmişdir. O, Nyu York, Buffalo, Vaşinqton, San-Fransisko, Los-Angelsdə sərgi qalereyalarını və muzeylərini gəzmiş, Amerika rəssamları və təsviri sənətinin ənənələri ilə yaxından tanış olmuşdur.

Dövlətimiz tərəfindən Cahangir Rüstəmovun bədii yaradıcılıq fəaliyyəti yüksək qiymətləndirilmiş, ona Əməkdar rəssam (1982) və Xalq rəssamı (2002) fəxri adları verilmiş, Prezident təqüdünə layiq görülmüşdür. Rəssamın bədii yaradıcılıq fəaliyyəti tanınmış sənətşünas alimlər tərəfindən yüksək qiymətləndirilmişdir. Həmçinin 2016-cı ildə rəssamın 90 illik yubileyinə həsr olunmuş möhtəşəm fərdi sərgisi təşkil edilmişdir.

***Əsəd QULİYEV,***
***sənətşünas,***
***Rəssamlar İttifaqının üzvü***

# "Yurdumuza bayramlar qoşa gəlir"- Masallıda Novruz təntənəsi



17 mart 2026-cı il tarixində Masallı Rayon İcra Hakimiyyətinin inzibati binasının qarşısındakı meydanda xalqımızın qədim və zəngin milli-mənəvi dəyərlərini özündə əks etdirən Novruz bayramına həsr olunmuş ümumrayon tədbiri keçirilib.

Bayram şənliyi Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların nümayəndələri, rayon ziyalıları, ağsaqqallar və Gənclərin İnkişaf və Karyera Mərkəzinin Masallı bölməsinin könüllülərinin iştirakı ilə yüksək əhvali-ruhiyyədə baş tutub. Tədbir çərçivəsində əvvəlcə rayon icra hakimiyyətinin başçısı Araz Əhmədov bayram münasibətilə təşkil olunmuş meydanda Novruz atributları, xalq sənətkarlığı nümunələri, milli mətbəx təamları və müxtəlif sərgilərlə tanış olub. Şənlik Lənkəran Dövlət Dram Teatrının aktyor heyətinin çıxışları və Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin hazırladığı konsert proqramı ilə davam etdirilib. Proqram çərçivəsində Novruzun rəmzləri olan Bahar qız, Kosa və Keçəl obrazlarının iştirakı ilə maraqlı səhnəciklər təqdim olunub.

Tədbirin davamında rayon rəhbəri Araz Əhmədov el ağsaqqalı Dədə Qorqud obrazı ilə birlikdə xeyir-dua verərək, qədim ənənələrimizi və milli-mənəvi dəyərlərimizi yaşadan əziz Novruz bayramı və müqəddəs Ramazan bayramı münasibətilə rayon sakinlərini təbrik edib. Sonda A.Əhmədov el ağsaqqalı Dədə Qorqud obrazı və şəhid övladları ilə birlikdə bayram tonqalını alovlandırıblar.

Ümumrayon Novruz tədbiri sakinlərə xoş bayram ovqatı bəxş edib, eyni zamanda milli ənənələrimizin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edib.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# "Səma" rəqs ansamblı "Bahar sevinci" konsert proqramı ilə çıxış edib

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Xətai Sənət Mərkəzində "Bahar sevinci" adlı konsert keçirilib. Şüvəlan qəsəbə Mədəniyyət evi və Xətai rayon Mədəniyyət Mərkəzinin birgə təqdim etdiyi Novruz bayramına həsr olunmuş konsertdə "Səma" rəqs ansamblı çıxış edib.**



Tədbirdə Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva, baş idarənin rəisi İbrahim Əliyev, Özbəkistan, Rumıniya, Tacikistan, Türkmənistan, Meksika, Braziliya, Türkiyə, Qazaxıstan və Azərbaycandakı səfirləri və nümayəndələri, mədəniyyət işçiləri, eləcə də digər qonaqlar iştirak ediblər. Konsertdə "Səma" rəqs ansamblı tərəfindən Azərbaycan və türk dünyası ölkələrinin milli rəqsləri nümayiş olunub.

Tədbirdə çıxış edən deputat Günay Əfəndiyeva milli adət-ənənələrimizin və mənəvi dəyərlərimizin yaşadılmasına verdikləri töhfəyə görə "Səma" rəqs ansamblının rəhbərliyinə və kollektivinə təşəkkürünü bildirərək deyib: "Bu gün qədim Novruz bayramı ərəfəsində "Səma" rəqs ansamblının uşaqları bizə baharın gözəl ətrini, yeni nəfəsini yaşatdılar. Burada rəqslərini nümayiş etdirən uşaqlarımız azad, müstəqil, öz əzəli torpaqlarını qaytarmış və ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycanın qürurlu övladlarıdır. Bu gün bizim uşaqlarımız öz ifaları ilə həm də türk dünyasına olan sevgilərini göstərdilər".

Günay Əfəndiyeva "Səma" rəqs ansamblının bədii rəhbəri Səma Sadıqovaya təşəkkürnamə təqdim edib.

Daha sonra Şüvəlan qəsəbə Mədəniyyət evi və Xətai rayon Mədəniyyət Mərkəzinin rəsm dərnəyinin üzvlərinin əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Sonda qonaqlara hədiyyələr təqdim olunub.



# Səməd Vurğun - 120

*El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.*



**Yazıb-yaratdıqları ilə ədəbiyyat xəzinəsini zənginləşdirən hər şairin, yazıçının ədəbi aləmdə öz yeri var. Sənətin möhtəşəmliyi isə bəzən cildlərə sığmayan romanlarda olduğu qədər, bəzən cəmi bir neçə kəlmədən ibarət kiçicik misralarda da canlanır. Ona görə də söz adamlarının yaradıcı qüdrəti haqqında müqayisələr aparmaq çox zaman çətin və mübahisəli görünür.**

**Elə şair və yazıçılar da var ki, onlar ədəbiyyatın özüdürlər, ədəbiyyat deyəndə birinci onların adları, imzaları, qələmə aldıqları əsərlər yada düşür. Bu il anadan olmasından 120, vəfatından isə 70 il ötən Səməd Vurğun da istisnasız olaraq adı ədəbiyyatımızın rəmzinə çevrilmiş yaradıcı şəxsiyyətlərimizdəndir.**



# "Ayrılarmı könül candan..."

Səməd Vurğun kimi tarixi şəxsiyyətlərimizin, yaradıcı insanlarımızın Vətən və xalq qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək xatirələrinə böyük ehtiram göstərən Prezident İlham Əliyev şairin 120 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamış, bununla ədəbi fikir salnaməmizdə yeni parlaq mərhələ başladan görkəmli və unudulmaz sənətkara növbəti dəfə layiqli qiymət vermişdir. Sərəncamda oxuyuruq: "Onun dillər əzbərinə çevrilmiş "Azərbaycan" şeiri hər bir azərbaycanlının ürəyindəki Vətən sevgisinin poetik ifadəsidir. Böyük söz ustası ana dilinin saflığı uğrunda dönmədən mübarizə aparmış, xalq yaradıcılığının tükənməz xəzinəsindən bəhrələnməklə bu dilin bütün məna gözəlliklərini özündə əks etdirən, dərin bəşəri-ictimai məzmuna malik qiymətli əsərlər ərsəyə gətirmişdir".

Bəli, Səməd Vurğun təkcə bir-birindən gözəl, təkrarsız lirik şeirlərin, poemaların, dram əsərlərinin deyil, həm də Azərbaycan ədəbiyyatı tarixindəki böyük bir dövrün müəllifidir. O, Azərbaycanın və dünya poeziyasının yaddaşında təkrarsız poetik şəxsiyyət, görkəmli ictimai xadim, elm və sənət təşkilatçısı, qeyri-adi istedada malik şair, dramaturq, tərcüməçi, düşüncəsinin işığı ilə kamillik məqamına yetişmiş mütəfəkkir kimi yaşayır. Şairin poeziyası həyat, şəxsiyyət, şeiriyyət adlanan üç dünyadan ibarətdir və bu dünyaların hər birində o, ən möhtəşəm ucalıqdadır.

## Firudin bəy Köçərlini təəccübləndirən uşaq

Səməd Yusif oğlu Vəkilov 21 mart 1906-cı ildə Qazax qəzasının Yuxarı Salahlı kəndində anadan olub. Uşaqlıq illərini doğma kəndində keçirib, ibtidai təhsilini rus-tatar məktəbində alıb.

1918-ci ildə görkəmli ədəbiyyatşünas və maarifçi Firudin bəy Köçərlinin Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Qazaxa köçürülməsi Səmədin taleyində xoş bir təsadüfə çevrilir. Həmin şöbənin əsasında Firudin bəy Qazax Müəllimlər Seminariyasını təşkil edir, Səməd Vəkilov da bu məktəbə qəbul olunan kənd uşaqları arasında olur.

Müasirlərinin xatirələrinə görə, o, hələ kiçik yaşlarından son dərəcə həssas, eyni zamanda çox qətiyyətli, möhkəm iradəli, hazırcavab imiş. Elə bu hazırcavablığı ilə də ilk gündən Firudin bəy Köçərlinin diqqətini çəkir. Xatirələrə görə, Səmədi seminariyaya yazdırmağa nənəsi Aişə xanım gətiribmiş. Firudin bəy xəstə, qızdırmadan rəngi solmuş uşağa baxıb onu seminariyaya qəbul etmək istəməyib. Bu anda Səməd çox ahəstə bir səslə: - Ah! A Firudin bəy, bircə bilsəydin ki, burada, bu ürəkdə nələr var... - deyir.

Firudin bəy cəld geri dönür. Səmədin oxumaq, təhsil almaq həsrəti ilə qəlbindən qopardığı bu "ah" Köçərlini yumşaldır. İmtahan günü isə vaxtilə zəif hesab edib məktəbə qəbul etmək istəmədiyi Səməd Vəkilovun zəngin hafizəsinə və çox dürüst tələffüzünə heyran qalır, özünü saxlaya bilməyib onu bağrına basır.

Təhsilə başladığı ilk günlərdən ondakı fitri istedad dərhal özünü göstərir. Bu illərdə o, Vaqifin, Vidadinin, Zakirin, Sabirin, Puşkinin, Lermontovun, türk şairlərindən Tofiq Fikrətin, Namiq Kamal, Mehmed Eminin əsərləri ilə də tanış olur. Məlahətli səsi olduğundan gözəl oxuyur, sazda və skripkada məharətlə ifa edir, şeir deyir, həvəskar tamaşalarda rollar oynayır.

1922-ci ildə şairin atası Yusif ağa, bir il sonra isə nənəsi Aişə xanım vəfat edir. Bundan sonra Səmədə və qardaşı Mehdixana onların bibisi qızı pedaqoq Xanqızı Vəkilova qayğı göstərir.

## Dillərdə əzbər misralar

Hələ seminariyada oxuyarkən Səməd ilk şeirlərini qələmə alır. "Cavanlara xitab" şeiri Tiflisdəki "Yeni fikir" qəzetində dərc olunur. 1924-cü ildə seminariyanı uğurla başa vurduqdan sonra o, Qazaxda, Qubada, Gəncədə müxtəlif məktəblərdə Azərbaycan dili və ədəbiyyatı fənlərini tədris etməyə başlayır, ara-sıra dövri mətbuatda çap olunur. 30-cu illərə doğru şairin səsi-sorağı artıq ədəbi mühitin, geniş oxucu kütlələrinin nəzər-diqqətini çəkir. 1929-cu ildə Səməd ali təhsil almaq üçün İkinci Moskva Universitetinin Ədəbiyyat fakültəsinə daxil olur. Bir il sonra "Şairin andı" adlı ilk kitabı çapdan çıxır. Burada onun həmin illərdə yazdığı siyasi məzmunlu və lirik şeirləri toplanmışdı.

1934-cü ildə şair qısa müddətdən sonra dillər əzbərinə çevriləcək, ədəbiyyatımızın ən çox yayılmış incilərindən olan "Azərbaycan" şeirini qələmə alır. Həmin ildə "Könül dəftəri", 1935-ci ildə "Şeirlər" adlı kitabları nəşr olunur. 1935-ci ili Səməd Vurğunun yaradıcılıq fəaliyyətinin ən məhsuldar ili adlandırsaq, yəqin ki, yanılmarıq. Təkcə bir ildə Səməd Vurğun 7 poema və 100-ə yaxın şeir yazır.

Səməd Vurğun şeirlər yazmaqla yanaşı, poetik tərcümələr də edir. 1936-1937-ci illərdə o, tərcüməçilik fəaliyyətini genişləndirir. Puşkinin "Yevgeni Onegin" mənzum romanını Azərbaycan dilinə tərcümə edir. Puşkinin həmin poeması üçün spesifik olan "Onegin bəhri"ni Azərbaycan dilində tam qorumaqla edilmiş tərcümə o qədər mükəmməl alınmışdı ki, bu işinə görə Səməd Vurğuna Puşkin Komitəsinin "A.S.Puşkin medalı" təqdim olunur. Bu illərdə şair Şota Rustavelinin "Pələng dərisi geymiş pəhvəlan" əsərinin bir hissəsini də böyük ustalıqla tərcümə edir və buna görə Gürcüstan SSR MİK-in fəxri fərmanı ilə təltif olunur. Şairin usta qələmindən çıxmış daha bir tərcümə əsəri isə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasıdır.

1937-ci ilin ikinci yarısında Səməd Vurğun özünün ölməz əsərini - "Vaqif" dramını yazır və buna görə 1941-ci ildə o dövrün ən yüksək dövlət təltiflərindən olan "Stalin" mükafatına layiq görülür. Həmin il Səməd Vurğun Nizaminin "Xosrov və Şirin" poemasının motivləri əsasında "Fərhad və Şirin" mənzum dramını da yazır və 1942-ci ildə bu əsərə görə ikinci dəfə "Stalin" mükafatı ilə təltif olunur.

1937-1938-ci illərin qanlı repressiyaları Səməd Vurğundan da yan keçmir. O, 1953-cü ildə haqsız hücumlara, təzyiqlərə məruz qalır. "Aygün" poeması tənqid edilir. Şairin Moskvada çap edilmiş "Şairin hüquqları" məqaləsi ona qarşı hücumları daha da kəskinləşdirir. Respublika rəhbərliyinin göstərişi ilə məqalə Azərbaycan Yazıçılar İttifaqında müzakirə edillir, onun əleyhinə məktub yazılıb Moskvaya göndərilir. Şair millətçilikdə təqsirləndirilir. Lakin həmin il Stalinin ölümündən sonra SSRİ və respublika rəhbərliyində baş verən dəyişikliklər nəticəsində şairə qarşı nəzərdə tutulmuş cəza tədbirləri baş tutmur.

## Bir dünya şöhrət

1941-1945-ci illərin İkinci Dünya müharibəsi şairin yaradıcılığında xüsusi yer tutur. Müharibə illərində sənətkar 60-dan artıq şeir, bir neçə poema, o cümlədən "Bakının dastanı"nı yazır. 1943-cü ildə ABŞ-də keçirilən müharibə əleyhinə yazılmış ən dəyərli əsərlər müsabiqəsində Səməd Vurğunun yazdığı "Ananın öyüdü" şeiri çox yüksək qiymətləndirilərək dünya ədəbiyyatında bu mövzuda yazılmış 20 əsərdən biri kimi Nyu Yorkda çap edilir və hərbçilər arasında yayılır.

Səməd Vurğunun şöhrəti dünyada tanınmış şair olmaqla yanaşı, eyni zamanda böyük alim, əvəzsiz təşkilatçı və nəzəriyyəçi olmasında idi. 1945-ci ildə o, yeni yaradılmış Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən biri olur və Azərbaycan SSR Elmlər Akademiyasının akademiki seçilir. 1954-cü ildə Səməd Vurğun Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsinə seçilərək milli elmimizin, ədəbiyyatşünaslığımızın inkişafında əvəzsiz xidmətlər göstərir.

1948-ci ildə Səməd Vurğun Polşada keçirilən Mədəniyyət Xadimlərinin Dünya Konqresinin iştirakçısı olur. Konqresdən qayıtdıqdan sonra "Zəncinin arzuları" adlı məşhur poemasını qələmə alır. Şairin müharibədən sonrakı dövrə dair yaradıcılığı da həm məhsuldarlığı, həm mövzu seçimi ilə xarakterikdir. O, bu dövrdə bir-birinin ardınca "Muğan" (1948), "Aygün" (1950-1951), "Zamanın bayraqdarı" (1952) poemalarını yazır.

SSRİ-də Səməd Vurğun müstəsna nüfuza malik idi. O, müxtəlif illərdə SSRİ-nin ən yüksək orden və medalları ilə təltif edilmiş, geniş kütlələrin sevgisini qazanmışdır. O, Azərbaycanın Xalq şairi adına layiq görülən ilk şairimiz idi. Dövlət qarşısında böyük xidmətlərinə görə Səməd Vurğun iki dəfə "Lenin", "Şərəf nişanı" ordenləri, "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" döyüş medalları ilə təltif olunmuşdur.

1954-cü ildə Sovet Yazıçılarının II Ümumittifaq Qurultayında "Sovet poeziyası haqqında" əlavə məruzəni məhz Səməd Vurğunun etməsi şairin keçmiş ittifaqda nə qədər böyük nüfuza malik olmasının göstəricisi idi.

## Ədəbi simvol

Səməd Vurğun Azərbaycan ədəbiyyatında yalnız böyük bir şair kimi deyil, həm də xalqın taleyini və tarixi yaddaşını poeziyada yaşadan nadir şəxsiyyətlərdən biri kimi qəbul olunur. Onun yaradıcılığı da, həyat yolu da, əslində, xalqın keçdiyi mürəkkəb və ağrılı tarixi mərhələlərin bədii salnaməsidir. Şairin gənclik illəri ölkənin ağır sınaqlarla üzləşdiyi, qanlı və faciəli keçmişdən qoparaq yeni həyat qurmağa çalışdığı bir dövrə təsadüf edirdi. Bu, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan, ağır mənəvi zərbədən sonra xalqımızın yenidən doğulduğu, ümid və iztirabın bir-birinə qarışdığı tarixi mərhələ idi.

Səməd Vurğunun şəxsiyyətində bədii güc və zamanın çağırışlarına cavab verən böyük bir yaradıcı miqyas birləşirdi. O, yalnız fərdi poetik istedadı ilə deyil, həm də milli poeziyanın inkişafında oynadığı tarixi rolu ilə seçildi. Bu baxımdan onun yaradıcılığı bütövlükdə Azərbaycan ədəbiyyatında yeni bir mərhələnin başlanğıcı kimi qiymətləndirilir.

Azərbaycan söz sənətinin çoxəsrlik ənənəsi isə bu yeni mərhələyə güclü bir mənəvi dayaq verirdi. Nizami Gəncəvi, Xaqani Şirvani, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif və Mirzə Ələkbər Sabir kimi dahilərin yaratdığı böyük ədəbi məktəb bu dövrdə də öz varislərini yetişdirirdi. Bu mənada Azərbaycan poeziyasında maraqlı və rəmzi bir mənzərə yaranmışdı: Arazın o tayında Məhəmmədhüseyn Şəhriyar, bu tayında isə Səməd Vurğun klassik irsin davamçıları kimi çıxış edir, milli söz sənətinin bayrağını ucaldırdılar. Bununla Səməd Vurğun yalnız bir şair deyil, həm də bir epoxanın ədəbi simvolu kimi yadda qalmışdır. Onun yaradıcılığı XX əsrin ortalarında Azərbaycan xalqının milli-ictimai düşüncəsinin, mənəvi dəyərlərinin və bədii təfəkkürünün ən parlaq ifadələrindən biri kimi formalaşaraq Azərbaycan poeziyasının klassik irsi ilə müasir dövrü arasında körpü rolunu oynamış və milli ədəbiyyatımızın inkişafında silinməz iz buraxmışdır. Ona görə də Səməd Vurğun poeziyası yalnız estetik hadisə deyil, həm də xalqın tarixini, mənəviyyatını və ideallarını əks etdirən böyük bir bədii-tarixi fenomendir.

## Vətəndaşlıq poeziyası

Səməd Vurğunun yaradıcılığının əsas xüsusiyyətlərindən biri romantik və vətəndaşlıq ruhunun vəhdətidir. O, poeziyanı yüksək bədii-estetik ideal və geniş vətəndaşlıq amalı ilə birləşdirərək romantik ənənəni yeni məzmunla zənginləşdirmişdir. Bu mənada Səməd Vurğunun yaradıcılığı klassik romantik poeziyanın böyük nümayəndələrinin - Məhəmməd Füzulinin, Hafizin, Bayronun, Puşkinin, Namiq Kamalın, Hüseyn Cavidin əsərlərindən başlanan böyük yolun, işıqlı ənənələrin davamıdır.

Onun romantik poetik dünyasında qəhrəmanlıq, idealizm və mənəvi ucalıq əsas yer tutur. Şair yaratdığı obrazlarla həm milli tarixə, həm də bəşəri dəyərlərə bağlı romantik bir ideallar sistemi qurur. Bu xüsusiyyət xüsusilə "Vaqif" və "İnsan" dramlarında və "Fərhad və Şirin" poemasında aydın görünür.

Səməd Vurğunun poeziyasında epik genişlik və fəlsəfi dərinlik də vəhdətdədir. Xüsusilə müharibədən sonrakı dövrdə yazdığı "Muğan", "Aygün", "Zamanın bayraqdarı" kimi poemalarla o, Azərbaycan poeziyasında belə bir poetik dəyərin yeni səviyyəsini müəyyənləşdirir. Bu əsərlərdə bədii dilin yeniliyi, poetik formanın zənginliyi və epik düşüncə tərzi sənətkarlığın üfüqlərini daha da genişləndirir.

Eyni zamanda onun yaradıcılığında psixoloji dramatizm və emosional gərginlik də mühüm yer tutur. Bu xüsusiyyətlər xüsusilə "Komsomol poeması", "Zəncinin arzuları", "Ölüm kürsüsü" kimi əsərlərdə özünü göstərir.

Səməd Vurğunun poeziyası tariximizin və milli yaddaşımızın poeziyasıdır. Onun əsərlərində qədimdən müasir dövrümüzə qədər geniş bir tarixi panoram təqdim olunur. Şairin "Bakının dastanı", "Aslan qayası", "Muğan" poemalarını oxuduqca sanki o tarixə, o yaddaşa daxil olub, həmin əsərdəki qəhrəmanların müasirlərinə çevrilirsən.

Şair klassik ədəbiyyatın obrazlarını yeni bədii məna ilə təqdim etməyin də misilsiz ustasıdır. "Vaqif" dramında Molla Pənah Vaqif obrazı yalnız şair kimi deyil, həm də müdrik dövlət xadimi və humanist düşüncəli ziyalı kimi təqdim olunur. Bu əsər Azərbaycan dramaturgiyasında romantik qəhrəman obrazının ən parlaq nümunələrindəndir.

Səməd Vurğunun yaradıcılığında bəşəri problemlər mühüm yer tutur. "İnsan" dramında xeyir və şər, ağıl və zorakılıq, mənəviyyat və hakimiyyət kimi əbədi fəlsəfi məsələlər qoyulur. Şahbaz obrazı vasitəsilə şair insan ağlının və mənəvi kamilliyin gələcəyi haqqında sual verir. Onun qoyduğu "Qalib gələcəkmi cahanda kamal?" sualı əsərin əsas fəlsəfi ideyasını təşkil etməklə dünya ədəbiyyatının böyük düşüncə ənənələri ilə səsləşir.

Səməd Vurğun yaradıcılığının son mərhələsində daha çox insan taleyi, zaman və həyatın mənası kimi mövzular ön plana çıxır. "Şair, nə tez qocaldın sən?!", "Gödəkçə", "Unudulmuş tək məzar", "Mən tələsmirəm" kimi şeirlərdə bu dünyanın faniliyi, zamanın sürəti və insanın mənəvi mövqeyi fəlsəfi lirika səviyyəsində ifadə edilir.

Səməd Vurğun 1956-cı il may ayının 27-də vəfat edir. Fəxri xiyabanda dəfn olunan şairin vəfatından 70 il ötsə də, Vurğun sözü, Vurğun şəxsiyyəti hər zaman yaşayır və Azərbaycanla birgə hər zaman da yaşayacaq. Məşhur misrasında yazdığı kimi:

"Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan!"

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## ŞEİRLƏR

### ANA

Pək çocuqdum yerə gömdülər səni,
Həyata qanadsız atdılar məni.
Bax, necə pozulub ömrüm gülşəni,
Həyat sənsiz mənə zindandır, ana!
Qoynunda bəslənir gözəl diləklər,
Layiqdir səcdəyə sənə mələklər,
Nerdəsən, ah gözlərim həp səni bəklər,
Bax, övladın nasıl giryandır, ana!
Sən bir günəş idin, doğdun da batdın,
Yazıq övladını qəmlərə atdın.
Bir cavab ver, hankı murada çatdın
Torpaqlarda neçə zamandır, ana!
Bir ah çəksəm sənsiz, qopmazmı tufan?
Əzizim anacan, gözüm anacan!
Yumuq gözlərini aç da bir oyan,
Şimdi zaman başqa zamandır, ana!
Yıxılıb payinə öpmək istərəm,
Analıq mehrini görmək istərəm,
Səni görmək üçün ölmək istərəm,
Təsəllim ah ilə fəğandır, ana!

### ŞAİR, NƏ TEZ QOCALDIN SƏN!

Nemətsə də gözəl şer,
Şair olan qəm də yeyir.
Ömrü keçir bu adətlə,
Uğurlu bir səadətlə.
Görən məni nədir deyir:
Saçlarına düşən bu dən?
Şair, nə tez qocaldın sən!

Dünən mənə öz əlində
Gül gətirən bir gəlin də
Gözlərində min bir sual
Heykəl kimi dayandı lal…
O bəxtəvər gözəlin də
Mən oxudum gözlərindən:
Şair, nə tez qocaldın sən!

Ovçuluğa meyil saldım,
Gecə - gündüz çöldə qaldım,
Dağ başından enib düzə
Bir ox kimi süzə-süzə
Neçə ceyran nişan aldım;
Cavab gəldi güllələrdən:
Şair, nə tez qocaldın sən?

Bəzən uca, bəzən asta,
Ötür sazım min sim üstə.
Andı yalan, eşqi yalan,
Dostluğu da rüşvət olan,
Ürək yıxan bir iblis də
Üzəvari deyir hərdən:
Şair, nə tez qocaldın sən!

Saç ağardı, ancaq ürək
Alovludur əvvəlki tək.
Saç ağardı, ancaq nə qəm!
Əlimdədir hələ qələm…
Bilirəm ki, deməyəcək
Bir sevgilim , bir də Vətən:
- Şair, nə tez qocaldın sən!

### VƏTƏN HƏSRƏTİ

Elindən, günündən ayrılan könül,
Arabir vaxt tapıb ağlasın gərək.
Əziz kimsələri qırılmış kimi,
Yas tutub qaralar bağlasın gərək.
Demirəm incidib üzsün özünü,
Əl üzüb dünyadan yumsun gözünü.
Nə qədər olsa da, Vətən sözünü,
Duysun ürəyində, anlasın gərək.
Bir şikəstə neyəm, bir qırıq kaman,
Görmədim bir bəla-həsrətdən yaman,
Vurğun ellər deyib ağlar hər zaman,
Onun qaydasıdır, ağlasın gərək.

### GÖDƏKÇƏ

Dostum! Moskvada iki il qabaq
Qarlı bir qış günü bir evə dolduq.
Dostlar, tanışlar da məclis quraraq,
Üstünə yüngüllük, gülüb şad olduq.
Mən soyuqlamışdım o axşam bir az.
Sənsə ərk eləyib danladın məni,
Dedin ki, bu qədər soyuqluq olmaz,
Özünə baxmırsan... Doğrudan da sən.
Elə bil canının lap düşmənisən!
Sonra əynindəki bir gödəkçəni
Mənə bağışladın o məclisdəcə.
Üstəlik bir söz də dedin o gecə:
"Biz heç... Qoy şairə soyuq dəyməsin!"
O ürəkdən gələn mehriban səsin
İndi də, indi də xatirimdədir...
Əzəldən qaydadır eldə, obada,
Dostluğun töhfəsi bir çöp olsa da,
Anlayan bilər ki, mənası nədir!
İndi qış günləri şaxtada, qarda,
Əlimdə tüfəngim, çöllər gəzirəm.
Arabir yol azıb qasırğalarda,
Bir işıq axtarıb ellər gəzirəm.
Gah şər qarışanda, gah da dan üzü
Sazaq qılınc kimi kəsəndə məni,
Geyirəm verdiyin o gödəkçəni,
Elə bil gül açır Mil, Muğan düzü.
Bəzən Bakıda da xəzri əsəndə,
Elə ki, qəflətən xəstələnirəm,
Elə ki, qorxudur məni sətəlcəm,
Uşaqlar deyinib, həmdəm küsəndə,
Geyirəm verdiyin bu gödəkçəni.
Bu ceyran dərisi bir loğman kimi
Davasız, dərmansız sağaldır məni.
Xeyirxah, mehriban bir insan kimi,
hər zaman, hər yerdə anıram səni...

# Bakıda daha bir dünya çempionatı keçiriləcək




Azərbaycan bu yay daha bir mötəbər idman yarışına evsahibliyi edəcək.

Güləş Federasiyasından AZƏRTAC-a bildirilib ki, avqustun 27-dən 29-dək Bakıda çimərlik güləşi üzrə 2 beynəlxalq turnir keçiriləcək. Avqustun 27-də paytaxtımızda U-17 dünya çempionatı baş tutacaq. Növbəti 2 gündə isə böyüklər arasında Dünya Seriyasının IV mərhələsi təşkil ediləcək. Hər iki yarış ölkəmizdə ilk dəfə keçiriləcək.

Xatırladaq ki, Bakı iyulun 27-dən avqustun 2-dək sərbəst, qadın və yunan-Roma güləşi üzrə U-17 dünya çempionatına da evsahibliyi edəcək.

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik -156 (yüz əlli altı) manat
6 aylıq - 78 (yetmiş səkkiz) manat
3 aylıq - 39 (otuz doqquz) manat
1 aylıq - 13 (on üç) manat




Hörmətli oxucular!

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.

# Qocalma sürətini azaltmaq mümkündür

Yaş artdıqca xərçəng, ürək xəstəlikləri və demensiya kimi ağır xəstəliklərə niyə daha çox rast gəlindiyi uzun illərdir alimləri düşündürən əsas suallardan biridir. Son tədqiqatlar göstərir ki, cavab təkcə xəstəliklərin özündə deyil, bədəndə qocalma mexanizmində gizlənir. Hüceyrə səviyyəsində baş verən dəyişikliklər orqanizmin müxtəlif sistemlərini tədricən zəiflədir və nəticədə bir çox xəstəliklər üçün zəmin yaradır.

ABŞ-nin Rokfeller Universitetinin alimləri bu istiqamətdə ən geniş araşdırmalardan birini həyata keçiriblər. Tədqiqatçılar bədənin necə qocaldığını anlamaq üçün 21 müxtəlif orqandan götürülmüş təxminən 7 milyon hüceyrəni analiz edərək onların xəritəsini hazırlayıblar. Araşdırma zamanı üç müxtəlif yaş qrupuna aid siçanlar üzərində müşahidələr aparılıb. Alimlər hüceyrələrin həm sayını, həm də funksional vəziyyətini müqayisə edərək qocalma prosesinin necə dəyişdiyini araşdırıblar. Nəticələr uzun illər mövcud olan bəzi fikirləri də dəyişdirib.

İndiyə qədər alimlər qocalmanın əsasən hüceyrələrin funksiyasının pozulması ilə əlaqədar olduğunu düşünürdülər. Lakin yeni tədqiqat göstərdi ki, qocalma təkcə hüceyrələrin zəifləməsi deyil, eyni zamanda onların sayının dəyişməsi ilə də müşayiət olunur. Araşdırılan hüceyrə növlərinin təxminən dörddəbirində əhəmiyyətli dəyişiklik və ya azalma qeydə alınıb. Məsələn, bəzi əzələ və böyrək hüceyrələrinin sayı yaş artdıqca kəskin şəkildə azalıb. Bu isə orqanların funksiyasının zəifləməsinə gətirib çıxarır. Digər tərəfdən, immun sisteminə aid hüceyrələr əhəmiyyətli dərəcədə artır. İlk baxışda bu müsbət görünə bilər. Lakin immun hüceyrələrinin həddindən artıq aktivliyi bədəndə xroniki iltihaba səbəb olur və bu da bir çox xəstəliklərin inkişafında mühüm rol oynayır.

Tədqiqatın ən maraqlı nəticələrindən biri isə qocalmanın düşündüyümüzdən daha erkən başlaması ilə bağlıdır. Alimlər uzun müddət qocalmanın əsasən yaşlılıq dövründə sürətləndiyini düşünürdülər. Lakin yeni nəticələr göstərdi ki, bu proses əslində daha erkən mərhələdə - orta yaş dövründə başlayır. Siçanların həyat dövrü ilə müqayisədə orta yaş hesab olunan beşinci ayda artıq bəzi hüceyrə qruplarında geriləmə müşahidə olunub. Tədqiqatın rəhbərlərindən biri olan alim Junyue Cao bu nəticəni belə izah edir ki, qocalma həyatın son mərhələsində qəfil başlayan bir proses deyil. Əksinə, o, həyat boyu davam edən və yavaş-yavaş irəliləyən bir inkişaf mərhələsidir. Başqa sözlə desək, qocalıq birdən-birə başlamır, illər boyu səssiz şəkildə formalaşır.



Araşdırma zamanı diqqətçəkən başqa bir məqam müxtəlif orqanlarda baş verən dəyişikliklərin bir-biri ilə sıx əlaqəli olmasıdır. Alimlər aşkar ediblər ki, müxtəlif orqanlarda oxşar hüceyrə dəyişiklikləri eyni vaxtda baş verir. Bu isə qocalma prosesinin bədəndə koordinasiyalı şəkildə idarə olunduğunu göstərir. Tədqiqatçılar hesab edirlər ki, bu koordinasiyanı təmin edən siqnallar böyük ehtimalla qan dövranı vasitəsilə bütün bədənə yayılır. Bu siqnallar müxtəlif orqanlara eyni anda təsir edərək qocalma prosesini sinxronlaşdırır. Bu kəşf gələcəkdə qocalmanı ləngitmək üçün yeni tibbi strategiyaların hazırlanmasına kömək edə bilər.

Araşdırmada cinsiyyətlər arasında da maraqlı fərqlər aşkar edilib. Məlum olub ki, yaşla bağlı dəyişikliklərin təxminən 40 faizi qadın və kişilərdə fərqli şəkildə baş verir. Qadınlarda immun sisteminin daha aktiv olduğu müşahidə edilib. Alimlər hesab edirlər ki, bu xüsusiyyət qadınlarda autoimmun xəstəliklərin daha çox yayılmasının səbəblərindən biri ola bilər. Tədqiqatın başqa bir mühüm hissəsi isə hüceyrələrdəki genetik dəyişikliklərin araşdırılması olub. Alimlər hüceyrələr daxilində DNT-nin necə təşkil olunduğunu və yaş artdıqca hansı dəyişikliklərin baş verdiyini də analiz ediblər. Araşdırma nəticəsində təxminən 1,3 milyon genom bölgəsində 300 minə yaxın yaşla bağlı dəyişikliklər aşkar olunub. Bu dəyişikliklərin təxminən minə yaxını müxtəlif hüceyrə tiplərində eyni şəkildə müşahidə olunub. Maraqlıdır ki, onların böyük əksəriyyəti immun sisteminin fəaliyyəti, iltihab reaksiyaları və kök hüceyrələrinin yenilənməsi ilə bağlıdır.

Alimlər uzun müddət qocalmanın təsadüfi genetik zədələnmələrin nəticəsi olduğunu düşünürdülər. Lakin yeni nəticələr göstərir ki, qocalma prosesi daha sistemli və müəyyən mexanizmlərlə idarə olunan bir prosesdir. Hüceyrələrdə "tənzimləyici qaynar nöqtələr" adlandırılan xüsusi sahələr var və bu sahələr yaş artdıqca daha həssas olur. Tədqiqatçılar əvvəlki araşdırmalarla müqayisə apararkən başqa bir mühüm əlaqəni də müəyyən ediblər. Yaşlanma zamanı müşahidə olunan hüceyrə dəyişikliklərinin böyük hissəsi sitokinlər adlanan immun siqnal molekulları ilə əlaqəlidir. Sitokinlər bədənin immun reaksiyasını tənzimləyən mühüm maddələrdir. Mütəxəssislər hesab edirlər ki, gələcəkdə bu sitokinləri tənzimləyən dərmanların hazırlanması qocalma prosesini ləngidə və eyni zamanda bir neçə orqanın yaşlanmasını paralel şəkildə yavaşlada bilər. Bu isə tibb sahəsində yeni bir istiqamətin yaranmasına səbəb olacaq.

Qocalma ilə bağlı tədqiqatlar yalnız bədənin ümumi dəyişikliklərini deyil, eyni zamanda beynin yaşlanma mexanizmlərini də araşdırır. Son illərdə aparılan başqa bir araşdırma isə Altsheymer xəstəliyinin sirrini anlamağa kömək edə biləcək maraqlı nəticələr ortaya qoyub. Alimlər 80 yaşdan yuxarı bəzi insanların yaddaşının gənclərlə eyni səviyyədə olduğunu müşahidə ediblər. Araşdırma zamanı bağışlanmış beyin toxumasından götürülmüş təxminən 356 min fərdin beyin hüceyrəsi analiz edilib. Nəticələr göstərib ki, bu insanların beynində hüceyrə yenilənməsi adi yaşlı insanlarla müqayisədə xeyli yüksəkdir.

Tədqiqatçılar müəyyən ediblər ki, bu yaşlılarda yaddaşın formalaşmasında mühüm rol oynayan hipokamp bölgəsində yeni neyronların yaranması davam edir. Bu proses "hipokampal neyrogenez" adlanır və yaddaşın qorunmasında da böyük əhəmiyyət daşıyır. Alimlərin fikrincə, bu mexanizm xüsusi gen qruplarının fəaliyyəti ilə bağlıdır. Hüceyrələrdə epigenetik tənzimləmə adlanan kimyəvi "açarlar" müəyyən genləri aktiv və ya passiv vəziyyətə gətirir. Bu yaşlıların beynində isə neyronların böyüməsini və yenilənməsini təmin edən genlər aktiv vəziyyətdə qalır.

Altsheymer xəstələrində bu epigenetik "açarlar" tədricən sönür. Maraqlısı odur ki, bu dəyişikliklər xəstəliyin ilk simptomları ortaya çıxmazdan xeyli əvvəl başlayır. Bu səbəbdən alimlər hesab edirlər ki, gələcəkdə bu mexanizmi hədəf alan yeni dərmanlar xəstəliyin qarşısını almağa kömək edə bilər. Belə ki, bu unutqanlıq xəstəliyi beynin sinir hüceyrələrində beta-amiloid və tau adlı zülalların toplanması nəticəsində yaranır. Bu zülallar sinir hüceyrələrinin fəaliyyətini pozur və onların tədricən ölümünə səbəb olur. Nəticədə yaddaş zəifləyir, düşünmə qabiliyyəti azalır və insan gündəlik fəaliyyətlərini yerinə yetirməkdə çətinlik çəkir. Xəstəliyin ilkin mərhələsində insanlar yeni məlumatları xatırlamaqda çətinlik çəkir, son hadisələri tez-tez unudur və söz tapmaqda çətinlik yaşayırlar. Zaman keçdikcə isə planlaşdırma, qərar qəbul etmə və gündəlik işləri yerinə yetirmə qabiliyyəti də zəifləyir. Növbəti mərhələlərdə xəstələr davranış dəyişiklikləri, narahatlıq və yuxu pozğunluqları yaşayır, son mərhələdə isə tamamilə başqalarının köməyindən asılı vəziyyətə düşürlər.

Mütəxəssislər qeyd edirlər ki, zehni fəaliyyət, sosial əlaqələr və fiziki aktivlik beynin sağlam qalmasına kömək edə bilər. Oxumaq, yeni şeylər öyrənmək, yaddaş oyunları oynamaq və aktiv həyat tərzi sürmək beyin funksiyalarını dəstəkləyən amillər hesab olunur.

Alimlərin son tədqiqatları göstərir ki, qocalma və onunla bağlı xəstəliklər qaçılmaz olsa da, bu prosesin mexanizmini anlamaq gələcəkdə yeni müalicə üsullarının inkişafına yol aça bilər. Hüceyrə səviyyəsində aparılan araşdırmalar qocalmanın sadəcə zamanın təsiri deyil, mürəkkəb bioloji mexanizmlərlə idarə edilən bir proses olduğunu göstərir.

Bütün bu tapıntılar ümid verir ki, gələcəkdə qocalma prosesini yavaşlatmaq, xəstəliklərin qarşısını almaq və insanların daha sağlam və keyfiyyətli həyat sürməsini təmin etmək mümkün olacaq. Tədqiqatçıların qarşısında duran əsas vəzifə isə bu mexanizmləri daha dərindən öyrənmək və əldə olunan bilikləri praktik tibbdə tətbiq etməkdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# ABŞ-İran dialoqu bərpa olunur?

**ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff və İranın xarici işlər naziri Abbas Əraqçi arasında birbaşa ünsiyyət kanalı rəsmi diplomatik danışıqlar ölkələri arasında münaqişənin sona çatması ilə bağlı əlaqə yaratmağa başlayıblar. Bu barədə Amerikanın Axios veb saytı mənbələrinə istinadən xəbər verib.**



Xəbərə görə, ABŞ-nin xüsusi elçisi Uitkoff və İran xarici işlər naziri Abbas Əraqçi arasında birbaşa əlaqə xətti bu yaxınlarda bərpa edilib. İddia olunur ki, bunlar fevralın sonlarında İrana qarşı ABŞ-İsrail hərbi əməliyyatının başlamasından bəri ilk belə əlaqələrdir. Bildirildiyinə görə, bu əlaqələri İran tərəfi başlatmışdır.

Mənbələrdən biri ABŞ-nin İranın təzminatla bağlı tələblərini qəbul etməyə hazır olmadığını vurğulayıb. Lakin onun sözlərinə görə, Vaşinqton İranın dünyanın qalan hissəsi ilə inteqrasiyasına imkan verəcək razılaşmaya açıqdır.

Amma Əraqçi bu məlumatı təkzib edib. O, Uitkoffla son əlaqəsinin "onun rəhbərinin İrana qarşı yeni bir qanunsuz hərbi hücumla diplomatiyanı məhv etmək qərarından" əvvəl baş verdiyini bildirib. Xatırladaq ki, bir neçə gün əvvəl İranın xarici işlər naziri Tehranın ABŞ ilə münaqişəyə son qoymaq üçün danışıqlar aparmaq niyyətində olmadığını və hərbi əməliyyatlarını davam etdirməyə hazır olduğunu bildirmişdi.

Bu arada Prezident Donald Tramp da İranın ABŞ ilə əlaqə saxladığını təsdiqləyib. Lakin qeyd edib ki, "bu nümayəndələrin razılaşmalar barədə danışıqlar aparmaq səlahiyyəti olub-olmadığı bəlli deyil". O, jurnalistlərə bildirib: "Onlar danışıqlar aparmaq istəyirlər. Onlar bizim adamlarımızla danışırlar... amma biz onların kim olduğunu bilmirik".

Tramp Tehranın razılaşmaya hazırlığına şübhə ilə yanaşsa da, danışıqların mümkünlüyünü istisna etməyib və qeyd edib ki, "bəzən bundan yaxşı şeylər alınır".

İran rəsmiləri də açıq şəkildə ABŞ ilə atəşkəs barədə danışıqlar aparmadıqlarını bildirirlər. Onlar Tehranın müvəqqəti atəşkəsə razılaşmayacağını və uzunmüddətli sülh zəmanəti tələb etdiyini vurğulayırlar.

Mənbələr həmçinin qeyd edirlər ki, Əraqçi İranda əsas qərar qəbul edən şəxs hesab edilmir və öz hərəkətlərini keçmiş ali liderin ölümündən sonra ölkənin milli liderinə çevrilən Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Laricani ilə əlaqələndirir.

"The Wall Street Journal" qəzetinin məlumatına görə, ABŞ Prezidenti Donald Trampın bəzi müşavirləri siyasi nəticələrdən, enerji qiymətlərinin artmasından və uzunmüddətli müharibə riskindən ehtiyat edərək onu İranla münaqişəyə son qoymağa çağırırlar. "Reuters" agentliyi isə Ağ Ev daxilində mübarizələrin hələ də davam etdiyini bildirib: "Bəzi müşavirlər əməliyyatın məhdudlaşdırılmasını və münaqişənin tez bir zamanda başa çatmasını təklif edir, digərləri isə nüvə təhlükəsinin qarşısını almaq üçün hərbi təzyiqin davam etdirilməsində israrlıdırlar".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Ayda maqnit sahəsinin sirri ilk dəfə izah olunub

Beynəlxalq alimlər qrupu Ay geologiyasının uzun illərdir müzakirə olunan bir sirrinə izah verib: niyə "Apollon" missiyaları ilə Yerə gətirilmiş bəzi süxur nümunələri keçmişdə Ayda güclü maqnit sahəsinin mövcud olduğunu göstərir. Tədqiqat Nature Geoscience jurnalında dərc olunub.

Hazırda Ayın maqnit sahəsi çox zəif və lokal xarakter daşıyır və Yerin kimi güclü və qlobal maqnit sahəsindən fərqlənir. Lakin yaşı təxminən 3,5 milyard il olan Ay süxurlarının nümunələri göstərir ki, keçmişdə peykin maqnit sahəsi xeyli güclü olub və bəzi hallarda indiki Yer maqnit sahəsi ilə müqayisə edilə biləcək səviyyəyə çatıb. Bu fakt uzun müddət alimləri çaşdırıb. Çünki Ay Yerdən xeyli kiçikdir və Yerin maqnit sahəsini təmin edən daxili proseslərə və enerji mənbələrinə malik deyil.

Oksford Universitetinin tədqiqatçıları belə ehtimal irəli sürüblər ki, Ayın süxurlarında qeydə alınan güclü maqnit siqnalları uzun müddət mövcud olmuş güclü sahə ilə deyil, maqnit aktivliyinin nadir və qısamüddətli güclənmələri ilə bağlı ola bilər.

Alimlər Ayın qədim lava düzənliklərində yaranmış vulkanik süxurlar olan dəniz ba-



zaltları adlandırılan süxurları yenidən təhlil ediblər. Araşdırma nəticəsində müəyyən olunub ki, ən güclü maqnitləşmiş nümunələrdə titan elementinin miqdarı daha çoxdur.

Daha sonra tədqiqatçılar belə süxurların formalaşma proseslərinin Ayın maqnit sahəsinə necə təsir edə biləcəyini öyrənmək üçün bunu kompüterdə modelləşdiriblər. Nəticə göstərib ki, nüvə ilə mantiya sərhədinə yaxın ərazilərdə titanla zəngin süxurların əriməsi nüvədən çıxan istilik axınını gücləndirə bilər. Bu isə maqnit sahəsini yaradan dinamo prosesini müvəqqəti olaraq aktivləşdirə və ya gücləndirə bilər.

Eyni proseslər titanla zəngin olan lava püskürmələrinə də səbəb olub. Məhz belə süxurlar "Apollon" missiyalarının astronavtları tərəfindən toplanaraq Yerə gətirilib.

Geoloq Con Ueydin sözlərinə görə, nəticələr mövcud nümunələrin məhdud olması səbəbindən müəyyən dərəcədə təhrif olunmuş görünə bilər. "Əgər yadplanetlilər Yerə cəmi altı dəfə gəlib nümunələri yalnız bir ərazidən toplasaydılar, onlar da oxşar yanlış nəticələrə gələ bilərdilər", - deyə o qeyd edib.

Yeni nəzəriyyəyə görə, Ayda güclü maqnit sahəsinin mövcud olduğu dövrlər cəmi bir neçə min il davam etmiş ola bilər. Bu isə Ayın ümumi yaşı ilə müqayisədə çox qısa müddətdir.

Tədqiqatın müəllifləri etiraf edirlər ki, model məhdud sayda məlumatlara əsaslanır, çünki alimlərin ixtiyarında yalnız az sayda Ay süxuru nümunəsi var. Lakin gələcək kosmik missiyalar bu nəzəriyyəni yoxlamağa kömək edə bilər.

"Artıq Ayın maqnit sahəsinin müxtəlif səviyyələrinin izlərini hansı tip süxurların saxlamalı olduğunu proqnozlaşdıra bilərik", - deyə geofizik Saymon Stivenson bildirib. Onun sözlərinə görə, Artemis proqramı çərçivəsində planlaşdırılan gələcək missiyalar yeni nümunələrin toplanmasına və Ayın maqnit sahəsinin tarixinin daha yaxşı öyrənilməsinə imkan verəcək.

Anar Paşa oğlu Zülfiqarovun adına verilmiş Jasmin Park Saray, blok js 8, 74 nömrəli mənzil üçün verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Mahir Süleymanlıya əzizi

**RƏHMAN SÜLEYMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3378
Sifariş 372

Qiyməti 60 qəpik